# YENİ İLİNİZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 49 (6142) 26 dekabr 2025-ci il | Qiyməti 40 qəpik

## 200 İLLİK İŞĞALA SON QOYAN SƏRKƏRDƏ




Bax: səh-2

## Sahibə Qafarova:
## "İlham Əliyev xalqın dərin məhəbbətini və hörmətini qazanıb"



"Möhtərəm Prezident İlham Əliyev Vətənimizin bu günü və sabahı naminə həyata keçirdiyi möhtəşəm işlərlə xalqımızın dərin məhəbbətini və hörmətini qazanıb".

Adalet.az xəbər verir ki, bu sözləri Spiker Sahibə Qafarova parlamentin plenar iclasında deyib.

Onun sözlərinə görə, müasir dünyanın çox mürəkkəb bölgəsində yerləşən ölkəmizi layiqli şəkildə idarə etmək üçün dövlət başçısından siyasətə, iqtisadiyyata, hərb işinə, tarixə, mədəniyyətə, başqa sahələrə dərindən bələdlik tələb olunur:

"Bütün bu xüsusiyyətlərlə yanaşı, cənab İlham Əliyev Vətənə dərin məhəbbət, səmimilik, sadəlik, təvazökarlıq, insanların qayğılarına həssas münasibət kimi yüksək mənəvi keyfiyyətlərə də malikdir".

## DİN-dən pirotexniki vasitələrlə bağlı müraciət



**Bayram günləri ərəfəsində yaşayış yerlərində, xüsusilə də çoxmənzilli binaların həyətində pirotexniki vasitələrdən istifadə vətəndaşların haqlı narazılığına səbəb olur. Bu məmulatlar əsasən yetkinlik yaşına çatmayan və azyaşlılar tərəfindən istifadə edilir, əksər hallarda isə bədbəxt hadisələrə səbəb olur.**

DİN Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, pirotexniki, eləcə də yüksək səsyayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatlar mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar siyahısına daxil edilib və qanunla satışı qadağandır. Aşkar olunduğu təqdirdə dərhal satışdan çıxarılır və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

Bir daha vətəndaşların diqqətinə çatdırırıq ki, təhlükəsizlik standartlarına cavab verməyən bu kimi vasitələr insan sağlamlığına mənfi təsir göstərməklə yanaşı, tez alışan maddə olduqları üçün ətraf mühitə də ciddi ziyan vura bilər. Ona görə də hər kəsi məsuliyyətli davranışı ilə örnək olmağa çağırırıq.

Bayramımızın təhlükəsiz şəraitdə keçməsi üçün hamılıqla qaydalara əməl edək!

## Türkiyə dünyada ilk 10-luğa daxil olmağı hədəfləyir



**"Türkiyənin 2028-ci il üçün müdafiə sənayesi üzrə müəyyən etdiyi hədəf 11 milyard dollarlıq ixrac göstəricisi ilə dünyada ilk 10-luğa daxil olmaqdır. Dünyada öz döyüş gəmisini təkmilləşdirib, dənizə endirən 10 ölkədən biri Türkiyədir".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbul Gəmiqayırma Zavodu Komandanlığında dəniz platformalarının istifadəyə verilməsi mərasimində deyib.

Türkiyə Prezidenti "TCG Anadolu" amfibiya gəmisindən daha böyük, uzunluğu 300 metr olan aviadaşıyıcı gəmisinin inşasına başlandığını açıqlayıb.

Ərdoğan Türkiyənin müdafiə sənayesi sahəsində həyata keçirilən hər bir layihədə təkcə məhsulu təkmilləşdirməklə kifayətlənmədiyini, eyni zamanda, ekosistemi, insan resurslarını və texnologiya istehsalı potensialını da böyütməyi hədəflədiyini qeyd edib.

## "Şuşa Bəyannaməsi ilə münasibətlərimiz müttəfiqlik səviyyəsinə yüksəlib"



**Prezidentlərimiz tərəfindən 15 iyun 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi ilə münasibətlərimiz müttəfiqlik səviyyəsinə yüksəlib.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə vitse-prezidenti Cevdet Yılmaz Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında bildirib.

"Əməkdaşlığımızın bu səviyyəyə yüksəlməsi prezidentlərimizin qətiyyəti və ortaq vizionları sayəsində mümkün olub", - Cevdet Yılmaz vurğulayıb.

## YENİ İL ZARAFATLARI

Bax:səh-7

## GÜNÜN LƏTİFƏSİ



Aqil Abbas Vəli Xramçaylıya:

- **"Vəli, hər gün bu qədər içirsən, ayda nə qədər araq içə bilərsən?**

Vəli Xramçaylı:

- "Nə bilim ay qağa, vallah hələ Ayda olmamışam.

# Azərbaycan və Türkiyə arasında Anlaşma Memorandumu təsdiqlənib



**"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" təsdiq edilib.**

Prezident İlham Əliyev bununla bağlı Qanun imzalayıb.

Sənədə əsasən, 2025-ci il iyulun 22-də İstanbul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" təsdiq edilib.

# Prezident bir qrup idmançı və idman mütəxəssislərini təltif edib

**Bir qrup idmançı və idman mütəxəssisləri təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Sənədə əsasən, Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif ediliblər:

**Abdullayev Yaqub Bəkir oğlu**
**Ağarəhimov Cahangir Ağababa oğlu**
**Aslanova Elmira Aydın qızı**
**Bayramov Cahangir Tofiq oğlu**
**Əliyev Coşqun Ceyhun oğlu**
**Hüseynov Fikrət Akif oğlu**
**Məhərrəmov Azər Asif oğlu**
**Məmmədov Eduard Tofiq oğlu**
**Musayeva Vəfa Təbriz qızı**
**Rəcəbov Nurəddin Rəcəb oğlu.**

İdmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib:

**Gözəlbəyli Zöhrab Katib oğlu**
**İmaməliyev Ələkbər Əbdülbağı oğlu**
**Qədimova İlahə Akif qızı**
**Mirəliyev Mövlud Mustafa oğlu.**

İdmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Prezidentinin fərdi təqaüdü verilib:

**Əliyev Qərib Tələt oğlu**
**Həsənov Tərlan Əliheydər oğlu**
**Xudiyev Asim Xəlil oğlu.**

# Prezident İlham Əliyev Sərəncam imzaladı

**Azərbaycanda rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı təsdiqlənib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməli, Dövlət Statistika Komitəsi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirməli və tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verməlidir.

Maliyyə Nazirliyi Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq işlər görəcək.

**Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Dövlət Statistika Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.**

# Azərbaycanda yeni informasiya sistemi yaradılır

**Azərbaycanda Enerji Effektivliyi İnformasiya Sistemi yaradılacaq.**

Adalet.az xəbər verir ki, bu məsələ Milli Məclisin iclasında müzakirə olunan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) enerji effektivliyi informasiya sistemi vasitəsilə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarəti, enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət, informasiya təminatı və maarifləndirmə, effektivlik potensialının qiymətləndirilməsi, binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasının təşkili, habelə məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısının, enerji effektivliyi üzrə xidmətlərin icraçılarının siyahısının və enerji effektivliyi üzrə xidmətlərin mövcud vəziyyətinə və inkişafına dair hesabatın yerləşdirilməsi təmin ediləcək.

"İnformasiya əldə etmək haqqında" Qanunla müəyyən edilmiş əldə olunması məhdudlaşdırılan informasiya istisna olmaqla yuxarıda nəzərdə tutulan informasiya sisteminə daxil edilən məlumatlar ictimaiyyət üçün açıqdır və "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında" və "Elektron imza və elektron sənəd haqqında" qanunların tələbləri nəzərə alınmaqla mühafizə və istifadə olunacaq.



Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyinin yüksəldilməsi üçün enerji effektivliyi informasiya sisteminin əsasnaməsini müəyyən edəcək. Bununla yanaşı, təşkilati-hüquqi və mülkiyyət olmayaraq formasından asılı məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısı enerji effektivliyi informasiya sisteminə daxil edilən enerji istehlakçısına və illik enerji istehlakına dair məlumatlar (enerji istehlakçısı hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, istehlakçı kodu, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, fəaliyyət sahəsi, illik enerji istehlakının miqdarı) və ya tikinti sahəsinə və onun mülkiyyətçisinə dair məlumatlar (qeyri-yaşayış binasının təyinatı, mərtəbələrin sayı, tikinti sahəsinin və ümumi sahəsinin ölçüləri, mülkiyyətçisi hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq ediləcək.

Bildirilib ki, Enerji Effektivliyi İnformasiya Sisteminin beynəlxalq təcrübəyə uyğun olaraq enerji səmərəliliyinin təmin edilməsi sahəsində məqsəd və hədəflərə nail olunması məqsədilə müəyyən olunmuş vəzifələrin icrasına nəzarət, eləcə də həyata keçirilən tədbirlər və əldə edilmiş nəticələrin hesabatlılığı, monitorinqi və qiymətləndirilməsi məqsədilə yaradılması nəzərdə tutulur.

Müvafiq elektron platformanın yaradılması enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlətin qarşısında duran vəzifələrin daha səmərəli həyata keçirilməsi, vətəndaşların müvafiq sahədə aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq imkanının yaradılması, eyni zamanda zəruri məlumatların təqdim edilməsi və əldə edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sistemin yaradılması bu sahədə informasiyanın şəffaflığının artırılmasına, dövlət xidmətlərinin səmərəliliyinin yüksəlməsinə və enerji səmərəliliyi sahəsində qanunvericiliyin effektiv icrasına və ona nəzarət olunmasına xidmət edəcək.

İnformasiya sistemi enerji səmərəliliyi sahəsində dövlət siyasətinin icrasına nəzarəti həyata keçirməyə, müvafiq sahədə elektron xidmətləri göstərməyə və icra göstəricilərini operativ almağa kömək edəcək. Belə ki, sistem üzərindən enerji auditorunun ixtisas attestatının alınması məqsədilə müraciətlər qəbul ediləcək, sistemdə enerji auditorları və enerji auditi təşkilatlarının reyestri əks olunacaq, enerji istehsalı, təchizatı və istehlakına nəzarət subyektləri hesabatlarını yerləşdirəcəklər.

İnformasiya sisteminin ictimaiyyətə açıq hissəsində əhali üçün enerji səmərəliliyinə dair maarifləndirici məlumatların, enerjiyə qənaət kalkulyatorunun, enerji istehlakına dair statistikanın və sair yerləşdirilməsi nəzərdə tutulur.

**Qanun layihəsi səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.**

**Nicat**

# 200 İLLİK İŞĞALA SON QOYAN SƏRKƏRDƏ

***Yazılarımda da, parlament çıxışlarımda da Ali Baş Komandanı, Cənab Prezidenti Fateh Sultan Mehmetlə müqayisə edərək Fateh İlham Əliyev adlandırmışam.***

***Bəziləri "fateh" sözünü qəbul etməmişdilər. Əslində isə "fateh" ərəb dilində olub döyüşlərdə qələbələr qazanan sərkərdəyə deyilir.***

***Fateh Sultan Mehmet İstanbulu 53 günlük müharibədən sonra fəth edə bilmiş, İstanbulun surlarına türk bayrağını sancmış, Konstantinopolu da İstanbulla əvəz etmişdi. Cənab Ali Baş Komandan isə 200 il işğalda qalan Qarabağı 44 gündə fəth edib Şuşa qalasına Azərbaycan bayrağını sancmışdı və 30 illik Şuşi adını ləğv edərək yenidən Pənah xanın qalasını Şuşa adlandırmışdı: "Şuşa, sən azadsan!".***



*Şahmat oynayanlar bilir, qrossmeysterlər uzağı 15-16 gedişi əvvəlcədən görürlər. Siyasi şahmatın qrossmeysteri, dahisi Ulu Öndər Heydər Əliyev isə 40 gedişi görürdü və 41-ci gedişi də bilirdi. Şahmatda adətən 40-cı gedişdə oyunu təxirə salıb növbəti günə saxlayırlar. Ulu Öndər də 41-ci gedişi görürmüş və gedişi varisi İlham Əliyevə saxlayıbmış.*

*Və İlham Əliyev 41-ci gedişi edərək həm Ermənistanı, həm də onun havadarlarını necə mat vəziyyətinə saldısa, hələ də özlərinə gələ bilmirlər.*

*Təbii ki, Ali Baş Komandanın 42-ci, 43-cü gedişi də var, sadəcə olaraq, bizim həmin gedişlərdən xəbərimiz yoxdur. Nəyi, nə vaxt deməyi və etməyi yalnız o, özü bilir.*

*24 dekabr Cənab Prezidentin doğum günüdür. Artıq uzun illərdir ki, Cənab Prezident öz ad günlərini əvvəllər məcburi köçkünlərlə, son beş ildə isə doğma yurdlarına qayıtmış qarabağlılarla bir yerdə keçirir.*

*Biz görmüşük ki, ad günü olan şəxslərə adətən hədiyyələr bağışlayırlar. Amma Cənab Prezident öz ad günündə xalqa hədiyyələr bağışlayır. Doğma yurd yerlərinə dönmüş insanlara tikirdiyi evlərin açarlarını və onlar üçün fabrik və zavodların açılışlarını bağışlayır, onlara yeni iş yerləri bağışlayır, şəhər və kəndlər bağışlayır, sevinc bağışlayır!*

*Cənab Prezidentə ən böyük hədiyyə isə xalqın alqışıdır. Xalq da bu alqışı ondan əsirgəmir.*

*Yeri gəlmişkən, adətən biz Türkiyə türklərindən, qardaşlarımızdan müəyyən ifadələri götürüb özümüzünküləşdirmişik. Heç dəmə, onlar da bizim, xüsusilə Cənab Prezidentin ifadələrini götürüb öz filmlərində tarixiləşdirirmişlər.*

*"Mehmet Fateh Sultanı" serialının gərək ki, 62-ci bölümündə Sultan Mehmet yumruğunu göyə qaldırıb ordusuna deyir:*

*- Biz qarşımızdakı qalanı Dəmir Yumruğumuzla darmadağın edəcəyik.*

*Və sonra da döyüşçülərdən biri qalaya Türk bayrağını sancanda deyir:*

*- Bir kərə yüksələn sancaq, bir daha yenməz!*

*Cənab Ali Baş Komandan, Möhtərəm Prezident İlham Əliyev, Sizi doğum günü münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, can sağlığı, yeni-yeni uğurlar arzulayıram. Və inşallah, tezliklə siyasi şahmatda 42-ci, 43-cü gedişinizi də gözləyirik.*

*Tanrı Sizi və Mehriban xanım Əliyevanı xalqımıza gözü dolusunca versin!*

*Tanrı Sizi qorusun!*

*Tanrı Azərbaycanımızı qorusun!*

***Hörmətlə:***
***Aqil ABBAS,***
***Millət vəkili, yazıçı***

# *Deputat:* "Rusiya-Ukrayna müharibəsində həyatını itirən vətəndaşlarımız "şəhid" deyil"

**"Son illər Rusiya-Ukrayna müharibəsində hər iki tərəfdən döyüşlərə qatılan onlarla azərbaycanlının həlak olması və ya itkin düşməsi barədə mediada üzücü məlumatlar yayılır. Müharibəyə könüllü və ya yaşadığı dövlətin tələbi ilə qoşulan həmyerlilərimizlə yanaşı, Azərbaycan vətəndaşlarının muzdlu şərtlərlə əməliyyatlara cəlb edilməsi halları artır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Zahid Oruc deyib. O bildirib ki, sosial şəbəkələrdə kəşfiyyat mərkəzlərinə bağlı olduğu şübhə doğurmayan səhifələr hədəfli reklamlar, "müqavilə ilə xidmət" "iş" və ya "təlim" adı altında yığım kampaniyası aparırlar:

"Həmyerlilərimiz bəzən döyüş bölgələrindən müraciət yayaraq, şirnikləndirici vədlərin yalan məngəsindən çıxmaq üçün kömək istəyirlər. Rəsmi statistika olmadığından hərbi təşkilatların verdiyi rəqəmlərə görə 100-lərlə soydaşımız və vətəndaşımız qarşı səngərlərdə döyüşürlər. Azərbaycan dövləti xüsusilə, Suriyada İŞİD bayrağı qaldırılarkən qanunvericiliyini sərtləşdirdi, xaricdə hərbi birləşmələrə qoşulanların fəaliyyətini terrorçuluq əməli kimi ən sərt cəza ilə, o cümlədən, vətəndaşlıqdan məhrumetmə əməlitək qiymətləndirdi. Xatırladaq ki, o dövrdə DTX-nin yaydığı məlumatlarda Yaxın Şərqdə 900-dən artıq vətəndaşımızın döyüşdüyü göstərilirdi. Onda torpaqlarımız işğal altında idi və həmin oğullara ələhiddə ehtiyacımız vardı. İndi Vətən müharibəsində peşəkarlıq qazanan şəxsləri Ukrayna müharibəsinə cəlb edənlər, qardaşı-qardaşa atəşə açdıranlar, təkcə onların ailələrinə deyil, həm də dövlətimizə hərbi-siyasi zərbə vururlar. Əməliyyatlarda həyatını itirən və cənazələri ölkəmizə gətirilən şəxslərin yaxınlarının, qohumlarının "nədən ötrü?", "kimin uğrunda?" suallarına hakimiyyət orqanlarının açıq münasibət bildirməsi - vətəndaşlarımızı cinayət yolundan daşındırardı. Təkcə Müdafiə Nazirliyinin, yaxud hüquq-mühafizə, prokurorluq orqanlarının deyil, həm də siyasi qiymətləndirmə tələb edən məsələyə geniş ictimaiyyətin, eləcə də kütləvi informasiya vasitələrinin, həmçinin tanınmış hərbçilərimizin fəal mövqe göstərməsi yüzlərlə insanı bizim olmayan müharibədən çəkindirə bilər. Bir vaxtlar Suriyaya cənnət ümidilə gedənlərin son 4 ildə iki slavyan qardaşın müharibəsində dini müqəddəslik axtarışlarına da yer yoxdur.



Ən böyük itki Qarabağda hərbi təcrübə qazanan peşəkar şəxslərin aylıq muzd müqabilində döyüşlərə qatılmasıdır. Görünür, xarici kəşfiyyat mərkəzlərinin məqsədi həm də Vətən müharibəsində iştirak edən və qalib ordu imici qazanan oğulları qəsbkarlıq müharibəsinə qoşmaqla nüfuz itkisinə məruz qoymaqdır. Nəticə təkcə millətimizin deyil, həm də ordumuzun itkisidir. Mediada ictimailəşən ölüm faktları ilə yanaşı, itkin və əsir düşən həmvətənlərimizin bir çoxu haqqında heç bir məlumat yoxdur. Yaralanaraq, ölkəyə dönən, lakin müharibənin amansız təsirlərini beyinlərində daşıyan şəxslər - ailələri və cəmiyyət üçün ağır mənəvi-sosial qayğıdır, gələcəkdə radikal qruplara qoşulma risqidir. Terror təşkilatları ilə müxtəlif dövlətlərin nizami orduları tərkibində iştirak etmək eyni məsuliyyətli əməldir. Kampaniyanın arxasında 3-cü dövlətlərin kəşfiyyat xidmətlərinin olduğuna şübhə yoxdur. Diqqət edin, dünən bir qərbli general deyir ki, orada xərclənən hər avro Avropa əsgərlərinin cəbhəyə getməməsi deməkdir. Əgər öz vətəndaşlarınızın və övladlarınızın canı qiymətlidirsə, onda başqa xalqları nə üçün internasional savaşa qoşursunuz? Cavab sadədir - keçmiş sovet məkanında sülhü istəməyən çoxlu qüvvə var. Rusiya-Ukrayna müharibəsində həyatını itirən vətəndaşlarımız "şəhid" deyil, onları təşviq edənlər genefondumuza zərbə vururlar. Biz "şəhid" adını yalnız Vətənin müdafiəsində canını verənlər üçün deyirik. Yalnız qardaş Türkiyə uğrunda dövlətimizdən qərar gözləmədən müharibəyə qoşulmaq, Çanaqqala savaşındakı kimi müqəddəs işdir. Vətən müharibəsinin qəhrəmanları ilə yad döyüşlərdə ölənləri bir tutmaq torpaqlarımız üçün canından keçən oğulların ruhunu incitməkdir. Azərbaycan dövləti rəsmən heç bir dövlətin müharibəsində hərbi müttəfiq kimi iştirak etmir".

**Nicat**

# «Bu, Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın maraqlarıyla da üst-üstə düşür...»

**"Mərkəzi Asiyanın resursları uğrunda mübarizəyə Yaponiya da qoşulub. Tokioda 19-20 dekabr tarixlərində ilk dəfə olaraq 5+1 formatında "Yaponiya - Mərkəzi Asiya-Dialoqu (C5+1) sammiti keçirilib. Yaponiyanın baş naziri Sanae Takaiçi Mərkəzi Asiya ölkələrinin liderləri - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan prezidentləri ilə görüşərək, əməkdaşlığın genişlənməsi mövzularında müzakirələr aparıb. Müzakirələrin yekunu olaraq Tokio Bəyannaməsi qəbul edilib. Yaponiya növbəti beş il ərzində Mərkəzi Asiya ölkələrindəki müxtəlif layihələrə 20 milyard dollar xərcləməyi planlaşdırıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, SSRİ dağıldıqdan sonra Yaponiya Mərkəzi Asiya bölgəsinə maraq göstərib:

"Maraqlıdır ki, Yaponiya Çindən əvvəl 2004-cü ildə Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın inkişafını ehtiva edən "Böyük İpək yolu Diplomatiyası" adlı proqram qəbul edib. Ancaq Tokio 20 ildə ehtiyatlı davranıb və Çindən fərqli olaraq Mərkəzi Asiya ölkələrində daha çox humanitar proqramların reallaşmasına üstünlük verib. Tokio "yumşaq güc" alətlərindən istifadə edərək Mərkəzi Asiyada mövqelərini gücləndirməyə çalışıb. Halbuki, Pekin Mərkəzi Asiyada daha fəal siyasətə üstünlük verərək, on milyardlarla dollar yatırımlar hesabına bölgə ölkələrini Çindən asılı vəziyyətə salmağa çalışıb. Bu arada, ABŞ-nin və Avropa İttifaqının da Mərkəzi Asiyaya marağı artaraq bölgə ölkələri ilə 5+1 formatında əməkdaşlığı genişləndirməyə çalışıblar. Bu format çərçivəsində Vaşinqtonda və Brüsseldə zirvə toplantıları keçirilib. Çinlə yanaşı ABŞ və Avropa İttifaqı ölkələri də Mərkəzi Asiyanın yeraltı zənginliklərindən yararlanmağa, nadir torpaq materiallarına maraq göstərməyə başlayıblar. Yeraltı resurslara ehtiyac duyan Yaponiyanın Mərkəzi Asiyaya marağının səbəblərindən biri də budur. Yaponiyanın yeraltı resurslardan fərqli olaraq kifayət qədər maliyyə resursları mövcuddur".




E.Şahinoğlu deyib ki, bu səbəbdən Mərkəzi Asiya ölkələrinin liderləri Yaponiya ilə əməkdaşlığa əhəmiyyət verirlər:

"Bunun siyasi əhəmiyyəti də var. Yaponiya ilə sıx əməkdaşlıq Mərkəzi Asiya ölkələrinə Rusiya, Çin, Avropa İttifaqı və ABŞ arasında balansı gücləndirməyə imkan verəcək.

Tokiodakı sammit çərçivəsində Qazaxıstan və Yaponiya arasında ümumi dəyəri 3,7 milyard dolları ötən 60-dan çox ikitərəfli sənəd imzalanıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə "Mərkəzi Asiya-Yaponiya 2040" əməkdaşlığı strategiyasının hazırlanmasını təklif edib. Şavkat Mirziyoyev bu məqsədlə Daşkənddə forum keçirmək təşəbbüsü ilə çıxış edib. Yaponiyanın Mərkəzi Asiyada fəallaşması ABŞ-nin da maraqlarına uyğundur. Yaponiya-Çin gərginliyindən Vaşinqton illərin müttəfiqi Tokionu dəstəkləyir. Təsadüfi deyil ki, bir neçə gün əvvəl ABŞ Konqresi Çinin Yaponiya qarşı siyasətini pisləyən qətnamə qəbul edib. Mərkəzi Asiya böyük ölkələr arasındakı gərginliklərə qarışmır və tərəf tutmur. Mərkəzi Asiya ölkələri üçün önəmli olan bölgəyə maraq göstərən ölkələrlə bərabərhüquqlu əməkdaşlığın təmin edilməsi və gəlirlərinin artımının təmin edilməsidir. Bu, Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın maraqlarıyla da üst-üstə düşür. Mərkəzi Asiya və Cənubi Qafqaz vahid bölgəyə çevrilməkdədir. Bu mənada Yaponiyanın Mərkəzi Asiyaya artan marağı Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycanla da əməkdaşlığı genişləndirməyi diqtə edir".

**Vasif ƏLİHÜSEYN**

## *Fazil Mustafa: "Nümunəvi Türkiyə-Azərbaycan Universitetinin yaranmasına nail ola bilmədik"*



**"Bir gerçəklik var ki, Türkiyə ilə illərdir aramızda sənədlər imzalansa da, biz nümunəvi Türkiyə-Azərbaycan Universiteti yaranmasına nail ola bilmədik. Hərbi və digər sahələrdə irəliləyən imkanlarımız var. Amma təhsildə sənəddən o tərəfə keçəcək məqamları real həyatda tətbiq edə bilmirik".**

Adalet.az xəbər verir ki, bunu deputat Fazil Mustafa Milli Məclisin iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsinin müzakirəsi zamanı deyib.

"Yəni bizim peşə təhsili ilə bağlı müqavilə bağlaya biləcəyimiz ölkə bəlkə də Almaniyadır, Avropa ölkələridir. Çünki orda peşə təhsili tamam başqa cür həyata keçirilir. Nümunəvi Türkiyə-Azərbaycan Universiteti üçün addımlar atıldı, amma bu məsələni biz populyar bir universitetə çevirə bilmədik. Ona görə də biz peşə təhsilinə bu aspektdə yanaşmalıyıq. Ona görə də bu sahəyə baxan məmurlar Türkiyə ilə Azərbaycan arasında bağlanmış bütün müqavilələrə ciddi yanaşmalı, ona mane olmamalıdırlar. Türkiyə məktəbləri Azərbaycan məktəb sferasından çıxıb və hansısa bir şəkildə onun bərpası istiqamətində addımlar atılmadı. İndi biz rus-dili ilə bağlı müəyyən problemlər yaşayırıq, kadrlarımız yoxdur. Orta məktəblərdə rusdilli təhsilin nə qədər zəif olduğunu görürük. Amma bunun heç olmasa, dilcə yaxın olan Türkiyə məktəb sisteminin də müəyyən təzahürlərinin olması vacibdir".

**Nicat**

## *"1995-ci ildən indiyədək həyata keçirilmiş 12 amnistiya aktı 130 mindən çox insana şamil olunub"*

**"Azərbaycan dövlətinin gücü və suverenliyi Prezident İlham Əliyevin mərhəmətə əsaslanan siyasi iradəsi ilə tamamlanaraq, "Konstitusiya və Suverenlik İli" çərçivəsində elan edilən amnistiya təşəbbüsü vasitəsilə bir daha bütün dünyaya nümayiş etdirilir; bu addım yalnız hüquqi prosedur deyil, eyni zamanda xalqımıza ünvanlanan humanist yanaşmanın, cəmiyyətimizin həmrəyliyinin və gələcək nəsillərə verilən dərin, prinsipial mesajın ifadəsidir".**

Adalet.az xəbər verir ki, bunu "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, müstəqil Azərbaycan dövləti, Ulu Öndər Heydər Əliyevin müdrik rəhbərliyi, xilaskarlıq missiyası və uzaqgörən siyasi iradəsi nəticəsində qurulmuş, möhkəmlənmiş və tarix boyu xalqımızın qürur mənbəyinə çevrilmişdir:

"Bu irs isə Prezident İlham Əliyev tərəfindən uğurla qorunur inkişaf etdirilir və hər bir addımında dövlətçiliyimizin əsas prinsipləri, suverenlik, hüququn aliliyi və vətəndaş rifahı təcəssüm etdirilir. Amnistiya aktı Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş qəhrəmanlarımızın yaxınlarını, zərər çəkmiş mülki vətəndaşları, qadınları və yaşlıları əhatə edir. Yetkinlik yaşına çatmayan şəxslər və az ağır cinayət törətmiş məhkumlar da bu humanist addımdan faydalanacaq. Məqsəd yalnız cəzanın yüngülləşdirilməsi deyil, insanlara yeni həyat imkanı yaratmaqdır. Bu amnistiya aktı Azərbaycan tarixində misli görünməmiş bir təşəbbüsdür. Azərbaycanın amnistiya və əfv təcrübəsi zəngin və dəyərlidir. 1995-ci ildən indiyədək həyata keçirilmiş 12 amnistiya aktı 130 mindən çox insana şamil olunmuş, 2021-ci ildə 8 Noyabr - Zəfər Günü münasibətilə Prezident İlham Əliyevin təşəbbüsü ilə elan olunan amnistiya isə 17 mindən çox insanı əhatə etmişdir. Prezident İlham Əliyev dövründə qəbul edilmiş 39 əfv sərəncamı və 5 amnistiya aktı göstərir ki, humanizm və ədalət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir".

## *"İndiki vəziyyətdə hərbi xidmət müddəti kifayət qədər optimaldır..."*

**"Hərbi xidmət müddətini nə zamansa azaltmaq mümkün olacaq. Lakin indiki vəziyyətdə Azərbaycanın dövlət qurumlarında və parlamentin müvafiq komissiyasında bu məsələ qətiyyən müzakirə olunmur. Belə bir məsələnin ictimai müzakirələri də heç bir vaxt keçirilməyib".**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, belə olan halda biz xidmət müddətinin azaldılması barədə hələlik dəqiq proqnoz verə bilmərik.

"Bu nə zamansa olacaq, amma hazırkı vəziyyətdə Azərbaycan üçün Silahlı Qüvvələrin yüksək dərəcədə komplektləşdirilməsi ən prioritet məsələlərdən biridir. Biz türk ordu modelinə keçmişik, amma bu o demək deyil Türkiyədə mövcud olan hərbi xidmət müddəti və ondan möhlət hüququ ilə bağlı mövcud olan prosedurları eyni ilə tətbiq etmək məcburiyyətindəyik. Belə bir planımız mövcud deyil. Hesab edirəm ki, indiki vəziyyətdə mövcud qanunvericilik və müddətli hərbi xidmət müddəti kifayət qədər optimaldır. Burada ciddi dəyişikliklər etməyə də hələlik zərurət yaranmayıb", - deyə o, bildirib.

**Vasif**

# "Rusiya ilə Ramiz Mehdiyevin açıq, Əli Kərimlinin gizlin əlaqələri olub..."



**”Ramiz Mehdiyev Azərbaycanda avtoritarizmə qarşı mübarizə aparmaq və demokratiyanı təmin etmək məqsədi ilə təkliflər hazırlayıb. Bu barədə məktub yazıb və nədənsə bu məktubu dünyada avtoritarizmin dayağı sayılan Rusiyaya göndərib. Ramiz Mehdiyev orda çox qəribə məsələlərdən bəhs edir. Dünyada bənzəri olmayan bir idarəçilik sistemi təklif edir. Dövlət şurasının seçilməsindən danışır və öz şakərinə uyğun olaraq seçiləcək adamların siyahısını da tərtib edib”.**

Bunu Adalet.az-a açıqlamasında Azərbaycan Naminə Alyans partiyasının sədri Abutalıb Səmədov deyib.

O, bildirib ki, Ramiz Mehdiyevin təqdim etdiyi siyahının başında Əli Kərimlinin adı var:

”Cəmiyyətdə belə bir mübahisə var ki, Ramiz Mehdiyev Rusiyanın adamıdı, Əli Kərimli isə daim Rusiyanın əleyhinə bəyanatlar verən siyasətçidir. Bunlar nə cür bir yerdə ola bilər? Ancaq diqqətlə baxanda bu iki siyasətçi oxşar xarakterli və oxşar siyasi bioqrafiyaya malik olan insanlardır. Hər ikisi ”Komsomol”dan başlayıb. Prezident Administrasiyasının rəhbəri kimi öz siyasi karyeralarını başa vurublar. Əli Kərimli dövlət katibi idi və o, aparata rəhbərlik edirdi. Hər ikisi onların üzərində haqqı olan insanlara xəyanət ediblər”.

O, deyib ki, Ramiz Mehdiyev Prezident Heydər Əliyevə və İlham Əliyevə xəyanət edib:

”Vəzifədən getdikdən sonra 44 günlük Vətən müharibəsindəki qələbəmiz, suverenliyimizin təmin olunması barədə danışmaq istəmədiyini deyib. Əli Kərimli Əbülfəz Elçibəyin etibarından istifadə edib və partiyanı, ”Azadlıq” qəzetini ələ keçirib və Əbülfəz Elçibəyin son günlərinin çox iztirablı keçməsinin əsas səbəbkarlarından biri olub. Hər ikisi hakimiyyətlə konstruktiv münasibətlər qurmaq istəyən partiyaları ”cib müxalifəti” və yaxud ”avtobus müxalifəti” adlandırıb”.

A.Səmədovun sözlərinə görə, Rusiya ilə Ramiz Mehdiyevin açıq, Əli Kərimlinin gizlin əlaqələri olub və bu əlaqələr də araşdırılmaqdadır:

”Söhbət 2013-cü ildə yaradılan və Rusiyanın layihəsi olan Milli Şuradan gedir. O Milli Şura ki, bu günə kimi Əli Kərimli onun ömrünü uzatmaq üçün əlindən gələni edib. Baxmayaraq ki, Milli Şuranı yaradanların mütləq əksəriyyəti yoxdur və onun tərkibində partiyalardan AXCP qalıb. Bu səbəbdən Əli Kərimlinin istintaqa cəlb olunması tamamilə təbiidir. Mən hesab edirəm ki, bu istintaq hələ bizim gözləmədiyimiz çox şeyləri üzə çıxardacaq”.

**Vasif**

# Pərakəndə ticarətdə sadələşdirilmiş dövriyyə artırılır, vergi azaldılır: Qiymətlər də azalacaqmı?



**””Vergi Məcəlləsində” qəbul edilən və gələn il yanvarın 1-dən qüvvəyə minəcəyi gözlənilən dəyişikliklərə əsasən, pərakəndə ticarət və əhaliyə xidmət sahələrində nağdsız dövriyyə üzrə ƏDV qeydiyyat limiti 200 min manatdan 400 min manatadək artırılacaq. Bununla da, vergi ödəyicisinin pərakəndə ticarət və xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsi 0,5 əmsal tətbiq edilməklə nəzərə alınacaq”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, bu o deməkdir ki, gələn ildən etibarən sadələşdirilmiş vergi dövriyyəsinin 2 dəfə artırılması nəzərdə tutulur:

”Sadə dildə izah etsək, əgər hazırda 12 aylıq ardıcıl dövriyyəsi 200 min manatdan çox olan sahibkarlar 18.0 faiz əlavə dəyər vergisi (ƏDV) ödəyirlərsə, gələn aydan etibarən 400 min manatədək sadələşdirilmiş vergi ödəyəcəklər. Yəni, onların dövriyyəsi 200 min manatı keçsə də belə, 400 min manatdan az olduğu halda ƏDV ödəməyəcəklər. Bu isə mikro sahibkarların vergi yükünün azalmasına gətirib çıxaracaq. Sadələşdirilmiş vergi əhaliyə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan vergitutma obyekti üzrə isə 2026-cı il yanvarın 1-dən 3 il müddətinə 6 faiz dərəcə ilə hesablanacaq. Beləliklə, sadələşdirilmiş vergi dərəcəsi 8%-dən 6%-ə endiriləcək. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.

Pərakəndə ticarət və əhaliyə xidmət sektorunda tətbiq edilən yeni güzəştlər sahibkarların xərclərini azaldacaq. Bu isə onların qiymət azalmalarına getmələri üçün də iqtisadi əsas yaradır. Qiymətlərin necə dəyişəcəyi isə, təbii ki, sahibkarların qərarlarından asılı olacaq”.

**Ömər**

# «Avropa Parlamentinin qətnaməsi erməni-rus lobbisinin layihəsidir»



**”Avropa Parlamentinin həbsdə olan erməni separatçıları və Qarabağdan könüllü köç etmiş ermənilərlə bağlı qəbul etdiyi qətnamələr Azərbaycan-Ermənistan arasında davam edən sülh prosesinə ciddi zərbə vurur. Bu sənədlərdə sözügedən məsələlərin qabardılması nə regional sabitliyə, nə də Ermənistanın hazırkı hökumətinin siyasi maraqlarına cavab verir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan açıq şəkildə Qarabağ ermənilərinin geri dönüşünü gündəmə gətirmir:

”Eyni zamanda, həbsdə olan separatçı liderlərin azad olunmasında da maraqlı deyil. Çünki həmin şəxslər uzun illər Ermənistan siyasətində dominant mövqe tutmuş Qarabağ klanının nümayəndələridir və birbaşa Moskvanın təsir dairəsində olublar. Onların azadlığa buraxılması Paşinyanın hakimiyyəti üçün daxili siyasi risklər yarada bilər. Avropa Parlamentinin Rusiya xüsusi xidmət orqanları ilə əlaqəli olduğu bilinən separatçıların azadlığa buraxılmasına çağırış etməsi, bu qurum daxilində erməni-rus lobbi şəbəkəsinin təsirinin nəticəsidir”.

Politoloq bildirib ki, əgər bu separatçılar gələcəkdə Ermənistana qayıdarsa, onların siyasi və ideoloji fəaliyyəti Avropa İttifaqının deyil, məhz Rusiyanın maraqlarına xidmət edəcək:

”Bu isə Avropa İttifaqının Ermənistanı Qərbə inteqrasiya etdirmək siyasətinə ciddi maneələr yarada bilər. Bununla da, Avropa Parlamentinin qəbul etdiyi bu qətnamələr göstərir ki, qurum müəyyən lobbi qruplarının təsiri altında öz strateji və geosiyasi maraqlarına zidd mövqe nümayiş etdirir. Nəticədə həm regional sülh prosesinə, həm də Avropa İttifaqının Cənubi Qafqaz siyasətinə zərər vurulur”.

**Vasif ƏLİHÜSEYN**

## *“Belə vəziyyətdə Prezidentin zirvə toplantısına qatılması ehtimalı az idi”*

**”Rusiya Prezidenti Vladimir Putin oktyabrın 9-da Düşənbədə Azərbaycan Prezideni İlham Əliyevlə görüşdə ötən ilin dekabr ayında təyyarə qəzasında ölənlərin ailələrinə və yaralananlara kompensasiya ödəniləcəyini vəd etmişdi. Kreml sahibinin həmin görüşdəki cümləsi beləydi: ”Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

”Putin söylədiklərinin heç birini yerinə yetirmədi, nə kompensasiya ödənildi, nə də vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət verildi. Bundan başqa Qazaxstan təyyarə qəzasıyla bağlı yaratdığı komissiyanın yekun hesabatını da açıqlamayıb. Halbuki, bütün faktlar ilk gündən bəlliydi. Bunlar varkən, Kreml Rusiyada azərbaycanlıların formalaşdırdıqları diaspora təşkilatlarını nəzarətə götürməyə və özünə loyal şəxsləri diaspora rəhbərliyinə təyin etməyə başladı. Belə vəziyyətdə Azərbaycan Prezidenti İlham Əliyevin Sankt-Peterburqda işinə başlayan MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısına qatılması ehtimalı az idi”, - deyə o, bildirib.

**Eldar**

## *200 manatlıq sosial yardım kimlərə və necə ödəniləcək?*



**”Prezident İlham Əliyevin ”Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında” imzaladığı sərəncam bir daha təsdiq edir ki, dövlətin sosial siyasətində əsas prioritet vətəndaşların rifahının yüksəldilməsi və sosial təminat mexanizmlərinin daha da gücləndirilməsidir”. Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.**

O deyib ki, Sərəncamın icrası ilə bağlı bizə ünvanlanan sualları qısa olaraq cavablandırmaq olar:

”Sərəncam hazırda aktiv ünvanlı sosial yardım alan ailələrə şamil olunacaq. Yəni, hazırda sözgüdən proqramın iştirakçısı olanlar həmin yardımı almaq imkanına malik olacaqlar. Bu isə o deməkdir ki, yardımlar 76 min ailəyə şamil olunacaq.

- Yardımlar necə ödəniləcək?
- Yardımların alınması üçün hər hansı yeni karta ehtiyac yoxdur. Ünvanlı sosial yardım alan ailələrin mövcud kartlarına pulun ödənilməsi həyata keçiriləcək.
- Yardımların alınması üçün hara müraciət etməli?
- Yardımların təyinatı və ödənilməsi proaktivdir. Bu o deməkdir ki, mövcud elektron baza əsasında yardımların kartlara ödənilməsi reallaşacaq.
- Digər sosial proqramlarda iştirak edənlər bu yardımı ala bilərlərmi?
- 200 manatlıq birdəfəlik maddi yardım yalnız ünvanlı dövlət sosial yardımı alan ailələrə şamil olunur.
- Ünvanlı sosial yardıma müraciət edən, amma hələlik yardım təyin olunmayan ailələrə 200 manat ödəniləcəkmi?
- 200 manatlıq birdəfəlik maddi yardım ünvanlı dövlət sosial yardımı artıq təyin olunmuş ailələrə şamil olunur”.

**Sübhan**

## *“Əgər şəhər böyüyür, amma bu göstəricilər yaxşılaşmırsa...”*

**”2026-cı ilin Şəhərsalma və Memarlıq ili elan olunması şəhərlərə rasional və iqtisadi sistem kimi yanaşmaq üçün fürsət yaradır. Şəhərsalmanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə buraxılan səhvləri çox vaxt düzəltmək olmur. İnfrastruktur düzgün qurulmadıqda və məkan real ehtiyaclara uyğun planlanmadıqda sonradan bu boşluqları aradan qaldırmaq çətinləşir”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. ”Bu isə iqtisadi baxımdan məhsuldarlığın azalması, əlavə ictimai xərclərin artması və uzunmüddətli vaxt itkisi ilə nəticələnir. Zamanın qiyməti o həddə yüksəlib ki, vaxt itkisi, artıq ömür itkisidir. Odur ki, şəhərsalma iqtisadi baxımdan vaxt itkisi, əmək bazarının səmərəliliyi və şəhər məkanının iqtisadi fəaliyyəti nə dərəcədə asanlaşdırması kimi konkret göstəricilər əsasında qiymətləndirilməlidir. Əgər şəhər böyüyür, amma bu göstəricilər yaxşılaşmırsa, məsələ şəhərin miqyasında deyil, plan və icraya dair qərarların məntiqindədir. Şəhərsalma və Memarlıq ili məhz bu məntiqin növbəti şəhərsalma fəaliyyətləri zamanı daha rasional formalaşmasına töhfə verə bilər”, - deyə o, bildirib.

**Vasif**



Rüstəm Hacıyev

# Müharibə gələn il də davam edəcək...

NATO Rusiya ilə qarşıdurmadan çəkinir? Avropa dövlətləri Rusiya-Ukrayna müharibəsinin ABŞ prezidenti Donald Trampın təklif etdiyi şərtlərlə dayandırılması ilə razılaşmırlar. Çünki, Rusiyanın faktiki olaraq xeyrinə hesablanmış "Trampın sülh planı", əslində Ukraynanın kapitulyasıyası və Avropanı təhlükə qarşısında qoymaq deməkdir.

Qərb liderləri hesab edirlər ki, münaqişə tərəfləri bu şərtlərlə razılaşma əldə edəcəyi təqdirdə, Putinin imperiya iştahı bir azda artacaq və növbəti həmlələri Avropa- yəni NATO ölkələri olacaq.

Əvvəl-axır ABŞ prezidentinin Ukraynanı alçaldıcı razılaşmaya razı sala biləcəyinə əmin olan Rusiya, ara-sıra NATO ölkələrini "dişlərinə vurmağa" başlayıblar. Polşanın, İsveçun hava məkanlarını kəşfiyatçı dronlarla pozur, bir qrup əsgəri NATO dövləti Estoniyanın quru sərhədlərini pozaraq ərazilərinə daxil olur, Alyansdan isə, səs -səmir çıxmır.

Əvəzində, Almsniyanın müfafiə naziri Boris Pistorius və Finlanfiyanın prezidenti Aleksandra Stubba bəyan edirlər ki, Rusiya heç vaxt Avropa ölkələrinə (NATO-ya) hücum etməz.

Rusiya Təhlükəsizlik şurasının sədr müavini, "klaviatura qəhrəmanı" Dmitri Medvedev onların bu bəyanatlarına "X" sosial şəbəkəsində faktiki olaraq ironiya ilə cavab verib. "Avropalı "sülhməramlılar" məni təəcübləndirir.

Pistorius Rusiya ilə NATO arasında müharibə ola biləcəyinə inanmır, Stubb isə etiraf edir ki, Rusiya alyans ölkələrinə hücum etməkdə maraqlı deyil. Nə baş verir, bunlar artıq qorxudan ayıllnlar?"

Qərbin bir sıra siyasilərinin, "Vladimir Putinin hakimiyətdə olduğu dövrdə müharibənin dayandırılacağına şübhə ilə yanaşmaları" özünü doğrutmaqdadır. Belə ki, ABŞ rəsmiləri (vitse-prezidrnt Cey Di Vens) Ukrayna münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı, Mayamidə Rusiya-ABŞ nümayəndə heyyətlərinin apardığı danışıqları "irəliləyiş" kimi qiymətləndirərək, konstruktiv və səmərəli olduğunu bəyan etmələrinə rəğmən, Rusiya tərəfi, prezidentin mətbuat katibi Dmitri Peskov isə, "İzvestiya" qəzetinə müsahibəsində bəyan edir ki, "danışıqları irəliləyiş kimi qiyməyləndirmək olmaz".

Lakin, ABŞ hələ də, ümidini itirmir. Tramp administrasiyası hesab edir ki, Rusiya ilə dialoqu gələn ildə davam etdirmək lazımdır...

Yəni, müharibə hələ gələn ildə davam edəcək...

# ABŞ deyir irəliləyiş var, Rusiya deyir xəbərim yoxdur...

**Xəbər verdiyimiz kimi, Ukrayna müharibəsinin dayandırılması, sülh danışıqlarına başlamaqla bağlı ABŞ və Rusiya nümayəndə heyyətlərinin Mayamidəki görüşləri keçirilir.**



ABŞ-ın vitse-prezidenti Cey Di Vens bəyan edib ki, Ukrayna münaqişəsinin həlli ilə bağlı, Rusiya-ABŞ nümayəndə heyyətləri arasında keçirilən danışıqlarda irəliləyiş əldə olunub.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Rossiya 1" telekanalına verdiyi eksklüziv müsahibəsində, ABŞ-ın vitse-prezidenti Cey Di Vensin hansı irəliləyişdən danışdığından xəbəri yoxdur.

"Düzünü desəm, mənim belə bir məlumatım yoxdur"- deyə Peskov bildirib.

Tanış mənzərədir və biz 30 ilə yaxın ATƏT-in Minsk qrupunun həmsədrlərinin tərəflərlə hər görüşlərindən sonra bəyan etdikləri bu cür nağıllarla vaxt uzatmalarının çox şahidi olmuşuq.

Ukrayna münaqişəsiylə bağlı da, eyni ssenarilər təkrar olunur. O vaxtlar Ermənistan rəhbərləri status-kvonu saxlamaq üçün hər vəhclə danışıqlarda nəticə əldə etməyə imkan vermirdilər, indi də Rusiya tərəfi işğal etdikləri əraziləri və hələ üstəlik dörd ilə yaxındır işğsl edə bilmədikləri ərazilərində onlara verilməsi şərtlərini irəli sürərək nətucə əldə olunmasına mane olurlar. Putin artıq bu müharibını nə məqsədlə başladığını çaş-baş salıb.

Müharibənin uzandığı illər ərzində "məqsədlər" dəfələrlə dəyişib. Demarkasiya, denifikasiya unudulub, Ukraynada hakimiyyət dəyişikliyi məsələsi barədə söhbət getmir.

Rusiyanın iqtisadiyyatı çöker, lakin, indiki mərhələdə müharibəni dayandırmaq Putinə sərf eləmir...

**Görünən odur ki, ABŞ prezidenti Donald Trampın münaqişənin həlli ilə bağlı təklif etdiyi razılaşma planı, Milad bayramına qədərdə imzalanmayacaq və bu şərtlərlə yaxın vaxtlarda da imzalacağı inandırıcı görünmür.**

**Rüstəm Hacıyev**

# "Pirotexniki vasitələr nəinki səs-küyə, yanğınlara da səbəb olur"

**"Pirotexniki vasitələrə qarşı Daxili İşlər Nazirliyinin apardığı işi dəstəkləyirəm. Bütün əhali, o cümlədən müəllimlər, valideynlər də bu işə dəstək verməlidir. Bu hardasa satılırsa, mütləq hüquq-mühafizə orqanlarına xəbər vermək lazımdır ki, bu anormal işin qarşısını alaq".**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. "Mənim bu qısa olmayan ömrümdə pirotexniki vasitənin evdə yanğına səbəb olduğunu şahidi olmuşam. Ev tamamilə yandı. Eləcə də bir neçə il öncə yuxarı mərtədən aşağı mərtəbəyə atılan pirotexniki vasitə gənc qızın açını yandırmışdı. Bu çox anormal vəziyyətdir. Bu vasitələr şəhərdə təkcə səsküyə yox, yanğınlara da səbəb olur.

Çox təəssüflər olsun ki, bu vasitələri ölkəyə müxtəlif yollarla gətirən insanlar mövcuddur. Aldığımız məlumatlara görə bu vasitələrin əsas satış yeri "Sədərək" bazarıdır və Azərbaycandan bunun kökünü kəsmək lazımdır. Əlbəttə, bu vasitələrdən istifadə edən insanların düşünürəm ki, şüuru o qədər də yüksək deyil.

Ona görə də pirotexniki vasitələrə qarşı ciddi mübarizənin aparılması çox vacibdir", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**


Vüqar Abbasov,
Avropa Xəbər Agentliyinin
(European News Agency) əməkdaşı.




# Vətən təəssüratları 2025

### *Gəzməyə də vətən yaxşı*

Artıq dörd aya yaxındır ki, yay tətilimiz bitib. Hər il çalışırıq ki, yay tətilimizi Azərbaycanda keçirək. Bu il də fərqli olmadı. Şifahi xalq ədəbiyyatımızda, bayatıların birində:

*Gəzməyə qərib ölkə,*
*Ölməyə vətən yaxşı*

- deyilir. Amma qürbətdə olanların bir çoxu, ilk fürsət düşən kimi, gəzməyə vətənə gəlir.

### *Təkrarçılıq olmasın*

Adətən məmləkətdən qayıtdıqdan sonra "Vətən təəssüratları" adlı yazı yazardım, hətta bəzən silsilə yazılar. Bu dəfə yazmamışdım. Səbəblər içərisində həm də məmləkətdə elə bir dəyişiklik olmadığından idi. Nə yazım? Ötən illərdə yazdıqlarımı təkrar edim? Oxucular düşünməzlər ki, bu nədir, eyni şeyləri təkrar yazıb? Halbuki bəzi şeylərin yaxşı istiqamətdə dəyişməsini arzu edərdim. Amma yenə də bu il bitməmiş təəssüratlarımı bölüşmək istədim.

### *İrəliləyiş varmı?*

Məmləkətdə olanda görüşdüyüm dostların əksəriyyəti mənə bu sualı ünvanladı. Ötən illərdə, yay tətilində, məmləkətdə olduğum zaman sosial şəbəkələrin birindəki səhifəmdə "İrəliləyiş var" başlığı ilə silsilə statuslar yazdığım üçün. İrəliləyiş varmı? Olmasını istərdim. Məsələn, çox istəyərdim ki, Heydər Əliyev adına Hava Limanınındakı avtomobil dayanacağı sıra ilə nömrələnsin. Məsələn, 1 - ci, 2 -ci, 3 - cü, 4 - cü və.s. Sıralara ad da vermək olar. Məsələn, alma, armud və.s. Amma yoxdur. Kimsə avtomobilini park edir və sonra da tapmaq üçün xeyli axtarmalı olur. Bunu etmək o qədər çətindir? Deyil, məncə.

### *Təhlükə*

Həm onlar, həm də sürücülər üçün. Kimdir "onlar"? Avtomobil yollarının kənarlarının təmizliyinə cavabdeh olan o zəhmətkeş insanlar. Səhər o başdan, havanın isti, yaxud da soyuq olmasından aslı olmayaraq, sürət yollarının kənarlarını süpürürlər. Bəzən yolu bir tərəfdən digər tərəfə belə keçirlər. Sözünü etdiyim yollarda isə sürət həddi yüksəkdir. Bunun nə demək olduğunu dərk etmək o qədər çətindir? Deyil, məncə.

Sürət yolunu bir tərəfdən digər tərəfə keçən tək onlar deyillər. Digər bir çox vətəndaş da həm öz həyatlarını, həm də baqalarının həyatını risqə ataraq sürət yolunu bir tərəfdən digər tərəfə keçirlər. Bəzən isə keçidin lap yaxınlığından. Lap yaxınlıqda olmasa belə, bir qədər əziyyət çəkib ən yaxındakı keçidə getmək və yolu ordan keçmək olmaz? Bu adamlar həm öz, həm də başqalarının həyatını rsqə atdıqlarının fərqində deyillər? Deyillər, məncə.

### *Qaşqabaqlı üzlər*

İnsanların bir çoxunun üzündə təbəssüm görmək olmur. Hətta dükanlarda belə, müştərilər ilə gülərüzlə danışmalı olanların belə bir çoxunun üzündə təbəssüm görmək, hardasa, mümkün deyil. İnsanlarda bir-birlərinə o qədər də böüyük inam olmadığını hiss etdim. Kimi dindirir, yazdıqlarımın səbəblərini soruşdumsa, əksəriyyəti gündəlik qayğıların çoxluğundan şikayət etdi. İnsanları gündəlik qayğılardan azad etməyin yollarını tapmaq çoxumu çətindir? Deyil, məncə.

### *Yollar, yenə də yollar*

Yollardakı tıxaclar da ötən ildə olduğu kimi idi, artmışdı ki, azalmamışdı. Ancaq etiraf edim ki, yaxşı mənada azalan bir şey gördüm. Bu dəfə DYP məni cəmi bir dəfə saxladı. Ötən illərdə isə eyni müddətdə bu rəqəm bir qədər çox olurdu.

Səkilərdə (olan yerlərdə), yeraltı, yerüstü keçidlərdə əlil arabası, uşaq arabası ilə olanlar üçün hərəkət etmək, yolu keçmək, yenə də ötən illərdə olduğu kimi, hardasa mümkünsüz görsənirdi.

Bakıdan çıxıb regionlara gedəndə də eyni durumlarla rastlaşdım. Məsələn, tualet problemi. Benzin doldurma məntəqələrində tualet var, insafnan desək. Amma hamısı "aziatski", bir çoxunda sabun yox, tualet kağızından söhbət gedə bilməz. Anladıq, müsəlmana "aziatski" tualet lazımdır, tualet kağızı isə gərək deyil. Axı məmləkətə turistlər də axın edir, ən azından AZTV - yə insansaq. Yenə də A. Düma kimi biri gəlib onun "Qafqaza səyahət" əsərində yazdığı kimi "Fransa yollarında dayanacaqlarda su dolu bardaqlar, ləyənlər olduğu halda, buralarda yoxdur" yazmalıdır? Bunları düzəltmək çətindir? Deil, məncə.

### *Qiymətlər*

Ucuz deyil, nə dükanlarda, nə də restoranlarda. Regiondakı otellərin qiymətləri də, səmimi desək, məmləkətdəki əmək haqqları ilə müqayisədə çox bahadır. Hətta, avropalılara az-çox bələd olan biri kimi, deyərdim ki, sadə avropalı üçün belə bu qiymətlər ucuz deyil. Xidmət də o qədər yüksək deyil. Çalışırlar ki, yüksək xidmət göstərsinlər, düzünü desək. Amma yüksək xidmətin necə olduğunu bilən çox azdır. Bunları öyrətmək çətindir? Deyil, məncə.

### *Əyləncə*

Əyləncə məkanlarını, restoranları və.s. dolu gördüm, nə vaxt və hara getdimsə. Çoxları bunu əhalinin yaşayış səviyyəsinin yüksək olması ilə əlqələndirir. Əgər beləldirsə, deyə bilərik ki, necə deyərlər, məmləkət əhli kef edir.

### *İrəliləyiş var?*

Sözsüz ki, olmamış deyil. Olan və olmayan irəliləyişlər barədə yazanlar çoxdur. Bir də mən o sıraya girməyim. Mən irəliləyiş olmasının vacib olduğu sahələrdən, tərəflərdən yazdım, düz bildiyim qədər. Əslində çox şey lazım deyil. İş yerlərinin, həmçinin regionlarda, sayının artması, əmək haqqlarının bazar qiymətlərinə uyğunlaşdırılması, maarifləndirmə və.s. Bunları etmək çətindir? Deyil, məncə.

### *Son*

Burada, Niderlandda da məmləkətdəki xəbərləri izləməyə çalışıram. Son izlədiklərim mənə Dostayevskinin "İdiot" əsərindən "Pulun ən əclaf və nifrətli cəhəti burasındadır ki, o hətta istedadlar da yaradır" seçməsini xatırlatdı. Şərurlu İsfəndiyarın müsahibəsini, Rəqsanənin üç aya 300 kitab oxuması iddiasını, A. Qasımovun Şəbnəm Tovuzlu ilə muğam oxumasını və.s. izləyib, dinləyib, eşitdikdən sonra ağlıma ilk gələn məhz bu seçmə oldu. Hələ Şərurlu İsfənidyarın dəfələrlə özünün çoban olduğunu deməsindən sonra ona "müəllim" deyə müraciət edilməsi də bir başqa məsələdir. Bu yerdə isə V. Hüqonun "Səfillər" əsərindən bu hissəni xatırlamamaq olmur: "Müvəffəqiyyət qazanın-nəzəriyyə belədir. Varlanmaq, guya, qabiliyyətdir. Lotereyada udsanız, sizi ağıllı hesab edəcəklər. Qalib gələnə təzim edərlər."

Bu yazı uzun alındı. Ötən yayda gördüklərimi, müşahidə etdiklərimi qısaca yazmaq, bir yazıya sığışdırmaq istədim, amma yenə də uzun alındı. Qısa edə bilməzdim? Edərdim, amma bu dəfə "məncə" yazmağıma ehtiyac yoxdur. Bilirəmki, edə bilərdim. Amma etmədim, çünki yarımçıq alınardı.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Vətəni canından çox sevənlər...

**... Mən Vətəni sevən iki cür insan tanıyıram; biri ürəkdən, bir də sözdə sevən! Ürəkdən sevənlər Vətən yolunda canlarını hər an qurban verərlər. Sözdə sevənlərsə ”Vətən, Vətən” - deyər, amma onun çətin günündə sinələrini irəli verməzlər və qaçıb gizlənərlər. O qədər belə adamlar tanıyıram ki! Adlarını da çəkə bilərəm.**

**Sadəcə olaraq onlar dil pəhləvanlarıdı. Ona görə də, heç adlarını, soyadlarını çəkmirəm ki, qanınızı qaraltmayım, çünki belələrini siz də tanıyırsız və özü də çox yaxşı tanıyırsız! Onlarla işimiz yoxdu! Biz Vətəni sevən, onun yolunda hər cür çətinliyə dözən, o yolda ölümdən belə qorxmayan bir vətənpərvər dostumuz və qardaşımız haqqında söhbət açmaq istəyirik.**

**O, Qubadlının Mollu kəndində boya-başa çatmıs, dərin kökü olan, nəsli-nəcabəti tanınan İlham Əliyevdir. Mən İlham müəllimi 25 ilə yaxındır ki, tanıyıram. Və həmişə də onun sadəliyinə, səmimiyyətinə və dostluqda sədaqətinə heyran olmuşam. İnanın, o, elə adamları çətin vəziyyətdən çıxarıb, onlara arxa durub ki, həmin insanlar bu nəcib hərəkətinə görə İlham qardaşımıza minnətdarlıq ediblər.**



**Çünki bu insanların ağlına belə gəlməzdi ki, İlham Əliyev onları axtarıb tapar və çətinlikdən çıxarar. Və bunların heç birini - elədiyi yaxşılıqları o, heç vaxt dilinə gətirməz! Əlbəttə, mənən zəngin, görüb-götürmüş adamlar elə onun kimi hərəkət edirlər. Təbii ki, belə insanları Allah da çox istəyir.**

**Ən azından ona görə ki, Allahın verdiyi ruzini imkansız və kasıb adamlardan gizlətmir. Allah da İlham müəllimin əliaçıqlığını görüb, o ruzini qat-qat artırır. Torpaqlarımız işğalda olan günlərdə o, bu dünyada rahatlıq tapa bilməyib. Və həmişə də Qubadlı deyib, Şuşa deyib, Zəngilan deyib, Ağdam deyib, Laçın deyib, Kəlbəcər deyib... Yəni Vətənin işğal altında olan torpaqları üçün dodağı dörd yerdən çatlayıb.**

**O, Birinci Qarabağ Savaşında həmişə ordumuza, əsgərlərimizə dəstək olub. Tez-tez Qarabağda, o cümlədən Qubadlıda olub və bir vətən oğlu kimi bacardığı maddi və mənəvi köməkliyi göstərib. Və ən nəhayət bütün Qarabağ torpağı işğaldan tamamilə azad olunandan sonra Qubadlıda və digər rayonlarda abadlıq, quruculuq işlərində yaxından iştirak edib və bu gün də bu missiyanı davam etdirir.**

**Başqaları kimi o, ”Vətən, Vətən”, - demir. Öz isi, öz əməli ilə Vətənə arxa durur, dayaq olur. İlham qardaşımız təpədən dırnağadək Türkçüdür. Belə ki, o, Ulu Öndər Heydər Əliyevi, Prezident İlham Əliyevi sevdiyi qədər Mustafa Kamal Atatürkü də sevir. Və deyir ki, bir millət, iki dövlət olan Türkiyə-Azərbaycan dostluğu əbədidir. Çünki bu dostluğun keçmişi ən uzaq tarixə kimi uzanır. İlham qardaşımız Türk xalqlarının böyük oğlu Atatürkün anım günündə bu dahi şəxsiyyətin məqbərəsini ziyarət edib! Vətən yolunda şəhid olurlar, qazi olurlar, qalib olurlar.**

**Eləcə də Vətəni canından çox istəyən İlham müəllim kimi oğullarımız da var. Və biz belə mərd, igid və qəhrəman oğullarımızın hesabına torpaqlarımızı erməni işğalından azad elədik və ərazi bütövlüyümüz təmin olundu. Allah belə oğullarımızı qorusun!!!**

## *Özəl klinikalar bağlanmalıdır?*

**Bu gün ölkəmizdə yüzlərlə özəl klinika fəaliyyət göstərir. Onların eləsi var ki, ölkəmizdə məşhur və hər cür müasir tibbi avadanlıqlarla təchiz edilib. Və həkim personallrı da kifayət qədər savadlıdır.**

Amma buna baxmayaraq,həmin klinikaların əksəriyyətində pasiyentlərə ödədikləri pulun müqabilində lazımi tibbi xidmət göstərilmir. Bununla yanaşı, vacib olmayan müayinlər və qan analizləri aparılır. Təbii ki, bu da xəstələrin əlavə yüklənməsi və pul ödənilməsi deməkdir.

Xəstə dünyasın bu klinikalarsa dəyişsə, ödədiyi küllü miqdarda vəsaiti geri qaytarmırlar. Bir məşhur cərrah,professor deyir ki, özəl klinikalar pasiyentləri həddindən artıq incidir, başqa sözlə demiş olsaq camaatı soyur. Ona görə də, özəl klinikalar hamısı bağlanmalıdır !!!

**EMİL FAİQOĞLU**

## *Çevik Polis Alayı xalqımıza şərəflə xidmət edir...*




**Azərbaycan Polisi həmişə xalqın, dövlətin ən çətin vəziyyətində həmişə onun yanında olub. Birinci və ikinci Qarabağ savaşında polis ərazi bütövlüyümüzün təmin edilməsində qəhrəmanlıqla döyüşüb, şəhidlər verib və nə qədər də əməkdaş güllə yarası alıb. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan polisi xalq tərəfindən sevilir. Bununla yanaşı, onu da qeyd etməliyik ki, onlar ictimai asayişin qorunmasını və cinayətkarlığa qarşı mübarizəni də yüksək səviyyədə təşkil ediblər.**

Polis əməkdaşları tərəfindən ən təhlükəli cinayətkar dəstələr belə vaxtında zərərsizləşdirilib. Bax belə cinayətkarların tərksilah edilməsi zamanı şəhid polislərimiz də olub və onlar xalqımızın yaddaşından heç vaxt çıxmır! Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev Azərbaycan polisinin fəaliyyətinə yüksək qiymət verib. Polisin maddi- texniki bazasının möhkəmləndirilməsi üçün çox böyük köməklik edib. Daxili işlər naziri, general -polkovnik Vilayət Eyvazov polis orqanlarında yüksək nizam-intizam və sağlam bir mühit yaradıb. Ona görə də , bu gün Azərbaycan polisi daha güclü və daha qüdrətlidir.

Bu mənada Çevik Polis Alayının da fəaliyyəti xüsusilə qeyd edilməlidir. Adından da göründüyü kimi, bu qurum hər hansı hadisəyə daha operativ, daha çevik münasibət göstərir. Çünki burada çalışan əməkdaşlar çox peşəkar, fiziki cəhətdən güclü və vətənpərvər gənclərdir. Belə ki, 2023-cü ilin sentyabrında keçirilmiş anti-terror əməliyyatı zamanı onların göstərdiyi qəhrəmanlığı xüsusilə qeyd etmək lazımdır. Həmin döyüşlərdə Çevik Polis Alayının əməkdaşları düşmənin mövqelərinin darmadağın edilməsində öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi. Onlar şəhid polislərimizin qisasını döyüş meydanında aldı. Yəni bu döyüslərdə onlar yeni bir qəhrəmanlıq səhifəsi yazdılar. Fərəhli haldır ki, bu gün də ölkəmizdə ictimai asayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə Çevik Polis Alayının xidmətləri əvəzsizdir! Qarşıdan Yeni il gəlir. Heç şübhəsiz ki, onlar yenə əvvəllər öldüğü kimi , bu bayram günlərdə gücləndirilmiş iş rejimində çalışacaq, biz evdə , şəhərdə , istirahət məkanlarında dincələrkən təhlükəsizliyimizi qoruyacaqlar.

Çevik Polis Alayının Binəqədi,Suraxanı, Xətai,Nizami , Yasamal rayonlarındakı bölükləri həmişə olduğu kimi, bayram günlərdə də öz vəzifələrini və tapşırılan işləri məsuliyyət yerinə yetiriblər. Bu gün Azərbaycan cəmiyyətində polisə çox böyük inam və sevgi var.Çünki insanların ən çətin vəziyyətində onlar camaatın köməyinə çatıb. Xəstə insana yardım edərək xəstəxanaya aparıblar və kimsə vətəndaşa hədə - qorxu gəlibsə , polis belələrini elə həmin an yerində oturdub. Bax , buna görə də , insanlar polisə güvənir, ona inanır və arxalanır.Bizi qoruyan polisi biz də çox istəyirik!!!

## *Maşın dayandığı yerdən tərpəndi...*



**Bir çox sürücülər avtomobili saxlayanda yol hərəkəti qaydalarına əməl etmir, mühərriki işlək vəziyyətdə qoyaraq yerə düşür və harasa gedir. Bir ay bundan əvvəl rayonlarının birində yük maşının sürücüsü avtomobili işlək halda qoyaraq yerə düşüb, xarab olub yolda qalmış maşının sahibinə kömək etmək istəyib, Elə bu vaxt masın yerindən tərpənir və dərəyə aşır və avtomobilin içərisində olan sürücünün bacısı dünyasin dəyişir.**

Ay qardaş, əgər kimə isə kömək etmək istəyirsən maşını çək yolun kənarına və mühərriki söndür. Və bundan sonra nə istəyirsən elə də! Bax adi bir məsuliyyətsizlik sürücüyə baha başa gəldi; bacısını itirdi, masını sıradan çıxaraq əzildi.

Bu günlər Bakıda da buna bənzər hadisə baş verib. Yəni sürücü avtomobili işlək.vəziyyətə saxlayır,harasa gedir.İçərisində sərnişin olan avtomobil qəflətən tərpənir, bir xeyli gedib, işıqfora çırpınır və onu aşırır. Maşının hərəkət etdiyini görən sürücü qaça da , özünü çatdıra bilmir. Xoşbəxtlikdən ölüm olmayıb. Bax yenə sürücü diqqətsizliyi! Ona görə də, hər bir sürücü avtomobili park edərkən daha diqqətli olmalı, birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidir!

## *Yeni il qabağı çox şey ucuzlaşacaq?*

**Hər il Yeni il qabağı əksər ət və ət məhsularının, eləcə də kənd təsərrüfatı məhsullarının qiyməti bahalaşır. Təbii ki, bu da insanların narazılığına səbəb olur.**

Çünki bir çox aztəminatlı ailələrin, təqaüdçülərin imkanı olmur ki, həmin məhsulları alıb evinə gətirsin. Bunun üçün öncədən qabaqlayıcı tədbirlər görülməlidir. Yəni aidiyyəti qurumlar yarmarkalar təşkil etməli , adını çəkdiyimiz məhsulların ucuz qiymətə satışını təşkil etməlidir. Deyə bilirsiniz ki, bəs Kənd Təsərrüfatı Nazirliyi Bakıda hər bayram yarmarkalar təşkil edir.



Düsdür, bu yarmarkalar olur, amma o, bazarlardan və marketlərdən fərqlənmir. Çünki orada məhsul satışa çıxaranlar kənddən gələn fermerlər deyil, alverçilərdir.Aydındır ki, alverçi də hər şeyi baha qiymətə satır. Belə ki, yarmarkaları təşkil edənlərin öz maraqları var.

Onlar kasıb adamları deyil, öz ciblərini doldurmaq haqqında düşünürlər.Amma elə eləmək olar ki, yarmarkalarda qoyun ətini 12-13 manata, mal ətini 15 manata satışa çıxarmaq olar! Sadəcə bunun üçün vəzifə sahiblərindən bir mərhəmət, vətənpərvərlik hissləri tələb olunur. Bax belə olsa, Yeni ildə ucuzluq yaranar və kasıb adamların da süfrələrində ürəkləri istədikləri yemək olar!

## *Bakıya sulu qar yağdı...*



**Bir neçə gün əvvəl hidirometeroloqlar bildirmişdilər ki, dekabrın 14- də Bakıya qar yağacaq və həmin günü paytaxtımıza səhər saatlarından axşama kimi qar yağdı. Və bu ən çox uşaqları sevindirdi. Hərçənd ki, qar yeri ağartmadı, ancaq Bakının çirkli havasını az da olsa, təmizlədi.**

Bir çox rayonlara qar yağdi və bəzi yerlərdə bu qarın qalınlığı 3-4 santimetri keçdi.Düzdür,, Bakıya yağan sulu qar balacaları əməlli- başlı sevindirdi, amma həmin gün evlər, mənzillər heç yaxşı qızdırılmadı. Çox təəssüf ki, ” Azəristiliktəchizat” soyuq gündə əhaliyə normal istilik verə bilmədi. Və bir ildə qiymətlər üç dəfə bahalaşaa da, lakin xidmətdə bir addım da irəliləyiş hiss olunmadı.

Əhaliyə isə verilməyən istiliyin artıq qəbzləri gəlib. Düz bir aydır ki, abonentlər normal istilik ala bilmir.Və bir neçə gündən sonra qış gələcək, soyuqlar, şaxtlar daha da artacaq! Bəs onda əhalinin mənzilləri necə qızdırılacaq? Kəndə yerlərində yenə camaat çıxış yolu tapacaq, belə olanda istiliklə təchiz olunmalı binaların sakinləri nə etsinlər? Qoy bu suala ”Azəristiliktəchizat” ın məsul şəxsləri cavab versin.Və bir də abonentlərə boş-boş vədlər deyil, istilik lazimdır!

## *Küçə ticarətinin qarşısı niyə alınmır?*



**Heç kimə sirr deyil ki, bu gün Bakıda bir küçə və prospektlərdə qanunsuz ticarət tüğyan edir. İnanmırsınız, çıxın şəhərə baxın görün düz deyirik, ya yox ! Sadəcə olaraq Bakıda küçə ticarəti bir çox vəzifə sahiblərinə sərf eləyir. Ona görə də, onlar buna göz yumur, daha dəqiq desək, münbit şərait yaradırlar.**

Məsələn, Bakının Yasamal rayonunda bir çox küçələrdə antisanitariya şəraitində bu gün də, qanunsuz küçə ticarəti baş alıb gedir. Rayonun Bəxtiyar Vahabzadə küçəsində və Milli Elmlər Akademiyasına gedən yolda tozun- torpağın içində mer- meyvədən tutmuş göy-göyərti qədər hər şey satılır. Hətta balıq da var! Amma hamsı şəraitdə ?! Tamamilə antisanitariya şəraitində!

Metronun” İnşaatçılar” satansiasının yağınlığında nə desən var. Alma, mandarin, armud, göy- göyərti və pendir, kolbasa , sosiska... Özü də çirkili bir şəraitdə.

Bu yaxınlarda həmin yerlərdə, konkret olaraq ” İnşaatçılar” metrostansiyasının yaxınlığında Qida Təhlükəsizliyi Agentliyinin reydlər keçirib və burada bir çox nöqsanlar aşkarlanıb.Məlum olun ki,satılan məhsulların sağlamlıq sənədlər yoxdur və satıcıların özləri də lazımi hüquqi arayışları yoxlama orqanlarına təqdim edə bilməyib.

Məlum qurum qanun pozuntusu ilə bağlı icra orqanlarına məlumat verir. Və həmin ünvanlarda bu gün də küçə ticarəti tüğyan edir!!!

**EMİL FAİQOĞLU**



# YENİ İL ZARAFATLARI

Yeni il axşamı bir ingilis, bir fransız, bir fars, bir türk oturub yeyib-içirlər.
İngilis deyir:
**- Dünyanın ən gözəl viskisi bizdədi.**
Fransız da qayıdır ki:
**- Dünyanın ən gözəl xanımları da bizdədi.**
Fars da qürrələnir:
**- Dünyanın ən gözəl xalçası da bizdədi.**
Sonra üçü də çevrilib türkə baxırlar:
**- Bəs, sizdə nə var?**
Türk:
**- Bizdə də ingilis viskisi içib, İran xalısı üstündə fransız xanımları ilə kef edən oğlanlar var.**

***

Aşot Moskvada Nataşa adlı qızla evlənir və gətirir İrəvana. Bir həftə sonra Nataşa dilxor-dilxor deyir:
**- Nə qədər çalışıram, atanla ananın xoşuna gələ bilmirəm.**
Aşot:
**- Axçi, əsas odur ki, müdirimin xoşuna gələsən.**

***

Yeni il axşamıdı. London. Con arvadından soruşur:
**- Düzünü de, heç mənə xəyanət etmisən?**
**- Hə, bircə dəfə.**
**- Nə vaxt?**
**- Yadına düşür, bir aylıq dünya səyahətinə çıxdıq, ondan iki gün qabaq.**
Paris. Mişel arvadından soruşur:
**- Mənə xəyanət etmisən?**
**- Hə, olub.**
**- Nə vaxt?**
**- Bizə Eyfelin yanında beşotaqlı ev bağışladılar ey, ondan əvvəlki gecə.**
Moskva. İvan arvadından soruşur:
**- Mənə xəyanət etmisən?**
**- Hə.**
**- Nə vaxt?**
**- Sənin bahalı kurtkanı oğurladıqları gecə.**

***

Bir nəfər əlində xəncər girir məscidə və deyir:
**- Burda bir müsəlman var?**




Hamı qorxa-qorxa bir-birinə baxır, nəhayət, bir nəfər qalxır:
**- Mən.**
**- Çıxaq bayıra.**
Çıxırlar bayıra. Əlində xəncər olan deyir:
**- Qardaş, kömək elə bu qoyunu qurban demişəm, kəsək.**
Qoyunu kəsirlər, amma soyub doğramaq üçün asmağa gücləri çatmır.
Əli xəncərli üst-başı qan içində yenidən girir məscidə:
**- Qardaş, burda bir müsəlman var?**
Yenə hamı qorxa-qorxa bir-birinə baxır, minbərdə oturmuş molla xaç çevirib deyir:
**- Qardaş, axırıncı sənlə çıxdı.**

***

Xanımı gileyli-gileyli qarmonçalan Abdal Şakirə deyir:
**- Şakir, camaat arvadını salıb yanına Tiflisə, İrəvana gəzməyə aparır. Bəs, sən məni, heç olmasa, Bakıya nə vaxt aparacaqsan?**
Abdal Şakir:
**- Ağdamda dərdinə dərman tapılmayanda.**

***

Əhəd Abıyev "Mersedes"iylə Masallıya gedərkən yolda köhnə bir "Moskviç"lə xırda qəza baş verir. Əhəd düşüb "Moskviç"in sürücüsünü boğazlayır.
"Moskviç"in sürücüsü:
**- Qardaş, bağışla, günah məndədi. Qaçqın adamam, hövsələni bas, bir çay içək, sonra görək neyləyirik.**
Əhəd Abıyev:



**- Ə, bu çölün düzündə çayxananı hardan tapacağıq?**
Qaçqın, darıxma, deyib gedib maşından bir lampa çıxarır, lampanı əli ilə sürtür, bu vaxt bir cin çıxır.
Qaçqın deyir:
**- Bir yaxşı çay süfrəsi, limonuyla, mürəbbəsiylə.**
Bir dəqiqənin içində hər şey hazır olur. Əhəd müəllim çaşıb qalır. Oturub çay içirlər, qaçqına deyir:
**- Bu lampanı satacaqsan mənə.**
**- Başına dönüm, bu mənim çörək ağacımdı.**
**- Bilmirəm, satacaqsan, yoxsa təpənə bir güllə vuraram.**
Qaçqın:
**- Onda bir şərtim var, Mersedesini mənə ver, sən də lampanı götür mənim Moskviçimlə get evinizə.**
Razılaşırlar. Əhəd müəllim lampanı götürür, oturur "Moskviç"ə, gəlir Masallıya evlərinə. Onu köhnə, cındırı çıxmış "Moskviç"də görən qohum-əqrəba soruşur ki, nə olub, bu nə maşındı.
**- Darıxmayın, yığışın başıma.**
Qohum-əqrəba hamı yığışır başına.
**- İndi deyin görüm, kim nə istəyir?**
Dayı oğlu villa istəyir, əmi oğlu "Volksvagen", qardaş oğlu Ağ şəhərdə beşotaqlı ev, bacı oğlu benzinkalonka.
Əhəd müəllim şellənə-şellənə əllərini sürtür lampaya və cin peyda olur. Cinə deyir:
**- Dayı oğluna bir villa, əmi oğluna Volksvagen, qardaş oğluna Ağ şəhərdə beşotaqlı ev, bacı oğluna benzinkalonka.**
Cin:
**- Qardaş, bağışla, mən bircə çay işinə baxıram.**

***

Dünyanın düz vaxtı Xankəndində erməni toyudu, erməni qızı azərbaycanlıya ərə gedir. Ağdamlılar da yığışıb gediblər. Məclisin şirin yerində Kino Fazil sağlıq deyir:
**- Bunu içək sizin gözəl qızlarınızın sağlığına ki, bizim oğlanlardan ötəri ölürlər.**
Ermənilər dilxor olur, biri qalxıb deyir:
**- Pazil müəllim, sizin qızlardan da bizim oğlanlara ərə gedən var.**
Kino Fazil:
**- Eşşək maldan deyil.**

***

Füzulili məşhur Poçtalyon Qadir evlərinə gələrkən görür məhlənin bütün adamları yığışıb bunların doqqazına, anası da üz-gözünü cırıb ağlayır. Yaxınlaşıb soruşur:
**- Noolub, ay arvad?**
**- Qızı qaçırdıblar.**
Poçtalyon Qadir:
**- Səsini kəs, qorxub qaytararlar.**

***

Rayonların birində yeni stadion tikilib, qırmızı lent kəsilir. Camaat da sevinclə dolur stadiona.
Başçı bəlağətli nitq söyləyəndən sonra futbolçular girir stadiona, oyun başlayır. Birinci hissə qurtarandan sonra başçı yenə mikrofonu alır əlinə və deyir:
**- Day bəsdi, oyunu saxlayın, otu xarab edirsiniz.**

***

Sovet hökuməti vaxtı Avropa dövlətlərindən birində heyvanlar öz aralarında belə qərara gəlirlər ki, getsinlər görsünlər Sosializmdəki heyvanlar necə yaşayırlar. Bir inək, bir it, bir eşşək gəlirlər Sovet hökumətinə. Aradan bir ay keçmiş inək qaçır öz ölkələrinə, soruşurlar ki, niyə qaçdın?
**- Allahın otunu vermirlər, deyirlər ki, ayda beş min litr süd verəcəksən.**
Bir az keçmiş it də qaçır. Ondan soruşanda, it deyir:
**- Sutka iyirmi dörd saatdır, məndən tələb edirlər iyirmi beş saat hürüm.**
Bir neçə ay keçir, eşşək qayıtmır. Teleqrama vururlar ki, qardaş, harda qalmısan? Cavab gəlir: "Heç, mən gələn kimi boynuma qırmızı qalstuk bağlayıb, rayonların birinə birinci katib qoydular".

***

Qonşu rayonların başçıları dərdləşirlər. Biri o birisinə deyir:
**- Qardaş, necə olur ki, mən birindən beş manat alan kimi bütün rayon bilir. Amma sən məndən çox alırsan heç kəs bilmir?**




**- Mən rüşvəti gecə alıram, alanda da kabinetin işığını keçirirəm.**
Gileylənən rayonun başçısı rayona qayıdan kimi həmin metodu tətbiq edir: rüşvət alanda kabinetin işığını keçirir. Üstündən üç-dörd gün keçəndən sonra camaat görür ki, başçının kabinetinin işığı söndürülüb, bir-birlərinə deyirlər:
**- Deyəsən, başçı yenə kimdənsə rüşvət alır.**

***

Xan əmiylə İldırım Həsənov Ağdamda toydadırlar. Xan əmi oxuyur, hər dəfə ona əlli manat pul atırlar. İldırım Həsənov oxuyanda isə beş manat.



Xan əmi stolun üstündəki əllilikləri göstərib forslana-forslana deyir:
**- Görürsən, İldırım?**
İldırım Həsənov:
**- Xan əmi, bir kişinin iki toyuğu varmış, birinin yumurtası bazarda on qəpiyə gedirmiş, o birisinki beş qəpiyə. On qəpiklik yumurtlayan toyuq beş qəpiklik yumurtlayana deyir ki, heç utanırsan? Beş qəpiklik yumurtlayan toyuq da qayıdır ki, indi nə deyirsən, beş qəpikdən ötrü filan yerimi cırım?**

***

İldırım Həsənovdan soruşurlar:
**- İldırım əmi, niyə bu qarabağlıların hamısının səsi var?**



**Bəlkə çoxlu yumurta içirlər ondandı?**
İldırım Həsənov:
**- Yumurtayla səs olsaydı, toyuqların gerisi Şur oxuyardı.**





Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# 2025-də göyərtdiyim SÖZÜN işıqlı anı

## Bir az yaşamağa ehtiyacım var ...

**Ürəyimdən səssizlik keçir. Sakit, heç kimin olmadığı mobil, elektron, daha nə bilim nələr,nələr olmayan bir guşə... Sadəcə su şırıltısı, yarpaq, ot xışıltısı, bir də quşların səsi. Yetər ki, bunlar mənim ayaqda olduğumu, yaşadığımı, mövcudluğumu xatırlatsın.**

**Yəni bunların mövcudluğu və mənim bunlarla təmasım artıq özü-özlüyündə yaşadığımı,düşündüyümü büruzə verir. Və mən də həmin o düşüncələri sadəcə indi xəyal edirəm,ürəyimdən keçirirəm ki, kaş, o sakit guşəni heç olmasa bir saatlıq haqq edə bilim,onu mənə bağışlasınlar... o bir saatlıq anı yaşamaq imkanı, dəstəyi versinlər...**

**Düşünə bilərsiniz ki, bu nə çətin işdi ki, bunu özünə dərd edirsən. Amma məntiqlə yanaşanda onda görürsən ki, hər kəsin istəyi çin olana qədər hansı çətinliklərdən keçir. Hətta bir stəkan bulaq suyunu içmək üçün də (Bakıda marketlərdə satılan bulaq suyundan getmir söhbət, bulağın gözündən içilən sudan danışıram mən- Ə.M.) həmin o bulağın yanına gedib çıxmaq bilirsiniz də nə deməkdi? Bilmirmirsinizsə, xatırladım. Bu həm vaxt deməkdi, bu həm maddi durum deməkdi, bu sağlamlıq, bu fiziki durum və nəhayət,bu həm də kimlərinsə izini, xeyir-duası deməkdi. İndi gördünüzmü, bir ovuc bulaq suyu içmək üçün bir dünya məsrəf, bir dünya səbəb var. Gəl indi onları aş görüm,necə aşırsan? Gəl indi bunları çöz görüm necə çözürsən? Ona görə də düşünməkdən,ürəyimdən keçənləri dilimə, sözümə gətirməkdən ehtiyat edirəm. Çünki doğru anlaşılmaya bilər, doğru yozulmaya bilər.Və nəhayət, bu dürüst anlaşılmazlıq hansısa qəlbi zədələyər, hansısa ruhu incidər.Onda necə deyərlər, Kərəmi də ağlamaq tutar...**

**Yeri gəlmişkən, bax elə bu mövzuyla bağlı yaşadığım bir məqamı xatırlayıram. Deməli,bir şeir yazmışdım. Onu indi sizə də təqdim edəcəm, sonra həmin məqama qayıdarıq.**

***İki əllə yapışıb***
***Saxlamaq istəyirəm...***
***Vaxtın hətta əl-qolun -***
***Bağlamaq istəyirəm...***

***Dondurmaq gəlib keçir***
***Vaxtı bəzən könlümdən...***
***İstəmirəm çəkilsin -***
***Sənli vaxtlar önümdən...***

***Bu istəklə sonadək***
***Yaşayaraq mən ölsəm...***
***Diriləcəm, ürəkdən -***
***İstəyimi sən bölsən!..***

**Bəli,bu şeirlə bağlı bir ürək dostum mənə bildirdi ki, söhbət hansı istəyindən gedir.Sual mənə yaman toxundu. Ona görə də birbaşa cavab verdim:**

**-Məgər mənim dirilməyimin hansısa bir istəklə bağlılığı var?**

**Bu cavabın ardınca ikinci bir cavab da gəldi dilimə və dedim:**

**-"Nəsimi" filmi yadındadı? Orda bir məqam var: Şəms deyir ki, "Dövlət bəyin ölüsü də gözəldi!" Bəlkə, mənə sual ünvanlayanda sən də bunu düşünürdün?**

**O gülümsədi və dedi:**

**-Sən gecələr yat, Dövlət bəy!**

**Hər şeyi başa düşdüm, mövzudan yayınmağı da,ironiyanı da. Amma özözümə həm də düşündüm ki, dərin hisslərə qapılmağın bəzən tuş gəldiyi elə nöqtələr olur ki, orda hətta meh də, şeh də adamın xətrinə dəyir.Ona görə də dərində üzmək başqadı, dərin hisslərə qatılmaq tamam başqa. Birində boğulmaq təhlükəsi, birində ağrımaqacısı...**

***

**Yaşananlar o vaxt şirin və yaddaqalan olur ki, onu xatırlayanda ürəyin ağrımır. Özündən, yaşadıqlarından,ümumiyyətlə, dünənindən incimirsən, küsmürsən,bezmirsən və dünəninə də, özünə də acımırsan. Bu mənada mənim dünənimdən incidiyim məqamlar heç də az deyil. Amma neyləyim ki, hər dəfə dizimə dəyən daşlar ağlımı özümə qaytarmır. Axırda dizim daşdan bezir, daş da dizimdən. Və hər ikisi"eh" edib başını bulayıb çəkilir öz işinin arxasına.**

**Buna görə də həm doğmalar, həm simsar olanlar, məni mənim kimi duyan sənin özün də hər dəfə məni qınayırsan, mənə nəsihət edirsən, məsləhət verirsən, ağıllı olmağa, özümü toparlamağa çağırırsan. Mən isə ağıllana bilmirəm. Deyəsən süddə gələn sümüklə çıxacaq axırda. Yəni normal, səmimi yanaşıb qayğıdiqqət ayırdığım insanın divarın o üzündəki mövqeyi, yanaşması, hətta açıqlamalar verməsi "qulağı" olan yerin yaratdığı fürsət hesabına çoxda gizlin qalmır, açılır üstü, bəlli olur hər şey. Bax, onda ürəyim ağrıyır, özümü qınayıram. Amma bu da bir an çəkir. Çünki mən təbiətən tamam fərqli baxmışam dünyaya.Bunun da əsas səbəbi müəllimlərim olub - həm məktəbdə, həm də həyatda. Hər zamanda onların öyrətdikləri, onlardan öyrəndiklərim əlimdən tutub və o sarsıntıları,o ürəyimə dəyənləri bükük bir kənara qoymaqda mənə kömək olublar. Və mən yenə öz yolumla, öz axarımla getmişəm, gedirəm... onlar da yenə öz axarlarıyla, öz yollarıyla gedirlər. Bu yollar kəsişən deyil. Bu yolların bəxtinə paralellik yazılıb. Ona görədə paralel olanın birbirindən qurtulması üçün hansısa birinin sıradan çıxması lazımdı.Bu da Allahın ixtiyarındadı. Mən də Allahın işinə qarışmağı nə bacarmıram, nə dəbu barədə heç düşünmürəm də. Sizə də məsləhət görmürəm. İstəyirəm ki, bu həyatın bütün rənglərini, bütün çalarlarını gözünüzün önünə gətirib necə var elə qəbul edəsiniz. Reallığa, gerçəyə sığınasınız, onu önə çəkəsiniz, onun yanında olasınız. Bax onda görəcəksiniz ki,bu dünyanın "qaradaş"ı də göyərməsə, üstündə ot göyərdir. Axı, iradə Allahındı! Hökm onundu!**

**Şəxsən mən bir az pafoslu, bir az böyük görünsə də, əlimi ürəyimin üstünə qoyub deyirəmki, bəli, məni necə, hardan vursanız da, onun ağrısı Allahımın və Sənin sayəndə bir məlhəm tapır. Və çəkilib bir təkliyə, bir kimsəsizliyə düşünürəm. Düşünürəmki, içimdəki təkliyin diktəsi də Tanrıdan gəlir.**

*Kədər bol, ağrı bol, qəm başdan aşır*
*Bu bolluq dəm verir, dəm , başdan aşır!..*
*Varım ,varidatım cəm, başdan aşır -*
*Bir az... yaşamağa ehtiyacım var!*

*Dünənim, bu günüm üst-üstə dağdı*
*Gül açan, bar verən, baxcadı, bağdı!..*
*Canım hərəkətdə , üzüm də ağdı -*
*Bir az... yaşamağa ehtiyacım var!*

*Əməlim ortada, sözüm yazıda*
*Göstərdim ədanı, çəkdim nazı da!*
*Xərclədim həmişə çoxu, azı da -*
*Bir az ... yaşamağa ehtiyacım var!..*

*Ürək sığmayanda sinə - qəfəsə,*
*Coşub dəlilər tək, gəlib həvəsə...*
*Bir çətir altında nəfəs- nəfəsə -*
*Bir az yaşamağa ehtiyacım var!..*

*Yurd salıb bir gizli fərəh içimdə*
*Fərəhə sarılsın gərək içim də!*
*Mən dua edirəm , fərəh üçün də -*
*Bir az yaşamağa ehtiyacım var!*

***

**Deməli, bütün bu dediklərimdən, bu yazdıqlarımdan və sizin eşidib oxuduğunuzdan belə bir nəticəyə gəlirəm:**

**-Həyatda kimin necə olmasından asılı olmayaraq, qədəri yazan Allahdı! Ruzini verən Allahdı! Dərdi də dərd çəkənə verən yenə Allahdı! Və...**

**Başa çatmaqda olan bu ildə, yəni 2025-də iki kitabım çap olundu - "...Və SƏN", bir də " Ruhumun and yeri" Bu kitab - övladlarım məni və məni izləyən oxucularımı SEVİNDİRDİ! Kitablarımın Naşiri Zaur Qafarzadəyə və mənəvi- maddi güvəncim Sənə ürəkdən təşəkkür edirəm! Aldığım iki mükafat üçün bu işdə əməyi olanlara MİNNƏTDARAM!!! Və bir də dekabrda ruhən yaşadıqlarımın bir nüansını da xatırlayıram ...**

***Dekabrın sonunda...***
***Bir günümüz də bitdi -***
***Əslində bitmədi -***
***bir günümüz də***
***itdi! -***
***Nə sən məni aradın,***
***nə də mən səni gördüm...***
***Bax, elə bu anda,***
***yəni dekabrın sonunda***
***itən günlərin kərpicindən***
***İl Səddi hördüm -***
***Sənsiz ötən ildən***
***Sənli günlərimi***
***Qorumaq üçün...***

**Hə, bu il Qardaş itirdim... dostlar itirdim.. Və yenə deyirəm ki, hər kəsin öz məntiqi, öz baxış bucağı, özünə məxsus özəl dünyası var! Bu mənada Siz özünüz mənim çıxardığım nəticəni silib ata da bilərsiniz... bilin ki, Amma mən güvəncim olan Allaha və Ona üz tutub həmişə dediyim, etiraf etdiyim və bu yazıda da yazdığım təşəkkürə zaman-zaman yaxınlaşmışam....**

**Yeni ildə- 2026-da görüşmək ümidi ilə Salamat qalın! Allaha əmanət olun!**

# Gün ərzində nə qədər piyada gəzmək lazımdır?

**"Gündəlik piyada hərəkəti insan sağlamlığının sadə, amma ən güclü qoruyucu vasitələrindən biridir. Ürək-damar sistemi, dayaq-hərəkət aparatı, həm də psixoloji vəziyyət üçün piyada gəzməyin təsirləri uzun illərdir elmi araşdırmalarla sübut olunub".**

Adalet.az xəbər verir ki. bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində fizioterapevt- reabilitoloq Aytən Musayeva deyib.

Onun sözlərinə görə, son illərdə ekspertlər artıq "nə qədər çox gəzsən, o qədər yaxşıdır" prinsipi əvəzinə daha dəqiq və fərdiləşdirilmiş çərçivələr təqdim edirlər:

"Çünki hər insanın yaşına, fiziki hazırlığına, xroniki xəstəliklərinə, hamiləlik vəziyyətinə uyğun ideal məhdudiyyətləri və imkanları var. Gün ərzində piyada gəzməyin ümumi qəbul olunan norması 6 000 - 8 000 addım və ya təxminən 30-45 dəqiqə fasiləsiz və ya bölünmüş gəzinti hesab olunur. Bu rəqəm Ümumdünya Səhiyyə Təş-



kilatının minimal aktivlik qaydalarına uyğundur və oturaq həyat tərzi keçirən insanlar üçün sağlamlıq risklərini ciddi şəkildə azaldır.

Lakin burada vacib məqam var: fiziki aktivlik "hamıya eyni" qaydada tətbiq olunmur. Yaşlılarda 6 000 addım artıq ideal həddi təmin edir, lakin gənc və sağlam insanlar üçün 8 000 - 10 000 addım daha yaxşı nəticə verir. Gün ərzində çox gəzən, lakin digər fiziki aktivliyi olmayan insanlarda isə təkcə piyada gəzmək oynaqların yükünü artırıb bel və diz ağrılarına səbəb ola bilər. Ona görə də gəzinti həmişə əzələ gücləndirmə və dartınma hərəkətləri ilə tamamlanmalıdır".

A.Musayeva bildirib ki, hamilə qadınlar üçün piyada gəzmək xüsusi əhəmiyyət daşıyır:

"Hamiləlik dövründə qan dövranı yüklənir, metabolizm yüksəlir və çanaq-bağ aparatında relaksin hormonunun təsiri ilə boşalma baş verir. Bu səbəbdən uzun müddətli və sürətli gəzinti qasıq və bel nahiyəsində əlavə gərginlik yarada bilər. Bu dövrdə həkimlər ümumilikdə 5 000 - 7 000 addım, yəni 20-30 dəqiqəlik gəzintini təhlükəsiz hesab edirlər. Hamiləliyin riskli olduğu hallarda (qəhvəyi axıntı, qarın gərginləşməsi, təzyiq dəyişməsi) gəzinti mütləq məhdudlaşdırılmalıdır.

Fizioloji ritmə görə gəzinti ən çox səhər saatlarında 10:00-12:00 arası və günorta yeməyindən 40-60 dəqiqə sonra edilən piyada aktivliyi qan şəkərini balanslaşdırır və şişkinliyin qarşısını alır. Axşam saatlarında isə yüngül 15 dəqiqəlik gəzinti yuxu keyfiyyətini artırır. Sürət də önəmlidir: çox sürətli və nəfəs darlığı ilə yürüş gündəlik sağlamlıq üçün yox, artıq idman məşqinə keçir və hər kəs üçün uyğun deyil. Orta sürətli, rahat nəfəs alınan temp optimaldır".

Fizioterapevt qeyd edib ki, əgər insanda aktiv oynaq iltihabı, bel yırtığı kəskinləşməsi, kəskin tromboflebit, təzyiqin qeyri-stabilliyi və ya hamiləlikdə qarın dartınması varsa, uzun məsafələr zərər verə bilər:

**"Həddinə qədər gəzinti güc və enerji verir, ancaq həddindən artıq gəzinti əks təsir yaradır: yorğunluq, əzələ spazmı, topuq şişməsi, diz oynaqlarında yüklənmə və ayaq altı fassiyanın qıcıqlanması. Nəticə olaraq, gündəlik piyada aktivliyi nə qədər düzgün planlanır və şəxsin öz bədəninin imkanlarına uyğunlaşdırılır, bir o qədər də sağlamlıq üçün dəyərli olur. Gəzintinin məqsədi bədəni cəzalandırmaq yox, onu hərəkət vasitəsilə gücləndirməkdir. İnsan öz orqanizmini dinlədikcə və imkanlarını anlayaraq hərəkət rejimini tənzimlədikcə piyada gəzmək təkcə fiziki sağlamlıq deyil, psixoloji rahatlıq üçün də ən sadə və təsirli vasitəyə çevrilir".**

**Sübhan**



*Zəlimxan YAQUB,*
*Xalq şairi*

# Yeridin, başına səpələndi qar...

**Görkəmli alim, pedaqoq, ictimai xadim və millət vəkili Şamil Qurbanovun adı çəkiləndə nədənsə həmişə qeyri-ixtiyari şəkillərdən və canlı xatirələrdən mənə əziz olan, üzünü görmədiyim, sözünün nurunda işıqlandığım Yusif Vəzir Çəmənzəminlini, Əbdülrəhimbəy Haqverdiyevi, Abdulla Şaiqi, Əlyar Qarabağlını xatırlayıram. Bu xatırlanmanın çox təbii və haqlı əsasları var. El içində bir söz var. Deyirlər: "Filankəs işıqlı adamdır". Uzun illərdən bəri yaxından tanıdığım, şəxsiyyətinə və şəxsi keyfiyyətlərinə dərindən bələd olduğum Şamil müəllimin təbiətində olan zəriflik, zahiri və daxili nurun vəhdəti, əsl ziyalılığa xas olan alicənablıq, xeyirxahlıq, səmimiyyət, onda gördüyüm işıq onu mənə həmişə sevdirmişdir.**

O bir alim kimi heç vaxt hamının bildiyi asan mövzular dalınca qaçmamış, əksinə, ən çox əziyyət tələb edən, ağır zəhmətə və araşdırıcılığa ehtiyacı olan mövzulara qol-qanad verməklə, qaranlıqdan işığa çıxarmaq üçün əlindən gələni əsirgəməmişdir. Onun elmi mühitə "Açılmamış səhifələr"lə daxil olması faktı çox ciddi mətləblərdən xəbər verir. Təsadüfi deyil ki, Hüseyn Minasazovun, Rahimbəy Məlikovun, Həmzətbəy Qəbulovun, Sona xanım Axundovanın, Məmməd Qarayevin ömür-gün yoluna ilk dəfə çıraq tutan, onların taleyinə ilk dəfə işıq yandıran şamil Qurbanov olmuşdur.

Borçalı ədəbi mühitinin yetirməsi olan Şamil Qurbanov təbii ki, Tiflis ədəbi mühitinə dərindən bələd olduğu üçün girişdiyi mövzuların hamısını uğurla başa vurmuş, Azərbaycanın elmi mühitinə bir-birindən qiymətli töhfələr vermişdir.

Haqqı tapdanan tarixi şəxsiyyətlərin bir çoxunun böyük mənada haqqını qaytarmaq da Şamil Qurbanova nəsib olmuşdur. Onun zəhməti sayəsində

Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, M.Ə.Rəsulzadə, Kərim Yaycılı kimi ziyalılarımızın öyrənilməmiş tərəfləri oxuculara yenidən təqdim olunmuşdur. Əlbəttə, bütün mənalı ömrünü elmi yaradıcılığa, gənc nəslin tərbiyəsinə həsr etmiş bir alim haqqında beş-üç kəlməlik ürək sözündən geniş elmi təhlil aparmağa heç bir ehtiyac duymasam da, iki böyük həqiqəti mütləq qeyd etməliyəm. Şamil Qurbanovun bir alim kimi öz xalqı qarşısında ən dəyərli xidməti böyük vətəndaş Ömər Faiq Nemanzadənin elmi-ədəbi və ictimai taleyi ilə bağlıdır. İlk dəfə Ömər Faiqin əsərlərini toplayıb 30 çap vərəqi həcmində çap etdirmək, haqqında ilk dəfə elmi monoqrafiya yazmaq xoşbəxtliyi də Şamil Qurbanovun adı ilə bağlıdır. Xoşbəxtlik sözünü ona görə işlədirəm ki, Ömər Faiq Nemanzadə kimi bir şəxsiyyəti bütöv və əhatəli şəkildə tanımaq və tanıtdırmaq, sevmək və sevdirmək - onun xalqa, Vətənə, dilə, dinə, etiqada, torpağa, təhsilə, maarifə, mədəniyyətə, gəncliyə, gələcəyə olan dəlicəsinə sevgi və məhəbbətini xalqa çatdırmaq həm



Ömər Faiq üçün, həm də Şamil Qurbanov üçün ən böyük xoşbəxtlikdir. Bugünkü qəzetlər bolluğunda hər şey çatır, bircə şey çatmır, Ömər Faiq yanğısı, Ömər Faiq qeyrəti!

Əgər bugünkü gənc jurnalistlər ordusu Ömər Faiqi arzu olunan səviyyədə yaxından tanısaydılar, səviyyəsiz yazılara, söyüşə, təhqirə qətiyyən yer verməz, xalq üçün daha gərəkli ümumbəşəri mövzulara, əxlaqi dəyərlərə, mənəvi keyfiyyətlərə daha dərindən nüfuz edərdilər. Nə isə...

Ömər Faiqin yeri görünür. Öz xalqı qarşısında xidmətləri böyük Mizə Cəlillə çiyin-çiyinə irəliləmiş, gözünün nurunu, ürəyinin yağını, ömrünü-gününü xalq üçün kül eləmiş, böyük əzablar görmüş Ömər Faiqi xalq Şamil müəllimin sayəsində bütövlükdə kəşf elədi, sevdi, tanıdı.

Alimin ikinci böyük elmi uğuru qüdrətli ziyalı-vətəndaş Cəmaləddin Əfqani ilə bağlıdır. Sovet dönəmində haqqında söhbət açmaq qəti qadağan olunan, bütün Şərq xalqlarının cəfakeş lideri kimi tanınan, pantürkizmin, panislamizmin banisi hesab olunan Cəmaləddin Əfqani haqqında 1996-cı ildə monoqrafiya yazmaq əsl qeyrət işi, elmi qəhrəmanlıq hadisəsidir.

Şamil müəllim son illərdə bir millət vəkili və ictimai xadim kimi də çox səmərəli fəaliyyət göstərir. Onun mətbuat səhifələrində, radio və televiziyada vətəndaşlıq yanğısı ilə dolu çıxışları hamı tərəfindən məmnuniyyət hissiylə qəbul olunur. Çünki onun dövlətimiz və mətbuatımız, problemlərimiz və qayğılarımızla bağlı çıxışları səbrə, təmkinə, ağla, təcrübəyə, savada, mütaliə və müşahidəyə əsaslanır. Dediyinə həm özü inanır, həm də xalqı inandırır. O heç vaxt nə çıxışlarında, nə də yazılarında hökm vermir, hikkəylə danışmır, alim nəzakətli, ziyalı mədəniyyəti ilə danışır, hökmü, nəticəni oxucunun və tamaşaçının ixtiyarına buraxır. Ona görə də elmi və ədəbi ictimaiyyətdə, rəsmi dairələrdə, Milli Məclisdə, xalq arasında onun bir vətəndaş-alim, şəxsiyyət-insan kimi xüsusi yeri, çəkisi və mərtəbəsi var.

Sevimli alimimizlə bağlı fikirlərimi sevgi və ehtiram dolu beş yarpaq şeirlə tamamlamaq istəyirəm.

## *İşığın mübarək*

***İşığın mübarək Şamil qardaşım,***
***Adında şam sözü alışıb yanır.***
***Səni oxuduqca ucalır başım,***
***Hər sətrin içindən bir şam boylanır.***

***İkinci talehi sən bağışladın,***
***Yatmış imzalara, batmış adlara.***
***Təzə nəfəs verdi ünvanın, adın,***
***Yenidən doğulmuş istedadlara.***

***Sən fikmrin sünbülü, mən şeirin dəni,***
***Yolunda hər şeyə hazıram, hazır.***
***Haqqında yazdığım beş-üç kəlməni,***
***Qələmim yazmır ki, ürəyim yazır.***

***Nurə bənzədirəm alın tərini,***
***Önünə dağ çıxdı, qarşına dərə.***
***Elmin açılmamış səhifələrini***
***Çevirdin açılmış səhifələrə.***

***Yeridin, başına səpələndi qar,***
***Baxmadın yolların uzaqlığına.***
***Elmin yollarında ağaran çaçlar***
***Döndü bir millətin uzaqlığına!***

***İşığın mübarək Şamil qardaşım,***
***Adında şam sözü alışıb yanır.***
***Səni oxuduqca ucalır başım,***
***Hər sətrin içindən bir şam boylanır.***

---



**QULU AĞSƏS**

# QƏDİR GECƏSİ

*Unudulmaz sənətkar, Xalq artisti Qədir Rüstəmovun bu ay 90 illik yubileyidir. Bu münasibətlə Qulu Ağsəsin "Qədir gecəsi" adlı yazısını təqdim edirik.*

**- Ə, qaqa, maşın mənim, ev dostumun, bə bunlar nə adnan gəlib doluşublar içəri?..**

Adil müəllim Qədiri bir də bağrına basdı, "şofer"ə əl uzatdı, Zöhrabla hal-əhval elədi, mənə yaxınlaşanda oğurluq üstdə tutulan uşaq kimi qızardım, başımı əvvəl aşağı, sonra tavana sarı qovzadım, Qədirin atmacası havada üzürdü...

Montajdan çıxıb redaksiyaya girəndə uşaqlar nahardaydı, stolun üstündəki "zapiska"da "Qulu, Zöhraba ("Azadlıq") zəng vur" sözləri elə pintiliklə yazılmışdı ki, Sitarənin "poçerk"i gendən çağırırdı.

"-Alo, zəhmət olmasa, Zöhrab Əmirxanlını..."- Salam. - Salam. - Necəsən? -Necəsən? -Yenə "Azadlıq"dasan? - Yenə radioda çürüyürsən?" - Zöhrabın səsindən hiss elədim ki, diabetinin dilinin şəkəriylə tərs-mütənasib vaxtlarıdı, yəni kefi kökdü, taleyindən razıdı, burnuma kabab iyi gəldi. "Ağdamlı Adil müəllim zəng vurmuşdu, dedi, Qədir Bakıdadı, danışmışam, sənə müsahibə verəsidi, götür gəl Ələtə..." Bir şey kəsdirəmmədim, ancaq sual verməyin də mənası yoxuydu, Zöhrab ki başladı, dəndiyində söz saxlayan deyil.

"Dur gəl "Azadlıq"a, gedək "Kubinka"ya, beşin yarısı Qədir dostunun maşınında bizi gözləyəcək, istəyirəm, ikimiz bir yazı hazırlayaq". "Kubinka"ya çatanacan sözü bir yerə qoyduq ki, Qədiri maşından saldıraq, müsahibəni elə Bakıda alaq, Adil müəllimdən zəng vurub üzr istəyərik. Qədir çatan kimi üstünü aldıq, Zöhrab sağdan, mən soldan, birimiz havadan, o birimiz qurudan hücuma keçmək istədik. Sözü kimə deyirsən?

Qədir daş atıb başın tutdu: "Ə, əvvəla, mən heç sizi tanımıram, Adilə hörmətim var, ona görə bəlkə sizi də maşına götürdüm. İkincisi, mən Bakıda karıxıram, sözümü-hərəkətimi bilmirəm, heç Əliyev mənə orden verəndə ağızdolusu təşəkkür də eləyə bilmədim. Siz kimsiniz, ə?" Çar-naçar maşına oturduq. "Mənim adım Zöhrabdı", "Mənimki Quludu", sürücü geri qanrılıb güldü: "Mən də Qədirin şoferiyəm". Qədir tərsikdi: "Şofer nədi, ə, sən bunların ikisindən də mərifətli oğlansan..." (Allah, sən özün Zöhraba səbr ver!) Zöhrab deyən məni eşitdi, üzündəki göy qurşağı əriyib itdi, başını irəli uzadıb Qədirdən nəsə soruşmaq istədi. Qədir dönüb gözlərini elə bərəltdi ki, ikimiz də mumladıq: "Ə, başımı qatmayın, bu saat avariya eliyəjəm" (Allaha and olsun, sükanda ayrısıydı, amma biz inandıq...). Ələtə xeyli var... 96-nın payız aylarıdı gərək ki. Bizdə heylə demirlər ha. Vay odu bir ağsaqqaldan nəyinsə yaşın soruşasan, o saat qayıdacaq ki, Keçiciğırı altındakı dağdağanı ildırım vuran ili... dəyirman Məhəmmədi yer çəkəndən azca irəli... güneyin dalından beləməsinə qalxanda Salmanlar kəhrizinin baş quyusuna şappa düşəndə... Divangirin gamışı Qalaya qaçanda... Amma mən sizə dəqiq vaxt deyirəm: Qədir Rüstəmov təzəcə "Şöhrət" ordeni alıb, ev alıb, yenə nəsə bağışlayıblar, şəhərdə min cürə şayiə gəzir, indi bir-bir özündən soruşacam, bircə Ələtə çataq. Postdan keçəndə "QAİ" saxladı: "Sənədləri!". "Sənəd mən!" - Qədir buyğur polisə çəmkirdi. "Bay, Qədir müəllim, sizə qurban olum, nətərsiz?" Postdakılar maşını dövrəyə aldılar. içəridən biri qaçaqaça gəldi ki, rəis Qədiri görmək istəyir, deyir, ayağını yuxarı qoysun, mənim yanıma. Di dur Qədirin qabağında, Azərbaycan polisi, görüm necə durursan?! "Ə, mən q...bəyəm-zadam, yanına çağıra, sən öl, kişiyə deyərəm, onun şalvarını çıxartdırar" (Vaxtın sürətini artırıram - müəl.). Polis üzrxahlıq eləyir: "Ötən dəfə Rəmiş də gəlmişdi..." Rəmişin adını eşidəndə Qədir lap hövüllənir: "Rəmiş kimdi, ə, sən məni ona tay tutursan? Sür, ə!.." Zöhrab qulağıma pıçıldayır ki, bundan müsahibə verən olmaz. Qədir Zöhrabdan iş yerini xəbər alır. Duet başladı. Zöhrab Elçibəyi, Qədir Əliyevi müdafiə eləyir. Axırı Zöhrab "pas" gedir, Qədirsə kirimək bilmir: "Çox da mənə xalq artisti adı verib, amma ondan prezident olmaz. Elə bil, Rəmişi padşah qoymusan, adamın dədəsinin goruna söyərlər, sən öl. Gördün də Elçibəyi. Bizi qoydu Leylanın düzündə".

Mən partlayıram: "Qədir müəllim, bunu indi niyə deyirsiniz?"

"Havaxt deyim, bəs? Bəri bax, ağsaqqal mənə orden verib - verib, ev verib - verib, noolsun içində yaşamayanda?! Heç yaxşı kişilər şikəst balasına heylə baxmırlar..." Şoferin dünya vecinə deyil, arabir Qədirlə məzələnir: "Leylanın düzün yaman dedin e. Haradı ora?" Qədir sözü boynundan atır: "Mən nə bilim haradı, bu "açkili" oğlanlardan xəbər al..." Ələt xaraba nə uzaqmış? Tərslikdən Adil müəllim evdə yoxdu, harasa çıxıb, ikinci mərtəbədəki stolların üstü naz-nemətlə doludu, ev sahibi gəlsə, "bismillah" eləyərdik.

...Zöhrab Adil müəllimlə məni əməlli-başlı tanış eləməyə ehtiyac duydu, Qədirin yolda çıxardığı oyunlardan danışdı, üstündən də and-aman elədi ki, bizi boş qaytarmasın. Çörəkdən sonraya razılaşdıq (Vaxtın sürətini təzədən artırıram - müəl.).

Stola araq sel kimi axır, Adil müəllim şeiri şeirin, sağlığı sağlığın dalınca qoşur. Qədir deyilən Allah bəndəsi əlini süfrəyə uzatmır, vur-hay qəlyanı körükləyir. At minnətinə sözü ona veririk. Diktafonu yavaşca stolun üstünə qoyuram, düyməsini sıxmamış Qədirin gözü alır, çörək burnumuzdan gəlir (A bədbəxt, guya Qədir nə deyəsidi ki? Gözəl bilirsən ki, onun möcüzəsi səsindədi), biz üzr istəyirik, diktofonu qulaqlayıb o biri evə atırlar. Zöhrab Adil müəllimi öyrədir soruşsun ki, Hacıbaba nətər oxuyanıydı? Qədirin cavabı hazırıymış: "Allah rəhmət eləsin, əziyyət çəkirdi". Bəs Ağaxan, Arif, Süleyman? - "Sağ olsunlar, zəhmət çəkirlər". Zöhrab girəvədən istifadə eləyir, üzünü Adilə tutub Qədirə eşitdirir: "Şamaxıda bir qız peyda olub - Elnarə, qeyri-adi səsi var, stili də özünəməxsusdu". Qədir tora düşür: "Ə, mənim ağzımı açmayın, yerindən qalxan özünə bir stil qayırır. Ayrı şeyi bilmirəm, muğamatın bircə yolu var: Xan yolu. Bu, el yoludu. Mən də o yolu gedirəm - dədə-baba. Bunlar qıraqdan gedirlər, qaçaq-quldur yoluynan".

Zöhrabın tükü durulur, üzünü şeştlə Qədirə tutub: "Alim Qasımov xaricdə zənciylə oxuyandan sonra Az.TV ona hücuma keçib, Habil Əliyev o günü Alimi "vapşe" yıxıb süründü, deməli, siz də onunla həmrəysiz, eləmi?" - soruşur. Qədirə bu söz bəsiymiş ki, təzədən "öz ampluasına" qayıtsın: "Habil özünə gülür, Xan əmimə ayaq verən kamançada bu durub "Cücələrim" çalır. O kimdi Alimə sataşır?" Sonra təzədən mülayimləşir: "Allah başlarından töksün, hamısı zəhmət çəkir". Gecədi, saat on ikiyə işləyir, heç nə alınmadı. Zöhrab getmək üçün məclisdən izn alır. Adil müəllim bizi buraxmaq istəmir, o biri otaqda yerimiz hazırdı, Qədir "Gecdi, getsələr yaxşıdı" - deyir. Səhərdən bəri onun əlindən canı boğazına yığılan Zöhrab tələsik plaşını geyir. Mənim paltomu hirslə üstümə atır: "Getdik!" ("Qəzeti də belə-belə olsun, səni də...") Adil müəllim əl-ayağa düşür, Qədir özünü sındırmadan yerindən qalxır: "Bunları özüm evlərinə qoyajam".

Bizi yola salmaq üstündə qırğın düşür, Qədir dediyindən dönmür, "şofer"i divanın üstündən paltoları yığışdırır... Birdən: "Ə, bə mənim ordenim hanı?" - hamı Qədirin yaxasına baxır, ora Leylanın düzü kimi bomboşdu, irəlidən də gərək ki, bir şey yoxdu. Adil müəllim yazıq stolun altına baxır, mən qorxumdan ciblərimi eşirəm, Zöhrabın hirsindən üzü səyriyir, "şofer" qanımızın arasına girir: "Qədir, bəlkə evdə qoymusan?" (Bir azdan ağlımıza gələcək ki, orden və medalların vurtut eskizi hazırdı...) Qədir sürətlə otaqdan çıxır, səhərki qaydayla "Jiquli"də tərkləşirik. Saat bir olar. Arabir maşının qabağından qurdquş keçir, Qədir cuşa gəlir: "Üstünüzdə tüfəng olanınız yoxdu?".. Kamal Abdulla yazır ki, Bakıya təşrif buyuran Oljas ağanı (Süleymenov) rayona qonaq aparmışdıq, yedik-içdik, dərdləşdik, şeir dedik, Oljas ağa təkidimizə baxmayaraq, dodağın dodağından ayırmadı. Geri qayıdanda, heç kəsin unamadığı yerdə başladı, nə başladı... Əsl oxumalı gecəydi, yorğun adamlar, maşında da Qədir Rüstəmov. Qədir oxumadı, dinmədi, danışmadı. Biz də ağzımıza su alıb oturduq. Düşəndə yalandan əl tutduq.

**Mən:**

- Qədir müəllim, icazə verin, bu gecəni yazım? Siz oxumadız, oxumadız...

**Qədir Rüstəmov:**

- Səni məhkəməyə verərəm.
- Sonra da yazmaq olmaz?
- Sonra... nə bilim, ə, nə olar, nə olmaz? Allah-zadam?

Mən Qədir oxumayan gecəni Allahın izniylə yazdım. Üstündən üç il yarım keçəndən sonra. Qədirə gənəşmədən, Zöhrabdan xəbərsiz. Bilib nə deyəsidilər: Allah deyillər ki?..

**Fevral, 2000**

# "...Və sən"in bədii çəkisi və özəlliyi




*Əkbər Əlioğlu Əliyev*
*Filologiya üzrə fəlsəfə doktoru, ədəbi tənqidçi*


**Mən Əbülfət Mədətoğlunu iyirmi ilə yaxın idi ki, qiyabi olaraq publisist yazılar müəllifi kimi tanıyırdım. Bilirdim ki, "Ədalət" qəzetinin redaktor müavinidir. Əməkdar jurnalistdir. Özümə mənəvi borc bildim ki, onun ədəbi-bədii simasıyla tanış olum. Bir-birimizlə tanış olduq. Və bir kitabını - "...Və sən"i mənə hədiyyə etdi.**

İlk öncə kitabın arxa üz qabığından təqdimatı oxudum: Çoxlu sayda nəsr və şeir kitablarının müəllifi. Xarici ölkələrdə çap olunmuş yazar... "Çoxlu sayda" ifadəsi gözlərim önünə tam formada olan ədəbi yazar simasını gətirdi. Və ilk növbədə kitabın adını daşıyan, elə cild qabığında da təqdim olunan şeirini oxudum. Özü də bir neçə dəfə. Onu modern kimi düşündüm. Söz düzümündəki, misra gəzişməsindəki qəribə bənzərsizlik məni bu düşüncə axarına saldı. Şeirin növbəti oxularında burada poetikanın mükəmməl nizamını və bədii-fəlsəfi fikrin məkan miqyasını, ictimai dəyərinin ucalığını gördüm. Və bir şeirlə tam yəqin etdim ki, mən əsl istedadlı bir şairlə üz-üzə dayanmışam, onunla bədii dillə söhbətləşmək, yaxından tanış olmaq ərəfəsindəyəm.

Diqqətimi xüsusi olaraq cəlb edən şeirləri, zəngin metaforik təbiətli deyimləri barədə söz açmazdan qabaq kitabdan aldığım ümumi təəssüratımı oxucularla bölüşmək istərdim.

Bu 352 səhifəlik şeirlər kitabından nə anladım: qəribə bir paradoksallıq rəy seçimi etməkdə məni düşündürməli oldu! İlk şeirin buraxdığı təəssürat hara, bu şeirlər hara... "...Sən və Allah, məkanlı, məkansız sığınılan, dizlərinə yıxınılan varlıq":

***O da,***
***Sən də -***
***Ruhumun sahibisən -***
***Allah və Sən!..***

Şərhə ehtiyac yoxdur. Bəs kitabın içində nə gördüm? - klassik şeir ənənələri üzərində köklənən və müasir poetik axtarışların vəhdətinə, vüsalına çatan əlahəzrət şeirlər. Təbii ki burada klassik poeziyamızın poetik formaları nəzərdə tutulmur, çünki şeirlər başdan-başa gəraylı, qoşma, müxəmməs, altılıq bölümlü formatdadırlar. Özü də 3-5 bəndlərdən ibarət olmaqla. Bəs Əbülfətin modernliyi, daha dəqiq desək, bənzərsiz fərdi üslubu nədədir? - Şeirlərin qafiyə sistemindəki çoxçeşidli "nizamsızlıq", "xaotik" bir düzüm karvanında. Bu çoxçeşidliliyi müasir şeirimizn tanınmış nümayəndələrnin yaradıcılığında da müşahidə edə bilirik. Sadəcə onlardan fərqli olaraq bu "nizamsızlığı", şairin demək olar ki, bir çox şeirlərində asanlıqla müşahidə etmək mümkündür. Bu, uğurlu bənzərsizlik deyil, öz səsin, öz nəfəsin bu "nizamsızlıq" içində kəsilə, boğula bilər. Məni şübhədən çıxaran bilirsiniz nə oldu? - Müəllifin məzmun və forma vəhdətini kifayət qədər qoruya bilməsi, və ən başlıcası şeirlərin az qala hər bəndində yeni, qulağa təzə çatan bədii təsvir və ifadə vasitələrinin gerçəkləşməsi. Bunlarsız bədii təfəkkür anlamı yoxdur, deməli, şeir də yoxdur. Biz Əbülfət Mədətoğlunun bədii sənətkarlığını bu yöndə gördük. Və onun "modernizmini" də bununla əlaqələndiririk. Kitabın bir poetik "mən"i var. Və bu "mən" özünü bir çox şairlərdə olduğu kimi, təbiət, bulud, yağış, çən, duman, ürək, həsrət, iztirab, ayrılıq, tənhalıq, sükut, ümid, şübhə, ay, ulduz, günəş, eşq, məhəbbət, sevgi, divar, qapı, pəncərə, işıq, gecə, gündüz, qaranlıq, din, qiblə, Allah, iman, inam, dua və s. onlarla məhfumlar arasında, savaş və barışıq məqamlarında, sevginin min bir çalarlarında görür və təsvir edir.

Təbii ki, poeziyanın əbədi mövzusu Təbiət, İnsan, Məhəbbət və Cəmiyyətdir. Qeyd olunan bu fonlar Əbülfət şeirində əsasən sevgi şeirlərinin bətnində görünür, özü də birinci şəxsin, yeni poetik "mən"in yaşam tərzində duyğularında, düşüncələri, xəyalları və yuxularında, həyatda gördüyü, müşahidə etdiyi hadisələrə münasibətində, ətrafında olduğu insanlarla ünsiyyətin doğurduğu hissi-emosional ovqatlarda, xüsusən də "o qadına" "saralan dəftər" silsilə şeirlərində öz ifadəsini daha qabarıq şəkildə tapıb. Bu şeirlərdə şairin uğuru, bəxti, naxışı onda gətirib ki, həmin şeirlərdəki yaşantılar, düşüncələr birbaşa fərdi "mən"lik ətəyindən asılı qalmayıb. Bir çox hallarda həmin şeirlər hamıya, ümumiyə aid olanları özlərində saxlaya bilib; kimsə o saat düşünə bilər ki, şair mənim tənhalığımı, sükutumu, divarla danışığımı, həsrəti ağrılarımı, xəyal oynadan romantik anlarımı və s. elə bil öz gözləri ilə görüb, yaxud bunları ona sanki mən özüm danışmışam. Bunlardan da öncə şairin ədəbi uğuru onun bədii təfəkküründən axıb gələn məhfumlara, obyektlərə, subyektiv mahiyyətli yanaşmalara yeni poetik rənglər qatmaqdan, təzə rakurslarla təqdim etməkdən, kimsənin ağlına gəlməyən, yaxud da yada düşməyən müəmmalarla zəngin bənzətmələrdən, epitet və təşbehlərdən, ən başlıcası isə metaforik fikir, düşüncə sıralanmalarından məharətlə istifadə etməsindədir. Assosiativ paralel seqmentli, həm də gözlənilməz, hətta ilk baxışda müəmması bilinməz bu metaforik fiqurlar, maraqlıdır ki, bir sıra şeirlərin bədii təsvirindən üstün və zəngindir. Bəzi məqamlarda bəndlər, beytlər, mətn başlığı ilə mətnin məzmun sərhədləri arasında məntiqi əlaqələr, bağlar oxucunu çətinə salır, xəyallandırır, şairin poetik hədəfini tapanda sevinir və həmin poetik kəşflərə görə şair "sağol" qazanır

Keçək konkret nümunələr əsasında danışmağa: Yuxarıda qeyd etdik ki, Ə.Mədətoğlu şeirləri metaforik təbiəti, poetik forma gəzişmələri etibarilə diqqətçəkəndirlər, oxucu fikrini öz ətrafında cəmləyə bilirlər. Bu mənada diqqətimizi daha çox cəlb edən, poetik gözəlliyi ilə ruhumuza rahatlıq gətirən bir neçə şeiri barədə ayrıca danışmaq, poetik düşüncələrindəki bənzərsiz kəşfləri - bədii təsvir vasitələrinin xüsusi seçimlik qazananlarını təqdim etmək istərdik. Bu baxımdan şairin bədii-estetik məzmun kəsb edən şeirləri çoxdur. Diqqətimizi xüsusi mükəmməlliklə cilalanmış şeirlərə yönəldək: "Söhbətlərdə", Dünyada olubmu, ya olacaqmı", "Bir gerçək var", "Sırası seyrəlir dostların yaman", "Sonuncu ümid", "Atamın ruhuna", "Getmisən", "Bir daşın şeiri", "Dörd divar arası", "Ömür mənzərəsi", "Gecə ağrılarının şeiri", "Köhnəlib", "Dörd divara etirafım", "Dönsün", "Özümə təsəlli", "Təkliyin günah üzü", "Ruhumun istəyi", "Yuxu xoşbəxti", "Mənzərə", "Həyatımız", "Sevginin", "Özümlə təsəlli söhbət", "Qoymadın", "Görürəm", "Duman", "Söz" və s. əsl şair qələmindən çıxmış şeirlərdir. Qeyd edək ki, bu qəbildən olan şeirlərin sayını artırmaq mümkündür.

Poeziya aləmində ənənəvi olaraq yarla görüş dəmləri axşamlar, gecə vaxtı başlayır; çay kənarı, salxım söyüdlər, yaxud qoca çinar bu görüşə şahidlik edirlər. Bəs bu görüş anına qədər sevən ürək sahibinin intizarla dolu səbirsizliyinin, görüşə atəşli ürəyin çırpıntılarının, duyğularının, xəyallanmalarının özəyində nələr dayanır.

"Niyyətin hara, mənzilin də ora" - deyiblər. "Niyyət" şeirində poetik "mən" mənzilə - görüşə yetmək üçün daha hansı düşüncələr axarını üzüb keçməli olur? - Özünü dinləsək daha xoş olar.

***Qaranlığı əridib -***
***Nur payıma qatacam.***
***İşıq sürəti ilə -***
***Gəlib sənə çatacam!..***

***...Bu gecədən umduğum -***
***Xəyalımın sədası!..***
***Sənə sədam çatanda -***
***Sən də səslən, qadası!***

"Niyyət" niyyətin gerçəkləşməsini əks etdirən incə lirizmlə dolu, romantik xəyallanmalarla müşaiyət olunan əsl insani yaşantıların ən nümunəvi poetik əksidir, - səmimi, saf, real bir etirafın təntənəli və məhrəm təsdiqidir. Bax, buna deyirlər şair sözü.

"Dörd divara etirafım" şeirində sevilən haqqında heç bir məlumat verilmir. Qalmısan iki daş arasında. Belədə güc nəyə çatır? - "özün özünlə söhbətə". Bu söhbətdən də doyub yorulursan. Bəs bu sükunətin yerini nə doldurur? - düşüncələr, aldadıcı təsəvvürlər - "döşəməni Yer sayırsan", "tavanı Göy bilirsən", "kədər təmənnası saplanıb", "əllərsə boş qalıb - umudsuz", "divara söykənməklə heykəlləşməyəsən" bəs nə edəsən, "əl izlərin bu divarı hər gün bəzəməsin", bəs neyləsin. Naümid sevginin dərələcək meyvəsi belə olar da. Bəyəm belə sevənlərə, taleyi asüftələrə həyatda azmı təsadüf etmişik. Sükut - dibi görünməz quyu, ünyetməz əngin səma sonsuzluğu. Bu sükut boşluğunda nə qədər və necə yaşamaq olar? Təbii ki, çıxış yolu tapmaq olar və bu, təkcə bir yoldan ibarət də ola bilməz. Lakin Əbülfət qələmində bu bədbəxt aşiq dörd divar arasında öz varlığını elə bu dörd divarın varlığında tapır. Və bununla da sükutun yaxasından özünü qopmuş bilir. Buna azadəlikmi, Məcnunluğun hüznlü süqutumu deyək. Cavabı oxucuların öhdəsinə buraxaraq şeirin son akkorduna nəzər salaq:

***Dörd divarda səsim, kölgəm varıdı,***
***Nöqtə-nöqtə axıracan hopmuşam...***
***Məndən təkcə bu dörd divar yarıdı -***
***Sükutunun yaxasından qopmuşam!..***

Bu aşiq dörd divarın canlı həyatı, varlığı nədən ibarətdirsə, elə ona da dönüb; səsi, kölgəsi bu dörd divarda olan, təbii ki, ona "nöqtə-nöqtə hopacaq" da.




"Mənzərə" şeiri də diqqətəlayiqlik qazanıb. Şeirin hər bəndi "Mənzərə"nin ümumi görkəmini layiqincə tamamlayıb, özü də ayrı-ayrı predmet və hadisə üzərində.

Şeir bizim üçün iki cəhətdən əlamətdarlıq, seçimlik kəsb edib. Şeirin ahəng sistemində fonetik səs uyarlıqlarının, eyni cinsli səslərdən formalaşmış sözlərin qafiyə yaratması, hər bəndin son misralarının alliterastik assosiasiyalar yaradaraq şeirə bir oynaqlıq, hərəki dinamizm gətirməsi, şəlalə axımlı musiqi ladlarının növbələşməsi bütövlükdə şeirin boy artımlığını, oxunaqlığını təmin etmişdir. Xüsusən də "hər guşəsi qəmlə şumlanan ürək", "vücuddan ağrını toz kimi çırpmaq", "qoz kimi barbəhərli bəxt ağacı", "ömür ələmək", "yüz pərvanənin bir işığa vurulması" və s. kimi izafətlər şeirin bədii mənzərəsini və təsir gücünü artımlı etmişdir. Şair şeirin sonunu xoş ovqatla, incə yumorla tamamlamaqla, həqiqətən gözümüz önündə o, canlı həyat və təbiət lövhəsi yaratmağa nail olmuşdur.

*Nəriltisi at oynadar dərədə,*
*Fərqli-fərqli hal oyadar hərədə...*
*Sular coşar, lap boy atar bərədə -*
*Sel belə... sel belə... sel belə...*

*Dil lal olar, istəkləri göz deyər,*
*Döz halına, dözümünü çöz deyər!*
*Hər aşiqin barəsində söz deyər -*
*El belə... el belə... el belə...*

*Ömrü ələ, günü çevir tərsinə...*
*Hazırlıqsız açılmaz ki, tər sinə!*
*Ay Əbülfət, sən məhəbbət dərsinə -*
*Gəl hələ... gəl hələ... gəl hələ...*

Sevginin mahiyyəti, onun yaratdığı namütənahı, eləcə də bitməz-tükənməz duyğular aləmi hər bir şairin yaradıcılığında üstünlüklə öz izini salıbdır, hətta məhəbbət şairi adlandırılan dünya klassiklərinin bu mövzulu şeirləri, poemaları bizimlə müasirdir, - desək həqiqətin aliliyini təsdiq etmiş olarıq. Təfərrüatsız qeyd edək ki, şairin "...Və Sən" kitabında toplanmış şeirlərin sanki böyük əksəriyyətini bu ruhlu şeirlər təşkil edir. Bu baxımdan onun "Sevginin" şeirini yaratması həm təəccüblüdür, həm də təəccüblü deyil. Təəccüblüdür biləsən ki, sevgi, məhəbbət haqqında kimlər yazıb və necə yazıb?.. Bununla belə onlar bərabəri təzə söz deməkdən çəkinmirsən, sevgiyə öz səsini qoşa biləcəksənmi, ona kimsədə görünməyən yeni nəfəs gətirə biləcəksənmi? Təəccüblü deyil ona görə ki, şair kifayət qədər bu mövzuda ruhunu kökləyib oxucuya "bir sətir hörmət" (Ə.Kərim) qədər təzə söz deyə bilib. Şair ürəyi "etiraf masası" elan edərək Tanrısı bilərək "ikiəlli onun ətəyindən tutur" və qarşısından da ümumiləşdirici və aydınlaşdırıcı bir söz yazır - "Sevginin". Tanrı kimi sevgini qəbul edib vəsf etmək yeni bir kəşf deyil, lakin şair -

***Tapdalanmaq və qırılmaq -***
***Haqlı, haqsız yazıdı bu!..***
***Hətta alnından vurulmaq -***
***Elə bil ki, nazıdı bu -***
***Sevginin!..***

***Hökmü dünyanı götürüb,***
***Ruhdu tək aldığı bacı!..***
***Tanrısı içdə oturub,***
***Ürəkdi taxtı və tacı -***
***Sevginin!..***

- deyə yazanda orijinal poetik forma seçimi ilk öncədə diqqəti cəlb edir. Bəlkə də bu cür bədii fiqur kimsə tərəfindən nə vaxtsa yaradılıb, - deyə bilmərik, xatırlayammırıq. Bununla belə "alnından vurulmanı sevginin nazı elan etməsi" şairin məhz öz səsidir, öz nəfəsidir. Yalnız burada "bir sətirlik hörmət" bu deyimdə haqqını alıb, əsl şair sözlüyünü bir daha təsdiqləyib. Onun yaratdığı "Söz" də əslində bu qəbildəndir. Yüzlərlə bənzərsiz fikirlər söylənib. "Allahdan aşağı"yadək vəsf olunub, "insan qəlbinin mühəndisliyi" kimi təqdir edilib, "hər yoxdan var olan" kimi İlahi dəyər verilib və s. Əbülfət şeirində isə söz insanlaşdırılıb; o, halsızdır, nəfəsi çatmır, "dildə balıq kimi çabalayır", "bir salavat çevirəndə Muğanda, Mildə gülümsəyir". Şair bu yeni tapıntılarıyla bizi tanış etdikdən sonra bizlərə məlum olanları özünəməxsus bir ovqatla, söz düzəniylə, ruhunun diktəsiylə oxucu mühakiməsinə verir. Biz əminik ki, şair söz meydanından sözün gücüylə alnıaçıq çıxacaqdır. "Söz" özü də bunu təsdiq etməkdədir.

*Gecikməsi adi haldı danın da,*
*Qələm özün göstərəcək anında!*
*Boy verəcək ilham varsa canında -*
*Cücərəcək, düşsə hətta gildə söz!*


**(ardı 13-cü səhifədə)**



Fidan Abdurəhmanova

# Taleyi göylərə yazılan insan

**Hökümə Əliyeva peşəsini qürurla yaşadırdı, o sıradan bir stüardessa deyil, ümidləri göyə qaldıran qüvvə idi...**

**Onun hekayəsi Azərbaycan xalqının yaddaşında nur kimi yaşayır - zərif, cəsur və unudulmaz qəhrəmanın işığı kimi. Elə bir qəhrəman ki, zərif simasında möhkəm iradə, qəlbində minlərlə insana yetəcək qədər sevgi yaşadırdı. Tale onun həyatını duaların qovuşduğu göylərə yazmışdı**

**Göy üzünün sonsuz maviliyində bəzi adlar var ki, ulduz kimi yanıb sönmür - əksinə, uçuşların sükutunda parlayıb insanların yaddaşının dərinliyinə həkk olunur. Hökumə Əliyeva da belə adlardan biridir. Kəlbəcərin sərt qayaları ilə qucaqlanan kənddə doğulsa da, həyat onu çox erkən yaşlarından yollara çıxardı. Uşaqlığının səhifələri gah köç karvanlarının tozuna, gah Volqoqradın soyuq səhərlərinə qarışdı. Azərbaycanın Aviasiya tarixinə ilk qadın milli qəhrəmanı kimi daxil olan Hökümə Əliyeva 612 bal toplayıb hüquq fakültəsinə qəbul olmuş, çalışqanlığı və məsuliyyəti ilə müəllimlərin və tələbə yoldaşlarının yaddaşında özünəməxsus iz qoymuşdu. Təhsilini inadla davam etməyə çalışsa da, göylərə olan sevgisi onu hər dəfə yeni üfüqlər bəxş edərək uzaqlaşdırırdı. Amma harada olur-olsun, bir həqiqət dəyişmirdi: Hökümənin gözlərində daim ümid işığı yanırdı.**



**Hökümə bu işığın izi ilə ulduzlara qalxaraq öz gələcəyini yazdı. Taleyin ən böyük hədiyyəsi onun üçün göylər idi.**

**Göylər insanı həm qorxudan - yeri göyü titrədən, həm də ucalığı ilə əlşatmaz ulu məkandır. Hökümə yüksəklikləri sevdiyi üçün buludların arasında tez-tez qərq olurdu. Bəlkə də AZAL forması geyinib ilk uçuşuna çıxdığı gündən özünə təsəlli verərək pıçıldamışdı: ”Hər şey yaxşı olacaq ”**

**Bu qısa cümlə sadəcə bir fikir deyildi - onun həyat fəlsəfəsi idi. Hökümə sanki hər uçuşa bir az da sevgi qatırdı. Sərnişinlərin ürkək baxışları ilə rastlaşanda gülümsəyir, oturacaqları həyəcanla sıxan uşaqlara üzünün zərif cizgiləri və baxışları ilə ”narahat olma” deyirdi.**

**Lakin, 25 dekabrın soyuq səhərində göylərin qucağı qəfil qaranlığa döndü. Təyyarəni silkələyən o anlarda sərnişinlərin gözlərinə baxan Hökumə yenə öz cümləsini dedi - təmkindən, ürək genişliyindən yoğrulmuş həmin o cümləni: ”Hər şey yaxşı olacaq.” O, həmin an qorxunu boğan səs idi, səda idi**

**Sükutu qıran ümid idi**

**İnsanların son anda tutduğu əl idi**

**Ona verilən ”Milli Qəhrəman” adı sadəcə kağızda yazılan titul deyil; bu, onun insanlıq qarşısında etdiyi fədakarlığın möhürüdür.**

**Bu gün onun adı çəkiləndə insanlar başını qaldırıb göyə baxır - çünki Hökümə sanki hələ də ordadır. Buludların arasından gülümsəyir, uçuşlara müşayiət edir və yorğun səyahətçilərin qulağına pıçıldayır:**

**”Hər şey yaxşı olacaq ”**

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli sərəncamı ilə Əliyeva Hökumə Cəlil qızına sərnişin təyyarəsi reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifəsini yerinə yetirərkən sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq və fədakarlıq göstərdiyinə görə ölümündən sonra ”Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.**

## Lotoreyadan 1 milyon dollar qazandı, hər həftə isə...

**Kanadada yaşayan 20 yaşlı Brenda Aubin-Vega ”Poz qazan” lotereyasında 1 milyon dollar qazanıb.**

Adalet.az-ın xarici mediaya istinadən verdiyi məlumata görə, şanslı gənc lotereyada udduğu 1 milyon dolları nəğd götürməkdən imtina edib. O, atası ilə məsləhətləşdikdən sonra hər həftə 1000 dollar almağa qərar verib. ”Əvvəl gözlərimə inanmadım. Əlimdəki lotereyaya bir daha baxdım. Bəli, bəxt üzümə gülmüşdü!”, - Brenda Aubin-Vega belə deyib. Şanslı gənc, 1 milyon dolların onu və ailəsini yoldan çıxaracağından ehtiyat etdiyi üçün az məbləğlə kifayətlənəcəyini bildirib: ”Biz heç vaxt bu qədər pulu bir yerdə görməmişik. Az olsun, amma daimi olsun”, - deyə o, qərarını əsaslandırıb. Mütəxəssislər Brendanın bu seçimlərini ”ağıllı qərar” adlandırıblar. Onların hesablamalarına görə, Brendanın lotereyada qazandığı məbləğ faizlə birlikdə ömrünün sonuna qədər rahat həyat təmin edə bilər.

Qeyd olunur ki, Brenda Aubin-Vega 39 yaşına çatanda topladığı məbləğ 1 milyon dollar, 80 yaşına çatanda isə 3,1 milyon dollar olacaq.

VAQİF YUSİFLİ
Filologiya elmləri doktoru



# YUSİF SƏMƏDOĞLU - AYSBERQ ADAM

## (Böyük yazıçının 90 illiyinə)

**Ondan hələ çox yazacaqlar... Xatirələr, məqalələr, dissertasiyalar, monoqrafiyalar... Bütün bunlar hələ yazılacaq, hər yazıda da məlum və tanış insani cizgilərindən, yaradıcılığının məlum və bənzərsiz xüsusiyyətlərindən söz açılacaq. Bir insan kimi çox maraqlı, yalnız özünə bənzəyən Yusif Səmədoğlu... Bir yazıçı kimi də orijinal dəst-xətti, kimsənin təkrar edə bilməyəcəyi üslubu ilə seçilən Yusif Səmədoğlu onu tanıyanların və sevənlərin yaddaşında yaşayır.**

Onu dünyaya gətirən ANA - Xavər xanım da dünyadan köçüb. Amma sağlığında o, hər gün öz Yusifiylədi. Hər gün onu qucağına alır, yuxuladır, məktəbə yola salır, onu sevir, əzizləyir, boyunu oxşayır. Yusif böyüyür, ali təhsil alır, Moskvaya gedirn və dünya şöhrətli atasının ölüm xəbərini eşidir. Yusif ilk hekayəsini yazır, sonra ssenarist olur, sonra ”Astana”nı, ”Bayatı Şirazı”, ”İncə dərəsindəı yaz çağı”nı, ”Qətl günü”nü yazır, birdən-birə Azərbaycanda ən məşhur bir yazıçıya çevrilir. Xalq hərəkatının mənəvi liderlərindən birinə çevrilir, Milli Məclisin üzvü olur, Yusifin yazıçı və siyasi xadim ampulası genişlənir. Və günlərin bir günü, bir isti avqust günündə...

*Mən bir gün üfüq olmuşdum,*
*duman çökdü dənizə...*
*Görünmədim...*
*Mən bir gün cığır olmuşdum,*
*gedib-gələn olmadı,*
*ot basdı üstümü..*
*Görünmədim.*

*(V.Səmədoğlu)*

O isti avqust günündən sonrakı yusifsizliyi bəlkə hamıdan çox duyan Vaqif Səmədoğlu idi - Yusifin qardaşı. ”Bəlkə Yusifə indi soyuqdur? İrəlidən də tərs kimi qış gəlir Bəlkə Yusifə bu an, indi..Mehribanın və Humayın, Həmidə xanımın əllərinin hərarəti lazımdır? Bir qədər də qardaş nəfəsi, qucağı boşalmış ana laylası?”

Yusif Səmədoğlunun ən yaxın dostu Anar idi və onun yaradıcılığı haqqında ən düzgün, dəyərli fikrin də müəllifi Anardır. ”Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin ən görkəmli simalarındandır. ”Soyuq daş”, ”foto-fantaziya”, ”İncə dərəsində yaz çağı”, ”Bayatı Şiraz”, ”Astana” klassik hekayə örnəkləridir. ”Qətl günü” çağdaş romançılığımızın zirvələrindən, ədəbiyyatımızın şah əsərlərindəndir. ”Qətl günü” bizim ədəbiyyatımızın həqiqət günüdür. Yusif həqiqi yazıçı idi. Nadir istedada malik təkrarsız nasir idi. Yazıb qoyduqları da kəmiyyətcə deyil, ekyfiyyətcə Böyük Ədəbiyyatdır”.

Böyük Ədəbiyyat yaradan insanın şəxsiyyəti də böyük olmalıdır. Bu Böyük Şəxsiyyət həyatın xırdalıqlarına, keçici və ötəri anlarına, iddiasından kiçik görünən adamlara qarşı biganə idi. Bütün Böyük Şəxsiyyətlər kimi onun da həyatında son dərəcə gərgin, dramatik, hətta faciəli anlar yaşanıb. Amma Yusif Səmədoğlu üçün faciə deyildi ki, kimsə onu anlamır, dərk eləmir, bir yazıçı və insan kimi heç qəbul eləmir. Hətta faciə də deyildi ki, atası - böyük Səməd Vurğunu qarasınca deyinirlər. Yusif Səmədoğlu bütün bu xırdalıqlardan çox-çox ucada dayanan bir insan idi. O, azərbaycan gerçəkliyində və Azərbaycan ədəbiyyatında Bəy-Ağa missiyasını ləyaqətlə qoruyurdu. Aristokrat idi.

Yusif Səmədoğlunun dostlarının, onu tanıyanların və sevənlərin sayı bizim təsəvvür etdiyimizdən qat-qat çox idi.Lakin o, nəinki öz ailəsində , nəinki sevdiyi Bakıda-Azərbaycanda , hətta bu böyük Dünyada tənha idi. Bu böyük tənhalıq onun faciəsi yox, xoşbəxtliyi idi. O, bu tənhalığı ömrünün sonunacan qorudu.

**Tənhalıq istəyitrəm,**
**Böyük, Dərin,**
**Dolu Tənhalıq!**

**(Əli Kərim)**

”Dərd də azar kimi, gələndə batmanla gəlir”.

”Qətl günü” bu sözlərlə başlayır.

Azərbaycan tavrixində və Azərbaycan ədəbiyyatında qətl günləri çox olub. Yusif Səmədoğlu bu Qətl günlərini millətin faciəsi, həm də Böyüklüyü kimi nəsrə gətirdi.Romandakı şairin faciəsi



və həm də böyüksüzlüyü, ölümsüzlüyü səhnələrinə diqqət yetirnək.

Faciəsi budur:

”Bəli, adil hökmdar,- Vəzirin çənəsi titrədi.-bəxşişlərdən imtina ediblər şairlər.

-Səbəbi?

Vəzir bir addım qabağa atdı, indi lap ikiqakt oldu.

-qalada məşhur şair varp, onun başını istəyirlər səndən, ulu hökmdar.

Hökmdar

-Mən çox məmləkətlər görmüşəm, amma şairi şairinin başını istədiyi məmləkəti görməmişdim.”

Böyüklüyü budur ki:

”Şair özü bu dünyadan gedir, amma sözü-söhbəti bu dünyada qalır”.

Faciəsi budur:

-Qulaq asın mənə! - dedi. - Bu məmləkəti mən almışam, bu məmləkətin qalasını yerlə-yeksan edən mən olmuşam və mənim igid sərbazlarım olub! Bu məmləkətin xanını edam etdik, kəndinikəsəyini oda verdik, qolunda təpər qalmış erkəklərinin hamısını qılıncdan keçirib qanına qəltan elədik və bir kimsə qorxmadı və yerli camaatdan da bir kimsə artıq-əskik danışmadı. Rədd olun, dağılışın! Şairin edamı gün batanda, dediyim yerdə və camaatın gözü qabağında olacaq. Başını da qızıl teştin içində məmləkətin o biri dılğır şairlərinə verəcəyik”

Böyüklüyü budur ki:

”Sonra birdən şairə elə gəldi ki, günəşin bugünkü allığı, qürubun bugünkü qırmızılığı məmləkətdə tökülən qanın buxarından əmələ gəlib. Şairn qalan yolu gedə-gedə daha gözlərini al günəşdən çəkmədi”.

Yusif Səmədoğlunun dili dəqiqliyi, yığcamlığı və səmimiliyilə seçilir və bunu ”Qətl günü”ndən söz açar dilçilərimiz də qeyd edirlər. Personajların hər birinin özünəməxsus dil və danışıq xüsusiyyətləri var. Amma elə sözlər və ifadələr var ki, bunlar get-gedə zərbülməsələ çevrilməkdədir.

”Yolun haradır qardaş!! - Son mənzildir, bacım”, ”Dərd də azar kimi gələndə, batmanla gəlir”, ”Yandım, kül oldum, ay dağlar!”, ”Kökünüz kəsilsin sizin, ay ikiayaqlı bəndələr!”, ”Yuxunuz şirin olsun, dirilər!”. Məsələ burasındadır ki, Yusif Səmədoğlu Azərbaycan nəsrinə yeni roman dili gətirir.

”Qətl günü” ilk cümləsindən son cümləsinə qədər milli əsərdir. Son illərdə bu romanla bağlı onu postmodernist bir cərəyana qoşmaq meylini görürük. Qoy olsun! Amma ”Qətl günü”nü ilk növbədə, Azərbaycan nəsrinin (bütövlükdə ədəbiyyatının) kontekstində təhlil etmək, dəyərləndirmək lazımdır. ”Qətl günü” indiyə qədər yazılan bütün romanların-ən yaxşı nəsr əsərlərinin bir çox xüsusiyyətlərini özündə əks etdirən və təkmilləşdirən romandır. Sanki bu əsər yazılmalıymış ki, biz Azərbaycan nəsrinin bütün estetikasını cəm halda belə bir romanda görək.

Romanı tarixi roman kimi təhlil edənlər də var. Bu əsərdə konkret tarixi şəxsiyyətlər personaj deyillər, amma Azərbaycan tarixinin son üç yüz illik mənzərəsini heç bir konkret tarixi şəxsiyyətin iştirakı olmadan, yalnız müxtəlif tiplərin obrazları ilə işarələnmiş görürük. Romanı psixoloji roman kimi də səciyyələndirmək olar. Hər bir obrazın təkcə hərəkətləri, həyat dinamikası deyil, həm də daxilində gedən proseslər də diqqəti cəlb edir. Romanda mifologiya, mistik və folklor elementləri bir-birilə o qədər bağlıdır ki.. Baba Kaha, Canavar.. Külək.. Nağılvari elementlər. Ancaq bütün bunların heç biri romandakı sərt realizmi zəifləmir. Və burda qeyd edək ki, ”Qətl günü”ndə nəinki əsas obrazlar, hətta əsərdə az gözə dəyən və epizodik surətlər də unudulmur. Əzazil hökmdardan, xacə Ənvərdən, Xəstə ədəbiyyatşünasdan, Sədi Əfəndidən, Tatar Temirdən, Üfləmə Qasımdan, Muxtar Kərimlidən, Salahovdan, Zülfüqar kişidən, feldşer Mahmuddan, Sarıca oğlu Məhəmməddən..

Yusif Səmədoğlu təsvir ustalığında bənzəri olmayan yazıçıdır. ”Astana”dakı ölüm qorxusu yaşayan insanın dəhşətli sarsıntıları. ”Bayatı Şiravz”dakı Səbzəli dayının keçirdiyi həyəcanların təsviri. ”Qətl günü”ndəki şairin edamı, xacə hökmdarın despot olduğu qədər də bir insan kimi zəifliyi.. Yusif Səmədoğlu hətta epizodik bir obrazın təsvirində də heyrətləndirir bizi.

”Elə bu vaxt hökmdar, xacə Ənvər, vəzir, vəkil, saray bağına axşam gəzintisinə çıxmış əyanlar, sərkərdələr hardansa bir qadın səsi eşitdilər: kimsə ağı deyirdi, yanıqlı-yanıqlı kimisə oxşayırdı.

-Bu nədi belə?

Sərkərdələrdən biri yerindən götürülüb, tez də qayıtdı.

-Adil hökmdar, bir qoca arvaddı, şairin cəsədi üstündə ağı deyir.

Hökmdar inildədi.

-Kəsin onun səsini!

Sərkərdə yanaşıb qarının üstünü kəsdirdi.

-Ay arvad, -çığırdı, -Dur get xarabana!

Qarı başını qaldırıb gözləri qabağında dayanmış qaraltını əməlli seçə bilmədi.

-Ay bala - dedi, səsi gordan çıxdı,- Mənnən işin olmasın. Qoy ürəyimi boşaldım”.

...Böyük okeanlarda, dənizlərdə buz qatları-aysberqlər olur. Bu aysberqlərin çox hissəsi suyun altındadır. Yusif Səmədoğlu şəxsiyyətini də, yaradıcılığını da o aysberqlə müqayisə etmək olar. Bir on il də yaşasaydı, daha nələr yaradardı...

İsti avqust günlərini birində - 1998-ci ildə -Yusif Səmədoğlu dünyamızı tərk etdi. Bu 27 il ərzində dünyada çox sular dəyişib, çox nizamlar dağılıb. Yusifsiz də bu dünya öz işindədir .Və hər gün dünyadakı dəhşətli mənzərələri seyr edəndə ”Qətl günü”ndəki bir çığırtı yada düşür: ”Tfu sənin təxtinə, ay çərxi-fələk!”



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**"Bir az çətin biridir. Amma bir o qədər də qəlbi yumşaq və sevgi dolu. Sonsuza qədər inanılacaq dost, yol yoldaşı və ərdir. O sosial şəbəkədən istifadə etmir. Bu şəbəkələrə də əsəbiləşir. Şəkil çəkdirməyi də xoşlamır. Hansısa önəmli adamlarla şəkil çəkdirib və onu paylaşıb hava atanları da qeyri-səmimi adlandırır. Belə bir adamdır. Mübarizəsi olan, mübarizənin nə demək olduğunu anlayan adamdır. Ad günün mübarək. Allah səni hər iki dünyada bəxtiyar etsin".**

### *İlyas İsmayılov itkisi...*

Uzun illər SSRİ kimi nəhəng bir dövlətin və Müstəqil Azərbaycanın hüquq-mühafizə orqanlarında çalışmış, "Qanun şahdır" fəlsəfəsinə sadiq, özünün həyat və fəaliyyəti ilə başqalarına örnək İlyas İsmayılov təqaüdçü olduğu dönəmdə də həmkarlarının, Azərbaycan mətbuatının, ziyalıların... diqqətindən kənarda qalmayıb, tarixi günlərdə, özünün doğum günlərində və s. xatırlanıb, ziyarət olunub.

20 mart 2023-cü ildə, İlyas müəllimin 85 illik yubileyi münasibətilə, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev yubilyara zəng edərək, Prezident İlham Əliyevin təbrikini çatdırdı, Respublikanın Baş prokuroru Kamran Əliyev sabiq Respublika prokurorunun evinə gedərək Onu "Azərbaycan Prokurorluğunun 100 illiyi" medalı ilə təltif etdi.

Ardı-arası kəsilməyən təbrikləri qəbul edən İ.İsmayılov həmin gün öz məmnuniyyətini belə xarakterizə edirdi: "Təəssüratlarım çox yaxşıdır. Sağlamlığım yerindədir. Hər şey qaydasındadır. Ad günü münasibətilə çox sayda insan zəng edib, məni təbrik etdi. Zənglərin sayı-hesabı yoxdur. O qədər zənglər oldu ki... Məni Baş prokurordan tutmuş hər kəs təbrik etdi. Hamıya təşəkkür edirəm".

Bəli, biz böyük bir təmtəraqla Azərbaycanın dövlət və ictimai-siyasi xadimi, Azərbaycan SSR Prokuroru və Azərbaycan Respublikasının Ədliyyə naziri, hüquq elmləri doktoru, eks-millət vəkili, Ədalət Partiyasının sədri İlyas Abbas oğlu İsmayılovun ömrünün 86-cı baharını qarşıladıq.

Bu 86-cı bahar və əvvəlki yubiley və doğum günləri münasibətilə İlyas İsmayılova çox sayda təbriklər ünvanlanmış, haqqında məqalələr yazılmışdı (bu barədə kitabda ayrıca bölüm var).

Biz, baharda doğulan, bir ailəyə, bir nəsilə, illər sonra bir ölkəyə oğul İ.İsmayılovun 87-ci baharını gözləyirdik...

...Keçən ilin noyabr ayında yaxın dostum uzun illər Moskva şəhərində yaşamış Yaşar Hüseynovla İlyas müəllimi ziyarət etmək qərarına gəldik. Həftənin şənbə günü zəng etdim. İlyas müəllim dedi ki, sabah İstanbula uçuram. Sevil məcbur edir ki, Türkiyənin məşhur klinikalarından birində müalicə olunum. Dörd gün sonra qayıtdı. Tez qayıtmağının səbəbini soruşduqda: "Sevilə əziyyət vermək istəmədim", - dedi.

...Etimadın vəfatından sonra Sevilin əsl azərbaycanlı qızına xas olan bütün müsbət keyfiyyətləri üzə çıxdı. O, dərdli xanım olmasına baxmayaraq, qayınatası İlyas müəllimə və qayınanası Zəkiyyə xanıma gəlin yox, qayğıkeş övlad oldu.

Bir müddətdən sonra Sevil xanım Bakıya gəldi. İlyas müəllimi Mərkəzi Klinikaya yerləşdirdi.

...İlk övlad payının - Etimadın ölümü İlyas müəllimin səhhətində çox ciddi xəstəliklərə səbəb olmuşdu. Əsasən sağ dizindəki ağrılardan şikayət edən İlyas müəllim Yanvar ayının 9-da (2025) Mərkəzi Klinikanın stasionar şöbəsində müalicəyə başladı.

Multiorqan çatışmazlığı səbəbindən komaya düşən İsmayılov 17 fevral 2025-ci ildə müalicə aldığı klinikanın reanimasiya şöbəsində bu dünyaya əbədi olaraq göz yumdu...

İlyas Abbas oğlu İsmayılov özünün istəyi ilə Nardaran qəbirstanlığında - oğlu Etimadın yanında, Onu sevənlərin - böyük bir izdihamın müşaiyəti ilə torpağa tapşırıldı....

Sevil xanımın İlyas müəllimin vəfatından sonra sosial şəbəkələrdə paylasdığı yazısını həyəcansız oxumaq mümkün deyil. Həmin yazını olduğu kimi diqqətinizə çatdırıram:

"O, mənim üçün sadəcə bir qayınata deyil, ata oldu.

Azərbaycan siyasi tarixində müstəsna yeri olan dəyərli şəxsiyyət. Uzun illər Respublika Baş prokuroru, Ədliyyə naziri, millət vəkili kimi dəyərlərinə, xalqına və hüquqa xidmət etdi.

Bir qəpik belə rüşvət almadı. Namuslu yaşadı, şərəfli yol getdi və bu gün haqqın rəhmətinə qovuşdu.

Sevimli oğlu, həyat yoldaşım Etimad ilə birlikdə məkanı cənnət olsun. Dərin hüzn və kədər içindəyəm. Allah məqamını uca etsin.

İnnə lillahi və innə ileyhi raciun.

Dostlar, dualarınızı rica edirəm..."

Şəxsiyyətinə hörmətlə yanaşdığım, əməllərinə pərəstiş etdiyim, həyat və peşə yollarımda özümə Ustad sandığım İlyas İsmayılovun ölümü barədə danışa bilməyəcəyəm!

Mənim deyə bilmədiklərim, mənim və mənim kimi minlərlə ilyassevərlərin boğazında tıxanıb qalan İlyas İsmayılov ağrısını jurnalist Elşad Eyvazlı dilə gətirməyi, yazmağı bacardı. Gəlin bu ağrını onun dilindən eşidək:

"Çox qəribədir, İlyas İsmayılov itkisi heç bir itkiyə bənzəmir.

Doğmanımı itirmisən, dostunumu itirmisən, o deyil, tanıdığın adamımı itirmisən, o da deyil.

Bəs, nədir bu?

İlyas İsmayılovun ölüm xəbəri adamı dəlib keçir. Çox qiymətli, dəyərli varlıq itirmisən kimi hisslər sənə hakim kəsilir. Bir anlıq boşluqda qalırsan.

Həyatdır, hər kəs bir gün gedəcək, ömrünü yaşamışdı, kəlmələrini dilə gətirə bilmirsən. Özündən asılı deyil.

Bu xəbəri bir nazir, baş prokuror, deputat ölümü kimi qəbul edə bilmirsən. Bu da özündən asılı deyil.

İlyas İsmayılov itkisi adama uşaqlıq illərini xatırladır. Sanki uşaqlıqdan tanımısan İlyas İsmayılovu. Hətta düşünürsən ki, o, sənin uşaqlıq dostun olub.

Niyə belə düşünürsən, axı...

Sualın cavabını tapırsan. İlyas İsmayılovda uşaq səmimiliyi vardı.

İlyas İsmayılov itkisi adamın gözündə ulu babalarını canlandırır. Elə bilirsən ki, o, sənin ulu baban olub. Düşünürsən ki, o, sənə hardasa yol göstərən olub.

Niyə belə düşünürsən, axı...

Sualın cavabını tapırsan. İlyas İsmayılovda dürüstlük, obyektivlik, gözütoxluq, ağayanalıq xarakteri vardı.




İlyas İsmayılov itkisi...

O, alına-satıla bilməyən, maddi dəyərlə ölçülə bilməyən varlıq olub.

Niyə belə düşünürsən, axı...

Sualın cavabını tapırsan, mənəvi dəyər, mənəviyyat onun üçün bütün dəyərlərdən üstün idi.

Çox qəribədir, İlyas İsmayılov itkisi heç bir itkiyə bənzəmir.

Doğmanımı itirmisən, dostunumu itirmisən, o deyil, tanıdığın adamımı itirmisən, o da deyil, bəs, nədir bu?

Sualların cavabını tapırsan.

Bu itki səmimiyyəti, dürüstlüyü, obyektivliyi, gözütoxluğu, ağayanalığı, mənəvi dəyərləri özündə cəmləşdirən BİR ŞƏXSİYYƏT İTKİSİDİR.

Sağlığında rəhmət qazanmış adam, ruhun şad olsun!"

### *Söz ardı*

Etiraf edim ki, bütün yazılarımda son nöqtəni qoyandan sonra qəribə duyğular keçirirəm. Çünki qələmə aldığım bu yazılarda baş vermiş hadisələri təzədən yaşamalı oluram. İlyas İsmayılov dünyasına yüz günlük səyahətim də sona çatır. Həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, bu böyük insana mənəvi borcumun, bəlkə də, bir hissəsini qaytara bilirəm. Kədərlənirəm ona görə ki, İlyas İsmayılov dünyasında kifayət qədər, necə deyərlər, gəzib dolaşmağa, bütövlükdə dərk etməyə vaxtım və macalım olmadı...

1978-ci ildən tanıyırdım İlyas müəllimi. Onunla bağlı acılı-şirinli xatirələrlə doludur qəlbim...

İlyas müəllimin həyatının ən ağır günündə onun yanında başqaları ilə birlikdə mən də var idim. Oğlu Etimadın cənazəsi həyətə gətiriləndə həyəcanlı və qorxu içində idim. Qorxurdum ki, kölgəsində minlərlə insanın, necə deyərlər, sərinlik və sığınacaq tapdığı, beli bükülmüş bu nəhəng palıd taleyin sərt sınağına tab gətirməz. Bu anda əlimdən bir şey gəlməsə də, bütün qəlbimlə ona kömək etməyə, dayaq durmağa hazır idim. Lakin, üzünə dünyanın kədəri qonmuş İlyas Abbas oğlu dözdü. Vüqarını sındırmadı. Çünki, o, dərk edirdi ki, bu vüqar təkcə onun deyil, bütün ilyassevərlərindir.

Ömrünün bu çətin günlərində ömür-gün yoldaşı Zəkiyyə xanıma ata Kennedi Jozefin həyat yoldaşı Rozaya dediklərini xatırlatmışdı.

Oğlanları Amerika Birləşmiş Ştatlarının 35-ci prezidenti Con Kennedinin 1963-cü ildə, Amerikanın Baş prokuroru olmuş Robertin 1968-ci ildə öldürülməsindən sonra Roza Kennedi ərinə deyir:

- Bundan sonra bizim yaşamağa haqqımız yoxdur.

Jozef Kennedi cavabında:

- Nəvələrimiz üçün yaşamalıyıq, - deyir.

Jozef Kennedi bir ildən sonra dünyasını dəyişsə də, Roza Kennedi uzun ömür sürdü - 1995-ci ildə 105 yaşında vəfat etdi.

Azərbaycanda İlyas İsmayılovun həm siyasi, həm də partiya sədri kimi fəaliyyəti zaman-zaman müzakirə mövzusu olub. Özünün elmi, siyasi mövzuda qələmə aldığı məqalələrə və yaxud barəsində yazılanlara onlarla insan müsbət fikir bildirir, onun ədalətindən və mərdliyindən söhbət açırdılar.

İlyas ismayılov şəxsiyyətinin cəlbediciliyi onunla şərtlənir ki, o, bütün məsələlərə ədalət prizmasından, ümumbəşəri və ictimai maraq bucağından baxırdı. Sokratın təbirincə desək, İlyas müəllim şüurlu həyatında "səbr və nəzakətlə dinləmiş, ağılla cavab vermiş, soyuqqanlı düşünmüş və qərəzə yol vermədən qərar çıxartmışdır."

...Ədəbi əsərlərdə, bədii yaradıcılıqda qəhrəmanların həyatda prototipi olur. Süleyman Rəhimovun "Mehman" povestini oxuyarkən və sonralar bu əsər əsasında ekranlaşdırılmış "Qanun naminə" filminə baxarkən, Mehmana oxşamaq istəmişəm.

Onun kimi cəsarətli, qorxmaz və qanunları hər şeydən uca tutan insan axtarışında olmuşam. İlyas müəllimi yaxından tanıyıb, onun daxili aləminə nüfuz edəndən sonra gizlətmirəm - xəyali Mehmana deyil, canlı İlyas Abbas oğluna oxşamaq istəmişəm.

Çünki Mehman obrazı İlyas müəllimlə müqayisədə mənə olduqca sönük görünürdü.

Mahatma Qandinin bir kəlamını yada salmaq istəyirəm: "Sevgi heç bir zaman istəməz. O, daim verir."

Bəli, İlyas müəllim heç bir vaxt təmənna güdməyib, hamıya əl uzadıb, kömək edib, xəyal etdiyi arzulara qovuşdurub insanları. O, haqsız olub hamının hörmətini qazanmaqdansa, ədalətli olub tənha qalmağı üstün tutub.

Məhz bu səbəbdən İlyas müəllimi ixtiyar çağında müdrik bir insan olaraq V.Hüqonun "Səfillər"indəki Jan Valjana oxşadardım.

Corc Cordaq adlı xristian bir yazar Həzrət Əli (ə) haqqında yazdığı "İnsan ədalətinin səsi" adlı tədqiqat əsərində qeyd edir: "Mən Əlini İsadan üstün tutmaq istədim, dini təəssübkeşliyim buna imkan vermədi. İsanı Əlidən üstün tutmağı isə vicdanım rəva görmədi". Yazar bu tərəddüdünün səbəbini Həzrət Əlinin ədaləti və Allaha bağlılığı ilə əsaslandıraraq, deyir: "Həzrət Əli ədalətinin çoxluğu ucbatından ibadət mehrabında şəhid oldu".

Mən hər dəfə İlyas müəllim haqqında fikirləşəndə Həzrət Əli(ə) haqqında deyilən bu fikirləri xatırlayıram. Çünki İlyas müəllimdə də ədalət hissi həddindən artıq güclü olub və onun cəmiyyətimizdə layiq olduğu yerdə olmaması da, zaman-zaman qərəzli ittihamlarla qarşılaşması da, məncə, məhz bu məziyyətindən irəli gəlirdi. İlyas müəllimdə isə bu qabiliyyət fitri idi.

Gənclik illərindən dostluq münasibətində olduğum böyük yazarlarımızdan biri mənə sual etdi ki, İlyas müəllimdən söhbət düşəndə həmişə ağızdolusu tərifləyirsən. Özün dediyin kimi, o qədər kimsəsizlərə, arxasızlara, yetimlərə dayaq olub İlyas müəllim. Heç onlardan bu tərifləri eşitmirik.

Mən dostuma bildirdim ki, böyük Fransız yazıçısı və sosialisti Anri Barbüss N.Ostrovskinin "Polad necə bərkidi" əsərini oxuduqdan sonra deyir: "Adam bu əsəri oxuyarkən insan olmağı ilə fəxr edir". Mən də İlyas müəllimin rəhbərliyi altında işləyərkən, prokuror olmağımla fəxr etmişəm, - dedim.

***P.S.* Unudulmaz Etimadın vəfalı ömür-gün yoldaşı, İlyas müəllimin gəlini, tanınmış telejurnalist və publisist, ölkəmizi qardaş Türkiyədə ləyaqətlə təmsil edən Sevil xanım Nuriyevanın "Öz qızım olsaydı, bu qədər sevərdim" başlıqlı yazısında oxuyuruq: "Arzu edirəm ki,oğlum İlyas İsmayılov dədəsi (babası) İlyas İsmayılov kimi mərd, şərəfli ömür yolu getsin. Babası kimi ədalətli olsun. Onun kimi şərəfli mərd kişi olsun... Mən əlimdən gələni edəcəyəm ki, oğlumda bunları aşılaya bilim."**

Mən yenə Corc Cordaqa müraciət edirəm. O, yazır: "Ey dünya, nə olardı ki, bütün qüdrət və gücünü işə salıb, həmin ağılla, həmin dillə, həmin qəlblə, həmin Zülfüqarla aləmə yeni bir Əli bağışlayaydın!"

Gəlin, biz də hamılıqla Uca Allaha yalvaraq ki, balaca İlyas adını daşıdığı babası kimi mərd və cəsur, ədalətli və hünərli, ləyaqətli və şərəfli, vətənsevər bir kişi, Azərbaycanımıza bəxş edilmiş yeni bir İlyas İsmayılov olsun.

AMİN!

## "...Və sən"in bədii çəkisi və özəlliyi

(əvvəli 10-cu səhifədə)

*Əbülfətin ruh kasası daşanda,*
*Sevinəcək daşdıran da, daşan da!..*
*Bu mənzərə sərhədləri aşanda -*
*Süslənəcək çiçəkdə söz, güldə söz!..*

Kitabda şairin ictimai məzmunlu, yaxınlarına, dostlarına, hətta cansız əşyalara, psixoloji yaşantılara müraciətlə yazdığı şeirlərə də təsadüf olunur. Lakin haqqında bəhs etdiyimiz şeirləri kifayət edir ki, Əbülfət Mədətoğlunu dərin poetik düşüncəyə, ədəbi-nəzəri təcrübəyə malik orijinal bir üslub sərgiləyən şair kimi qəbul edək. Adlarını çəkmədiyimiz bir sıra şeirləri də fikrimizi təsdiqləyə bilər. Qənaətlərimizi daha əsaslı etmək üçün onun məcazlar aləmindən, onların metaforik təbiətindən xəbər verən izafət və birləşmələrdən ibarət nümunələri sıralamağı da ən sonda məqsədəuyğun hesab edirik. Həmin nümunələr istedadlı, tanınmış bir şairin könül, ruh çağlayışlarının tərcümanı kimi tələbkar oxucuların da ürəyincə olacaqdır.

"Gecə üzə tutulan ələkdi", "sevgidəki işığa diz üstə yıxılmaq", "köhnə qarmaqlarla ürək çərtmək", "ruha sözdən kündə yapmaq", "göz qırpmağın qorxusunu yaşayan kirpiklərdə sıralanan tumurcuq", "bənd-bərəni axıdan ilməsi qaçan xəyal", "səssiz göynəyən göz kökü", "gözlərin dibində qürub edən səhər", "nimdaş ömrün təklənməsi", "sevgiyə dilmanclıq edən dualı dil", "ruh oxşayan sözlü daş", "saçı ağarmış dualar", "kəndiri kəsilmiş anlar", "budanmış ümid", "gözə pərdə çəkən kül", "sevgi hıçqırtısını ovutmağa gecikən ləpələr", "kəsir kimi bir yarpaqlıq əsən səs", "boğulmuş səsin küsməsi", "dağın zirvəsində Günəşin batdığı yol", "boynunda ulduz düzümü", "ətəkləri yer süpürən duman", "ruhun tökülən qanı", "mənim məndən alınması bir halal eşqin rüsumudur", "dərdə şərik alın yazısı", "kölgəsini sinəyə salan saç", "saç kölgəsində hörüklənən ovqat", "göz yaşı sevinc", "kədər ayaq", "qəhər ulduz", "yağan qarın dənələrin saymaq", "yeni ilin yubanmış sovqatını misraların arasına yaymaq", "dodaqda qəlpələnən ağlar səs", "qədərə dözüb dincə qoyulan səs", "əlini dizinə çırpıb ağlayan səs", "könülə toxunan qəm naxışları", "geyilən qəmin darlığı tüstülənən səsin ahıdır", "günü xəlbir edən kədər", "baxışın mükəmməl bir xitabdır", "zaman özü zərgər gözlü dərzidi", "dizlərin gücünə şərik çiyin", "əkdiyini üşənmədən biçib yığan həyat", "ürəkdə dilənən ayaq və qolu sınmış ümid", "divarı bezmiş, tavanı çökmüş ahın ağırlığı", "yaxasını düymələyən xan bulud", "yanağa səssiz yağan sevgi cizgiləri", "bir qəlb olan iki dodaq" və s. onlarla poetik uyuşmalar, bədii təyin və epitetlər, xəyal tərpədən assosiativ bənzəyişlər, paralel seqmentlər Əbülfət Mədətoğlunun mənəvi dünyasının nurlu görüntüləridir, şair obrazının diqqətçəkən cizgiləridir.

Nəhayət, Ə. Mədətoğlu poeziyasına qismən də olsa iz salmış bir nüansı da xatırlamaq yerinə düşər. Onun bəzi şeirləri poetik forma, məzmun və fikrin formaya yönəli cəhəti baxımından sonetləri xatırladır. "Anmaq istəyəndə", "Sərmişəm ruhumu ay işığına", "Adsız duyğular", "Ömür mənzərəsi", "Ruhumu çətir etdim" və s. bu qəbildəndir. Bütün bunlarla yanaşı, texniki sapıntılar, bəzi məqamlarda assosiasiyaların məntiqsizliyi gözdən yayınmır.

**Biz Əbülfət Mədətoğlu qələminə inanırıq. Arzulardıq ki, əsərlərinin mövzu meridianları genişlənsin, ictimai-fəlsəfi və bəşəri ideyalı yeni əsərləri ilə oxucularını bir daha sevindirsin. Onun poetik energiyası, bədii düşüncəsinin üfüqləri fəth etmə qabiliyyəti buna tam imkan verir.**

# Şəkidən Naxçıvana baxış...

## ƏZİZ QARDAŞIM HÜSEYN ƏSGƏROVA

**Bir neçə aydır müasir texniki imkanlar sayəsində mən Şəkidə Naxçıvan televiziyasının verlişlərinə baxıram. 13 dekabr 2025-ci il tarixdə Naxçıvan televiziyasında efirə gedən "Bu da bir ömürdür" sənədli oçerk məni çox təsirləndirdi. Bu verlişə heç gözümü qırpmadan axıra kimi baxdım. Ona görə ki, həmin verliş mənim əziz dostum, qardaşım Hüseyn Əsgərova həsr edilmişdi. 1972-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakultəsində oxuyanda tələbə yataqxanasında mən Hüseynlə bir otaqda qalmışam. Bizim dostluğumuz həmin illərdən indiyədək davam edir.**



Mən Hüseynin fitri istedadının şahidiyəm. O, hər bir hadisəyə, yeniliyə və geriliyə Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadə sayağı baxırdı. Bir-iki gün sonra gördüm Hüseyn maraqlı bir yazı yazıb. Həmin yazı ya fakultəmizin divar qəzetində, ya da fakultəmizdə nəşr edilən "Jurlanilist"qəzetində , sonralar hələ tələbə olanda onun yazıları respublikanın nüfuzlu qəzetlərində çap edilirdi. Hüseyni yazısı çıxan divar qəzetini və başqa mətbuat orqanlarını fakultə tələbələrindən başqa müəllimlərimiz və dosentlər, professorlar da həvəslə oxuyurdular. Dərs vaxtı hörmətli müəllimlərimizdən dekanımız Şirməmməd Hüseynov, yazıçı - professorlar Mircəlal Paşayev, Qulu Xəlilov, Famil Mehdi, Əzizə Cəfərzadə, Şamil Qurbanov, Nəsir İmanquliyev və başqaları Hüseynin yazılarındakı mövzu aktuallığından və onun fikirlərinin ifadəsindəki fərqli üslubdan həvəslə danışırdılar.Bu böyük şəxsiyyətlər Hüseynin yaradıcılığını yüksək qiymətləndirir, bu istiqamətdə ona uğurlar arzulayır və hərdən də öz tövsiyyələrini verirdilər.

Hər şeydən əvvəl mən Naxçıvan televiziyasının rəhbərliyinə və "Bu da bir ömürdür" rubrikasında çalışan hər kəsə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Onlar Hüseyn Əsgərovun 70 illik yubileyinə çox dəyərli bir verliş hazırlamışdılar. Mən bu verlişi çox bəyəndim və Hüseyn Əsgərov haqqında səmimi sözlər deyən hər kəsə Hüseyn müəllimin yaxın dostu kimi öz təşəkkürümü bildirirəm.

Hüseyn Əsgərovun jurnalistlikdən çox vətənpərvərlik, millilik xüsusiyyətlərindən də mən danışmaq istəyirəm. Belə ki, mən və mənim kimi çoxları vətənpərvərliyin, milli mentaliteti, adət-ənənələrə sadiqliyi Hüseyndən öyrənmişik.

Tələbəlik illərindən indi şair, professor kimi tanınan Adil Cəmil, Ucaqlı mərhum Ələkbər Hüseynov, Naxçıvanlı Hüseyn Əsgərov və mən bir otaqda qalırdıq. Dünyada azərbaycanlıların nə qədər olması, itirilmiş torpaqlar, Azərbaycan hökmdarlarının tarixi səhvləri, milli mentalitet, tarixi abidələrin qorunmasının vacibliyi, özümüzü dərk etmək, millətimizi dünyaya tanıtmaq mövzularında həmişə otaq yoldaşlarımla maraqlı söhbətlərimiz olardı. Belə söhbətlərlə məndə vətənpərvərlik hislərinin formalaşmasında Hüseyn daha böyük rol oynamışdır. Bizim bu mövzularda çox uzun və həmişə maraqlı diaqloqlarımız olurdu. Hər bir azərbaycanlıya Şimal-Cənub həsrətini andıran Şəhriyarın "Heydər babaya salam" şeirini ilk dəfə Hüseyndən eşitmişdim. Mən də Bəxtiyar Vahabzadənin Gülüstan poemasını ona və bütün tələbə yoldaşlarıma paylamışdım.

"1973-cü ilin yazında Azərbaycan Dövlət Unversitetinin Jurnalistika fakultəsində təhsil alan əsasən bizim kursun tələbələri Novruz bayramını qeyd etmək fikrinə düşdük. Müəllimlərimizdən yazıçı - professorlar Qulu Xəlilovu, Mir Cəlal Paşayevi, Əzizə xanım Cəfərzadəni və fəlsəfə müəllimimiz Qəmbər Əsgərovu da bu tədbirə dəvət etdik. Görüş yerimiz Fəxri Xiyaban oldu. Dəvət etdiyimiz qonaqların hamısı tədbirdə iştirak etdi. Əlimizdə gül - çiçək dəstələri var idi. Yataqxanada qızlar səməni yetişdirib gətirmişdilər. Fəxri Xiyabanda Şıxəli Qurbanovun, Həsən Bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Üzeyir bəy Hacıbəyovun və başqa milli dəyərləri yüksək tutan şəxsiyyətlərin məzarlarını ziyarət etdik. Hər məzar başında 10-15 dəqiqəlik çıxışlar oldu. Müəllimlərimiz də burada çıxışlar etdilər. Tədbir başa çatdıqdan sonra heç bir insident baş vermədi.1974-cü ilin Novruz bayramı da maraqlı oldu. Amma bu əvvəlki ildəkindən daha geniş və əhatəli idi. 1975-ci ildə hazırlıq işlərinə daha erkən başlamışdıq. Son anda bunun xəbəri yuxarılara gedib çatmışdı. Universitetin rektoru Faiq Bağırzadə özü qızlar yataqxanasına gedib otaqları bir-bir gəzib nə qədər səməni var idisə hamısını pəncərədən çölə atdırmışdı. O gedəndən sonra axşam qaranlıq düşəndə biz həyətə atılmış səmənilər yığıb təmir - bərpa işləri aparıb sabaha hazırladıq. Sabahı gün müəyyən edilmiş görüş yerlərini və vaxtı dəyişdik. Bir neçə dəstələrlə yenə fəxri xiyabanda görüşdük. Bu dəfə tələbə və müəllimlərin sayı ötən ildəkindən 10-15 dəfə çox idi. Təxminən 350-400 nəfər olardı. Həm də bu dəfə jurnalistika fakultəsinin tələbələrindən başqa filologiya, tarix fakultələrindən və başqa ali məktəblərdən də gələn qonaqlar var idi. Tədbirdə Naxçıvanlı Hüseyn Əsgərov və bizdən aşağı kursda oxuyan bir qız (adını unutmuşam) aparıcılıq edirdi. Müəllimlərimizdən ötən illərdə iştirak edənlərdən bir neçəsi gəlməmişdi. Sonralar bizə məlum oldu ki, müəllimlərimizi öz evlərində saxlayıblar, onlara küçəyə çıxmağa icazə verməyiblər. Ətrafımızda mülki geyimli tanımadığımız adamlar gəzişirdi. Biz yenə Şıxəli Qurbanovun məzarından başladıq. Ziyarət etdiyimiz məzarların və çıxış edənlərin sayı artmışdı. Bizə fəlsəfədən dərs deyən Qənbər Əsgərovun, tələbə yoldaşlarımızdan mərhum Qəzənfər Rüstəmovun, Ağamalı Sadiq Əfəndinin Üzeyir bəy Hacıbəyovun məzarı yanında saz çalıb türk ləhcəsində oxuması, Mehman Cavadoğlunun, Aqil Abbasın, Adil Cəmilin, Şəmsəddin Şəbiyevin, Adil İrşadoğlunun, Şərif Kərimovun, Yaşar Vəliyevin, Flora Xəlilzadənin, Amalya Məhərrəmovanın və başqalarının milli ruhlu, məntiqli, məzmunlu çıxışları uzun müddət yaddaşlarda qaldı.Sovet hakimiyyəti devrildikdən sonra, müstəqillik illərində Azərbaycanın bir çox mətbuat orqanlarında o cümlədən tələbə yoldaşımız Ağamalı Sadiq Əfəndinin redaktoru olduğu "Müxalifət" qəzetində1996-cı ildə bu mövzuda yazılar dərc edilib.

Fəxri Xiyabanda Novruz bayramı adı ilə keçirilən tədbirdən sonra təkcə bizim fakultədən 40 nəfərə qədər tələbəni ayrı - ayrı yerlərdə saxlayıb Dövlət Təhlükəsizliyi Komitəsinin qarşısındakı Djerziniski adına kuluba gətirmişdilər. Burada da hərəni bir otaqda saxlayıb sorğu - sual etmişdilər. Iş elə təşkil edilmişdi ki, tələbələrin biri - birindən xəbəri yox idi. Bizə müxtəlif suallar verilir və izahatlar yazdırırdılar. Təxminən gecə saat 1-dən sonra birdən - birə vəziyyət dəyişdi. Tələblərin hamısının alınmış sənədlərini geri qaytardılar və əvvəlkindən fərqli olaraq mülayim rəftarla bizi buraxdılar. Dedilər ki, burada saxlanılmağınızı heç yerdə heç kimə deməyin.

Təbii ki, jurnalistika fakultəsi tələbələrinin saxlanılması barədə bizim dekanımız Şirməmməd Hüseynovun məlumatı olmuşdu. Bir neçə gün sonra Şirməmməd müəllim tədbirin təşkilatçıları olan Əjdər Kazımovu, Hüseyn Əsgərovu, Ağamalı Əfəndiyevi, Qəzənfər Rüstəmovu və məni yanına çağırdı. O, söhbəti həmin hadisə üzərinə gətirdi. Və dedi ki, həmin məsələ ilə əlaqədar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevə gecə saat 1 radələrində bu barədə məruzə edilib və o ciddi tapşırıq verib ki, təcili olaraq tələbələri buraxın. Onlara mənim tövsiyyəmi çatdırın ki, onlar tələbədirlər. Onların indi ən vacib işi dərsləri ilə məşğul olmaqdır və bilsinlər ki, Azərbyacanın gələcəyi, sürətli inkişafı, milli mentaliteti, mənəvi dəyərləri haqqında düşünən insanlar var və mən buradayam. Hər işin öz vaxtı var. Eşitdiniz bala,gedin dərsinizi oxuyun. Bir daha belə işlər olmasın. Biz Şirməmməd müəlimin kabinetindən çıxıb küçədə söhbət edəndə Hüseyn gülə-gülə demişdi:

- Mən indi Azərbaycanın səmasında parlayan qeyri-adi işıq görürəm !

Neçə illər sonra biz Bakıda görüşəndə Hüseyn mənə danışdı ki, Ulu öndər, Moskvadan qayıdandan sonra Naxçıvanda onunla tez-tez görüşürdüm. Dedi, o vaxt mən Naxçıvan televiziyasında ictimai-siyasi verlişlərin və xəbərlərin aparıcı jurnalisti idim. Heydər Əliyevlə demək olar ki, hər gün görüşürdük. Biz çox səmimi söhbətlər edirdik. Hər görüşdən sonra məndə Ulu Öndərə inam və sevgi artırdı. O ictimaiyyətlə tez - tez görüşür, şəhərdə,bazarda sərbəst gəzirdi. Mən də fürsətdən istifadə edib sadə insanlarla onun görüşlərini, toplantılardakı çıxışlarını televiziya vasitəsilə daha geniş ayditoriyaya çatdırırdım. Səmimi görüşlərin birində Ulu Öndərə dedim ki, 1975-ci ildən mənim və bir çox tələbə yoldaşlarımın sizə təşəkkür etmək borcumuz var. İcazə verin gec olsa da yoldaşlarımın adından və özümün sizə çox böyük təşəkkürlərimizi çatdırım.

Soruşdu ki, nəyə görə?

Mən həmin il Novruz bayramında başımıza gələnləri Ulu Öndərə danışdım. Heydər Əliyev adəti üzrə məni çox diqqətlə və axıra qədər dinlədi. Və sonra Şirməmməd müəllimin bizə dediklərini təsdiq etdi. Bu fikirin təsdiqi bizdə Azərbyacanın uğurlu və xoşbəxt gələcəyinə inamı daha da artırmışdı. Allahdan Ulu öndərə sonsuz rəhmətlər diləyirik.

Fədakar jurnalist, gözəl insan, səmimi dost, millətin böyük ziyalısı Hüseyn Əsgərovu daha yaxından tanımaq üçün onun kitablarını oxumaq kifayətdir.

**Mən əziz dostumun, mehriban qardaşımın dünyaya gəlməsinin 70 illiyi münasibətilə onu bir daha təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzulayıram.**

**Çingiz Nağıyev,**
**"Qızıl qələm" mükafatı laureatı**

# POEZİYA... POEZİYA...



*Arzu Nehrəmli,*
*Naxçıvan*

## TƏLƏSİRƏM

Hələ də bilmirəm ömrün sonuna,
Mən niyə bu qədər çox tələsirəm.
Yaşamaq bu qədər əzablı imiş,
Yoxsa qalmamışdı vaxt tələsirəm.

Hələdə içimdə nisgilim yatır,
Günəş avazıyıb , buludlar qatı.
Dördnala çapırdı nahaqqın atı,
Ortada qalmışdı haqq tələsirəm.

Bəlkə də bəndiydim himə, çatmışam,
Bəlkə də imana, dinə, çatmışam...
Arzuyam, yüyürüb sənə çatmışam,
Cənnət qapısına bax, tələsirəm.

## SABAHIN XEYİR ÖMRÜM

Sabahın xeyir, ömrüm!
Ayağı daşlı, başı savaşlı,
yaşından yaşlı ömrüm,
Coşqun, təlaşlı ömrüm.

Bir xoşbəxt qadının
şükründən ayağı yer alıb,
yaxasından tutub bərk-bərk,
Günü günə calamaqla edib ərk.

Qazandın, ömrüm!
Bir günün də mübarək!
Bu ötən səhərimdi,
gecən xeyirə qalsın!
Sabaha Allah kərimdir.



*Sevinc Qərib,*
*Laçın*

## GEDİRƏM KÖNLÜYALIN...

Yenə yollar görünür sən olmayan şəhərə,
Əllərinin həsrətin şaxtada dondururam.
Gözümdəki buludu yem edirəm qəhərə,
Bu sərçə ürəyimi ovcuma qondururam.

Dualar göndərirəm sevginin Allahına,
Ayrılığın ömrünü bir az gödək eləsin.
Qaranlığa əsirdi hər günüm, vallah, inan,
Az qalır ki, öz əlim özümü kötükləsin.

Aydınlığa çıxaram zülməti pusa bilsəm,
Gəncliyinə susayıb qocaltdığım o qız da.
Yaşayardım bəlkə də içimdə susa bilsəm,
Demədiyim nəsnələr boylanır ağ kağızdan.

Gedirəm könlüyalın, ruhum hicran təlaşlı,
Qorxuları yenməyə tab gəzirəm özümdə.
Hardan əsdi bu külək, ömrüm qəmə bulaşdı,
Gün darayan bəxtimi dərd gətirdi gözümdən.

Ağ bayraq qaldırmağa ruhumdan ar edirəm,
Adıma bürünmüşəm əyilmərəm kədərə.
Kif basmış arzuları əlçim-əlçim didirəm,
Yeni ümid əyirib don hörürəm qədərə.

## BİR QARA ƏL OYNAYIR SEVİNCİMİN İÇİNDƏ

Ayrılıqdan vüsala salınıb bu körpülər,
Eh... hələ də uzaqlar yetimlik çəkir orda.
Qorxuram bu yolların etibarı qırıla,
Həsrət yerin bərkidir, təzə ev tikir burda...

Körpülərin tağları qırıq bəndə söykənib,
Bir qara əl oynayır sevincimin içində.
Gün təzə boylanırdı duman özün yetirdi,
Yenə yollar üşüyür yiyəsizlik biçimdə.

Bir talesiz yurd orda, üstü kədər örtüklü,
Bəxt güzgüsü çatlamış gəlin ömrüdü ömrü.
Çırağının nefti yox, suyu başdan bulanıb,
Ocağı közsüz qalıb, oğurlanıb kömürü.

Şeytan quyruq bulayır tüstüsüz bacasında,
Qapısında iblisin nökərləri yallanır.
İlahi göydən baxıb nə düşünür görəsən, -
O yurdun adamları yenə nəyə aldanır?!!

Yenə savaş oxuyur meşələrdən gələn səs,
Səbri daha dar gəlir bu torpağın əyninə.
Ağaclar qulağını söykəyib qayalara,
Güllələrin səsini hakk eləyir beyninə...



*Aida ADIGÖZƏL,*
*Kürdəmir*

## ÖLÜMDƏN SONRASI

Bilirsən, necə olur gələnlərin getməsi?
Gəl, öyrədəcəm sənə gecənin sükut səsin...
İçində sınan şüşə, qanadan qırıqların,
üstünə uçan divar, qapı-pəncərələrin.

Gəl, öyrədəcəm sənə özünlə danışmağı,
yumursan gözlərini, gözünün içində O!
Haransa ağrı verir, əlinlə axtarırsan,
hə, sən demə buraymış, sancan zəhrimar o sol...

Sonra... sonrası heç nə! Üzündə acı gülüş,
bir azca göz yaşları, divara baş döymələr.
- "Axmağın yekəsisən, dəlinin də zır təki", -
özünə yağdırdığın ən yeddiqat söymələr.

Beləcə keçir günlər, beləcə sağalırsan,
öyrəşirsən hər gecə daş-divara dönməyi.
Üstündən keçir gedir milyon kainat ili,
göylərdən öyrənirsən ulduz kimi sönməyi.

Bax, yeri belə olur gələnlərin getməsi.
Sönmüş vulkan ocağı, sunami yumuş şəhər...
Üst-üstə qalaqlanmış çürümüş xatirələr,
zəlzələlər uçurmuş minillk sərdabələr...

## DURNAM

Qanadı qırılmış yaralı durnam
Məndən uzaqlarda, oralı durnam.
Səndən xəbərim yox xeyli zamandır,
ümid yox! Kimlərə soralı durnam.

Deyir yaraları sagaldır zaman,
qalmadı ovunum təsəlli filan.
Yolun gedərgəlməz, dönüşün yalan,
gözüm yollarında saralı durnam.

Vidalar doğulur ayrılıqlardan,
vidalar yoğrulur göz yaşlarından.
Gedişin ömrümü dəyişdi yaman,
günüm gecəm təki qaralı durnam.

Gözüm qara bulud, icimdə tufan,
qışım başlamamış haqladı boran.
Ocaqsız yanıram atəşdə aman,
saçımı küləklər daralı durnam.



*Ay Bəniz Əliyar,*
*Quba*

Bir məram yüklənir ağaca, suya,
Adi qanqal belə əlacsız bitmir.
Heç nə elə-belə gəlmir dünyaya,
Heç nə elə-belə dünyadan getmir.

Dəyər verənlərə şükür, çox şükür,
Kəramət sahibi Tanrıdır yenə.
Ona da sirr deyil ürəyimdəki,
Şair doğulmağım lütfdür mənə.

Hələ üzülməyib eşq yer üzündən,
O səbəb, dünyanın varoluşuna.
Əgər sevgi varsa, demək, mən varam,
Demək, yaşamıram boşu-boşuna.

Sağalda bilirəm könül yaramı,
Demək, ruhumdadır Tanrının eşqi.
Hər kəsin dünyaya gəliş məramı,
Xeyirdən ibarət olaydı, keşkə...



*Xuraman HÜSEYNZADƏ,*
*Beyləqan*

## YORĞUN KÜLƏK

Külək səbirsiz - səbirsiz elə əsir...
İllərlə qürbətdə can çürüdən
qəribdi sanki
evinə çatmağa tələsir.
Hardasa bir ağacı ayırır
torpağın bətnindən,
çiçək-çiçək ümidləri
qırılır ağacın...
Bir-birinə calanmış, yamanmış
elektrik naqillərinin
qırılıb başına düşəcəyindən qorxur
sağ ayağını
indi düşmənin at oynatdığı yurda
əmanət edən Səməd kişi...
Düşmən gülləsindən qoruduğu canı
nazik bir telə qurban verəcək?
Bir ayağa qalıb ümidi
onu da
əsən yelə qurban verəcək?
Dərsini bilməyən uşaq kimi
tir-tir əsir külək...
Kimdən qorxur,
nədən qorxur?
Qorxduqca
daha da qorxulu olur...
Küləyin şiddəti artdıqca
artır həyəcanı, artır təşvişi,
qoltuq agacıyla asfaltı döyə-döyə
evinə tələsir Səməd kişi.



*Şəfəq Vilayətqızı,*
*Gəncə*

## UNUDAM

Könlümü ram etdi bir vəfasız yar,
Sığmadım dünyaya, oldu mənə dar,
Qəlbimə gömülmüş xatirəsi var,
Gərək ürəyimi kəsəm, unudam.

Bu eşqin qədrini biləmmədik biz,
Bağlanıb qəlbimə gedən cığır, iz
Gərək yaddaşımı süpürəm təmiz,
Dəli külək kimi əsəm, unudam.

Yəqin ki, sevəndə olmuşam naşı,
Mamır bağlayıbdı gözümün yaşı,
Söykəyib bağrıma qara bir daşı,
Hər kəsdən, hər şeydən küsəm, unudam.

Şəfəqəm, qələm ver sirrimi yazım,
Dolaşıq hislərin qoynunda azım,
Bəlkə unutmağa bir ömür lazım...
Yalan olar sözdə desəm, "unudam"...!

## ÇIRAQLA AXTAR MƏNİ

Qağayının dənizdən ovladığı balığam,
Körpənin gözlərində gülümsəyən qılığam,
İnsandan bircə çimdik dopub qalmış qalığam,
Çıraqla axtar məni...

Qıfıllanmış dodağın donub qalmış sözüyəm,
Ovçu nişan aldığı bir durnanın gözüyəm,
Həqiqət carçısıyam düzün düzdə özüyəm,
Çıraqla axtar məni...

Hörümçək arzuları gözündə tor bağlayan,
Dəli Kürtək lal axan öz içindən çağlayan,
Mən bir gözləri koram, eli üçün ağlayan,
Çıraqla axtar məni...

Bir xəyallar bir də ki, ümüdüm var yanımda,
Həm həsrət gizlətmişəm, həm də vəfa canımda,
Dustağam xeyli vaxtdır özüm öz zindanımda,
Çıraqla axtar məni...

Yerimək öyrənməmiş qaçmaq öyrənir yalan,
Bəzi "insancıqlardı" dünyanı gözdən salan,
Ümüd olma günəşə gözün qamaşar falan,
Çıraqla axtar məni...

## DARIXARSAN BİLMƏRƏM...

Hicran arxına dönüb üzdə yaş qoyduğun yer,
Xarabalıq olubdu eşqə daş qoyduğun yer,
Sızıldayır dizimdə bir vaxt baş qoyduğun yer,
Darıxıbmı soruş gör başın dizimdən ötrü?

Qoşa addımlar ilə əzdirərdik yolları,
Özümüzlə hər yerə gəzdirərdik yolları,
Gecə, gündüz deməzdik bezdirərdik yolları,
Darıxıbmı küçələr indi izimdən ötrü?

Hislərinə aldanıb eşqə düşmüşdün yaman,
Məndən qaçsan da mənə tuş gəlmişdin o zaman,
Gözümdən gözlərini çəkməyirdin bircə an,
Darıxıbmı gözlərin soruş gözümdən ötrü?

Yatmış xatirələrdə keçmişin nəşəsi var,
Sevincin qulağında gülüşünün səsi var,
Bəlkə də ürəyində sevilmək həvəsi var,
Darıxarsan bilmərəm, özün özümdən ötrü...!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 49 (2472) 26 dekabr 2025-ci il



# DÜNYA AZƏRBAYCANI TANIYIR



**Bu gün dünyada çox böyük proseslər, inkişaf və tərəqqi gedir. Bu proseslərin önündə heç şübhəsiz ki, hər hansı bir ölkə inkişaf etməyi, dirçəlişi ön plana çəkir. Təbii ki, hər bir ölkə inkişaf etmək üçün ilk növbədə iqtisadi sahədə çox böyük islahatlar aparmalı, yeniliklər eləməli və çıxış yolları axtarmalıdır. Birmənalı olaraq deyə bilərik ki, bu gün dünyada böyük və kiçik dövlət anlayışı yoxdur. Çünki bu gün dünyada əsas iqtisadi cəhətdən güclü və zəif dövlətlər var. Bütün bunlar onu deməyə əsas verir ki, hər bir ölkə dünyaya inteqrasiya olunmasını prioritet vəzifə kimi qarşıya qoyur.**

Azərbaycan isə son 30 ildə deyə bilərik ki, çox böyük inkişafa, irəliləyişə nail olub. O da heç kimə sirr deyil ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra 30 ildən çox torpaqları, ərazisi işğal altında olub. Eyni zamanda bu böyük problemlə yanaşı ölkə iqtisadiyyatında da bir çökmə vardı. Yəni Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gələndə dövlət büdcəsində elə bir vəsait yox idi. Daha doğrusu, bu vəsaiti əvvəlki hakimiyyətin vəzifəli şəxsləri sağa-sola xərcləmiş və büdcəni dağıtmışdılar. El dilində demiş olsaq, ölkə quru yurdda qalmışdı. Ulu Öndər Heydər Əliyev də quru yurda gəldi və burda qısa zaman kəsiyində çox böyük möhtəşəm işlərə imza atdı.

Bir yandan torpaqlarımızın işğal altında olması, digər tərəfdən də iqtisadiyyatın yaman günə düşməsi dövlət başçısını çox çətin vəziyyətdə qoyurdu. Böyük siyasi lider ermənilərlə atəşkəsə nail olandan sonra ölkənin iqtisadi qüdrətinin inkişaf etdirilməsi üçün çox böyük iqtisadi inkişafa start verildi. Əlbəttə, Ulu Öndərin böyük siyasi təcrübəsi, dünyadakı nüfuzu və ölkədə həyata keçirəcəyi möhtəşəm işlərin görülməsi üçün müəyyən planlar hazırladı. Bunlar üçün isə ilk növbədə neft sənayesini inkişaf etdirmək lazım idi. Xoşbəxt Yusifzadə kimi dünya şöhrətli, məşhur bir neftçinin, mütəxəssisinin möhtəşəm layihələrə cəlb edilməsi heç də təsadüfi deyildi. Çünki Xoşbəxt Yusifzadə Azərbaycan iqtisadiyyatını və o cümlədən neft sənayesini beş barmağı kimi bilirdi. Və o da Ulu Öndərə bu barədə fikirlərini bildirdi ki, zəngin neft və qaz yataqlarımız var, sadəcə olaraq, bunu müasir texnologiya əsasında qazmaq və hasil etmək lazımdır. Bunun üçün isə istər-istəməz xarici şirkətlərə böyük ehtiyac duyulurdu. Ulu Öndər bu məqsədlə çox böyük bir addım atdı. İngiltərənin məşhur BP şirkəti ilə müqavilələr bağlandı və əsrin neft müqaviləsinə start verildi.

Çox yox, beş-altı ildə bu layihələrin həyata keçirilməsi istər-istəməz öz müsbət nəticəsini verdi. Öz müsbət nəticəsini verdi ki, xarici şirkətlər Azərbaycan iqtisadiyyatına qoyduğu sərmayənin maya dəyərini çıxarmaqla yanaşı, izafi dəyər də qazandılar. Və Azərbaycanın büdcəsinə neft və qazın hasilatından milyardlarla dollar pul gəldi. Bax, həmin təbii sərvətlərdən əldə edilən vəsaitlə də Azərbaycan iqtisadiyyatı daha da möhkəmləndi, hərbi sənaye kompleksinin inkişafı və ordunun yenidən qurulması, müasir silahların alınması istiqamətində möhtəşəm işlər gerçəkləşdirildi.

Hansı ki ilk vaxtlar, yəni daha doğrusu, müstəqillik qazandığımız dövrdə heç bir ölkə risk edib Azərbaycana sərmayə qoymaq istəmirdi. Çünki həm ölkədə sabitlik yox idi, həm də dayanıqlı hakimiyyət mövcud deyildi. Amma Ulu Öndərin hakimiyyətə gəlişi ilə bu məsələlər öz həllini tapdı. İngiltərədən sonra digər böyük dövlətlərin Azərbaycana marağı daha da artdı. Onlar gördülər ki, ölkədə sabitlikdir, əmin-amanlıqdır və başqa ölkələrin iqtisadiyyata yatırdığı sərmayələrdən gəlir əldə edir, istər-istəməz həmin dövlətlərin də ölkəmizə olan marağı daha da artdı.

İlk növbədə qardaş Türkiyə, Bolqarıstan, Macarıstan, İtaliya, Ruminiya, Fransa, Rusiya və digər böyük dövlətlər Azərbaycanla iqtisadi əlaqələr qurmaqda çox maraqlı oldular. Çünki bayaq dediyimiz kimi, artıq Azərbaycan 1995-ci ildən sonra dünyaya inteqrasiya olmuşdu. Və dünya da gördü ki, bu zəngin və gənc dövlət çox böyük iqtisadi potensiala malikdir. Bütün bu deyilənlər istər-istəməz Azərbaycanın inkişafını daha da sürətləndirirdi. Və artıq Azərbaycan dünyanın əksər ölkələrinə özü sərmayə qoyur, orda böyük layihələr həyata keçirir və eyni zamanda yeni uğurlara imza atırdı.

Azərbaycanın bu addımları və sürətlə iqtisadi inkişafı, eləcə də dünyaya inteqrasiya olunması onun beynəlxalq təşkilatlarda nüfuzunu daha da artırırdı. Heç şübhəsiz, bunları görən beynəlxalq təşkilatlar Azərbaycana tək iqtisadi maraqlarla deyil, həm də mədəni və sosial idman maraqları ilə yanaşırdı. Çünki Azərbaycan son iyirmi ildə prezident İlham Əliyevin çox uzaqgörən və müdrik siyasəti nəticəsində böyük idman oyunlarına ev sahibliyi edib. Və bu idman bayramında Azərbaycana yüzlərlə ölkədən idmançılar və nümayəndələr gəliblər. Onlar Azərbaycana gəldilər və əsl həqiqətləri, sürətli inkişafı, iqtisadi tərəqqini, mədəni yüksəlişi gördülər. Heç bir ölkədə onlara göstərilməyən diqqət və qayğı Azərbaycanda nümayiş olundu. Eyni zamanda onların təhlükəsizliyi çox yüksək səviyyədə təmin edildi. Dünyanın ən məşhur idmançıları Azərbaycanda keçirilmiş möhtəşəm idman bayramı ilə əlaqədar öz ölkələrinə qayıtdıqdan sonra yaddaqalan və sevindirici fikirlər səsləndiriblər. Hətta BMT-nin baş katibi də bu möhtəşəm tədbirlərdə, eləcə də siyasi yığıncaqlarda Azərbaycanda yaradılmış şəraitdən çox razılıq edib.

**Azərbaycan öz ərazi bütövlüyünü təmin edəndən sonra onun dünyada nüfuzu daha da möhkəmləndi. Dünya gördü ki, Azərbaycan artıq 90-cı illərdəki ölkə deyil, bu ölkədə çox böyük iqtisadi inkişaf, tərəqqi və mədəni dirçəliş mövcuddur. Bir sözlə, Azərbaycan şərəflə, uğurla dünyaya inteqrasiya olunub. Və bu ölkəyə hansı dövlətdən nümayəndə gəlirsə, çox təhlükəsiz və rahat öz vətəninə qayıdır. Və Azərbaycan belə bir sabit, gözəl və Avropa səviyyəsində demokratik bir dövlətdir.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# *Elşən Əkbərzadə:* "Atam dünyasını dəyişəndən sonra kimi itirdiyimi anladım"

*Onun şeirlərinin əsas mövzularından biri Qarabağ idi. 1990-cı illərin əvvəlində baş verən Qarabağ hadisələri Şahmar Əkbərzadənin səhhətinə ciddi təsir edir. Ürəyi Qarabağla döyünən şair Qarabağın işğalı ilə barışa bilmirdi. Onun şeirlərindəki həsrət oxucunun gözündən yayınmırdı. Şəxsiyyəti və poeziyası ilə ürəklərdə yaşayan Şahmar Əkbərzadəni oğlu Elşən Əkbərzadə ilə xatırladıq.*

**-Atanızı necə xatırlayırsınız?**

- Çox diqqətcil, qayğıkeş insan idi. Yay tətilində kəndə gedirdik. Atam ezamiyyətdə olan kimi yanımıza gəlirdi. Kəndə gedən kimi qohumlara baş çəkirdi. Tək ailəsinə, övladlarına yox, qohum-əqrəbaya da can yandırırdı.

Sonra Şuşaya, Laçına gedirdik. Həmişə atamı xoş xatırlayıram.

**- Onunla birlikdə istirahətə getdiyiniz vaxtlarda hansı unutmadığınız hadisə olub?**

-Çox körpə idim. 70-ci illərin ortaları idi. Laçının İmanlar kəndindən Qaragölə getdik. Atam gəncliyində həm çox gözəl voleybol oynayırdı, həm də yaxşı üzməyi bacarırdı. O, Qaragöldə üzməyə getdi. Kölgə kimi xatırlayıram, arxasınca qışqırdım: ata, qayıt, ata qayıt! O da qayıdıb gəldi.

Az bir zaman keçdi ki, mənim halım çox pisləşdi. Artıq heç nə xatırlamırdım. Təxminən 5-6 yaşım olardı. Mənə görə istirahətlərini yarımçıq saxlayıb, şəhərə qayıtmışdılar.

**-Şahmar müəllimi hər kəs şair kimi yüksək dəyərləndirir, bəs ata kimi necə ata idi?**

- Ailədə dörd övladıq. Həmişə bizimlə maraqlanardı. İşdən tez gələndə xüsusilə təhsilimizlə maraqlanırdı. Maraqlı xasiyyəti vardı. Məsələn, qəlbini oxşayan bir şeir olanda onu əzbərləməyi tapşırardı. Deyirdi ki, bu şeiri kim gözəl əzbərləyib mənə desə, ona nə istəsə alacam.

Yadımdadır, 80-ci illərin əvvəli idi. Bir gün gəlib dedi ki, Məmməd Arazgildən gəlirəm. Məmməd əminiz çox qeyri-adi, gözəl şeir yazıb:

***"Dünya sənin, dünya mənim,***
***dünya heç kimin"***

Həmin şeiri ilk əzbər bilən mən olmuşam. Şeir çap olunmamış atam onu kağıza köçürüb gətirmişdi. O şeiri gözəl əzbərlədiyim üçün atam mənə mükafat olaraq sevdiyim idman ayaqqabısını almışdı.

**- Onu tanıyan hər kəs deyir ki, çox maraqlı müraciət tərzi vardı: ay nənə, ay dədə.**

- Məncə, burda daha çox ləhcə rol oynayırdı. Deyərdim ki, ədəbiyyatımızda maraqlı ifadələrin bir çoxu Qarabağ bölgəsinə aiddir. Bildiyiniz kimi, atam da qarabağlı idi. Əlbəttə, onun nitqində bu sözlərin olması normal idi. Bu ifadələr atam üçün doğmalaşmış sözlər idi. Atam el- obasına çox bağlı idi. Özündən yaşca böyük insanlarla ünsiyyət qurmağı sevirdi.

Atam 60-cı illərin əvvəlində Çəmənli kəndində müəllim işləyib. Bakıda ali təhsilini başa vurandan sonra yenidən kəndə qayıdıb və orda iki il müəllim işləyib. Sonra yenə Bakıya qayıdıb.

**-Bu "get-gəl"lər arasında Bakı-Ağdam yolunda yəqin ki, çox şeirlər yazılıb...**

-Atamın Qarabağla bağlı çox şeirləri var. Yəqin ki, o illərdə də vətən haqqında gözəl şeirlər yazıb. Ancaq onun ən təsirli şeirlərindən biri dünyasın dəyişəndən sonra əlyazmalarının içindən tapdığımız sinə daşına yazdırdığımız şeiridir:

***Ölümümə inanma,***
***Ey məni ağlayan kəs.***
***Mənim ulu dünyama,***
***Ölüm üzükə bilməz.***

***Arzumu, diləyimi***
***Diləklərdə axtarın.***
***Məni məzarda deyil,***
***Ürəklərdə axtarın.***

**-Məşhur şeirlərindən biri də "48 ölçülü qadın paltarı" şeiridir...**

- O şeirin çox qəribə tarixçəsi var.




1975-ci ilin aprel ayında nənəm (atamın anası) dünyasın dəyişib. Təxminən 4-5 aydan sonra atam Gəncədə ezamiyyətdə olur. Gəncə Univermağının qarşısından keçəndə gözü vitrindəki bir dona sataşır. Mənim bildiyim qədəri ilə bu şeiri elə həmin gün Gəncədə mehmanxanada yazır.

**- Şahmar müəllim heç kəsin yolun kəsməyib, əksinə çox insanların yoluna işıq olub. Bəs onun ədəbiyyatda yolunu kəsənlər olub?**

- Bütün sahələrdə olduğu kimi poeziyada da belə şeylər var. Yazıçının yazıçıya, şairin şairə olan paxıllığı qaçılmazdır. 1998-ci ildə Türkiyədən atamın adına gələn dəvətnaməni ona verməmişdilər. Həmin tədbirə iki adam dəvətli idi. Atam və digər bir yazıçı. Hadisələr elə cərəyan edir ki, həmin yazıçı o tədbirə gedir, atam isə dəvətdən xəbərsiz olduğu üçün iştirak edə bilmir.

2000-cü ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi keçirilir. Atam da həmin tədbirdə iştirak edir. Türkiyənin məşhur ziyalılarından biri ona yaxınlaşıb Türkiyədəki tədbirə, niyə gəlmədiyini soruşur. Atam da həmin tədbirdən xəbərsiz olduğunu söyləyib. Həm də dəvətli olmadığını deyib. O isə atamın adına Yazıçılar İttifaqına dəvətnamə göndəriyini söyləyib. Sonra məlum olur ki, həmin xalq yazıçısı dəvətnaməni atamdan gizlədib, tədbirə tək gedir.

Atamın çox yaxşı dostları da olub. Atamı çox sevən insanlardan biri də İlyas İsmayılov idi. Atamın şeilərinin, şəxsiyyətinin vurğunu idi. Bir dəfə iş otağında mənə dedi ki, sənin atan çox qüdrətli şairdir. Çox az yazıb, amma tutarlı şeirləri o qədərdir ki, Azərbaycan yaşadıqca Şahmar Əkbərzadə yaşayacaq. Deyirdi ki, yerlilərimdən bir- iki nəfər mənə deyib ki, axı bu Şahmarda nə görmüsən? Bizi kənara qoyub, niyə onu oxuyursan? Əlbəttə, İlyas müəllim onların layiqli cavabını vermişdi.

**-Ona paxıllıq edənlərə reaksiyası nə olurdu?**

-Atam çox nadir hallarda hirslənərdi. Onda da çox möhkəm hirslənərdi. Daha çox ürəyinə salırdı. 1988-ci il mitinqləri olanda atam infarkt keçirtdi. Xocalı faicəsi baş verəndə bu dəhşətə ürəyi dözmədi, ikinci dəfə infarkt keçirtdi.

**- Deyirsiniz ki, atam dünyasını dəyişəndən sonra kimi itirdiyimi anladım...**

-Hə... Yeri görünür... Burnumun ucu göynəyir... Ailədə ən nadinc uşaq mən olmuşam. Həmişə atamı incitmişəm. Bir gün atamla dərdləşirdim.

Dedi ki, məni çox inicidrsən. İncitmə məni. Bir gün mən olmayanda bu hərəkətlərin yadına düşəcək, ondan çox yanacaqsan. Atamın bu sözlərin heç unuda bilmirəm.

Hər hansı bir el məclislərində qeyri-adi jestləri olurdu. Nurəddin Rzayev Akademik M. A. Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin baş həkimi işlədiyi dövrdə onun Rusiyadan 4-5 həkim qonağı olur. Nurəddin müəllim bağda həmin xanımlara qonaqlıq təşkil edir. Atamı da həmin məclisə dəvət edir. Xanımların atama baxmağı, ona qarşı diqqəti Nurəddin müəllimin gözündən yayınmır. Atam həmin xanımlara çox gözəl şeirlə oxuyur. Onun nitqi, savadı xanımları valeh edir. Ancaq eyni zamanda atam xanımların ona olan marağına qətiyyən əhəmiyyət vermir. Sözsüz ki, bu, atamın yüksək ədəbli olmağından irəli gəlirdi.

**-Şahmar müəllim qısqanc insan idi?**

-Atam anamı sevib, ailə qurublar. Bəlkə də anamı qısqanıb, amma bunu biz hiss etməmişik. Anam təhsilli xanımdır, işləyirdi. Atam bununla bağlı ona heç bir məhdudiyyət qoymurdu.

**- Şahmar Əkbərzadənin xatirəsini əbədiləşdirmək üçün hansı arzularınız var?**

- Ağdamda Şahmar Əkbərzadə adına küçə olacaq. Bir də Şahmar Əkbərzadə adına muzey nəzərdə tutulub. İlk olaraq düşünürdük ki, Çəmənlidəki evimizi muzey edək. İkinci Qarabağ savaşında qələbə qazandıq. Bu qələbədən sonra düşündük ki, elə muzey də şairin adını daşıyan küçədə yerləşsin.

**Əntiqə KƏRİMZADƏ**

## *Təqaüdçü aktyorlar niyə diqqətdən kənar qalıb?*



**Deyirlər ki, aktyorun ən böyük qazancı tamaşaçı alqışıdır. Səhnədə aktyora rol ifa etməyə ruh verən də, onu mənəvi yaşadan da məhz tamaşaçı alqışıdır. Ancaq bəzən tamaşaçı sevgisi aktyora kifayət edirmi? Əlbəttə ki, yox.**

**Axı aktyor da insandır və onun məişət qayğıları var. Doğrudur ki, məişət qayğılarını mədəniyyətə gətirmək olmaz. Ancaq aktyorun məişət qayğısı təmin olunmalıdır ki, onun beyni də ürəyi kimi səhnədə yalnız sənəti düşünsün. Aktyor da incəsənət insanıdır. Bu insanlar daha çox sevgiyə və diqqətə ehtiyacıdırlar.**

Adalet.az ömrünü sənətə həsr etmiş, illərini teatr səhnələrində keçirmiş hazırda ömrünün payız fəslini yaşayan bir neçə sənətkarın düşüncələrini öyrənərək,onların sənətkarların səhhəti ilə maraqlanıb:

**Xalq Artisti Valeh Kərimov** ona diqqətin, qayğının olmamasından gileylənib: "İndi elə şeylər yoxdur. Ömrünü sənətə həsr edən adamların ahıl çağında əhvalı ilə maraqlanmırlar. Çünki bunu görmürəm. Səhhətim normaldır. Ancaq yaşımla əlaqədar artıq işləmirəm. Təqaüdçüyəm. Nəinki maddi cəhətdən, heç mənəvi olaraq da heç bir aidiyyəti qurumun marağında deyiləm. Ancaq nə gözəl olardı insan xatırlansın, yada düşsün. Arzulayıram ki, sağlam yaşayaq. Ən böyük nemət can sağlığıdır".

**Xalq artisti Məzahir Süleymanov** isə ömrünün bu çağında Mədəniyyət Nazirliyindən heç kəsin onunla maraqlanmadığını qeyd edib: "Bilirsiniz ki, Xalq artistlərinin 99%-i Prezident təqaüdü alır. Ancaq nədənsə bu təqaüd mənə verilmir. Səbəbin də bilmirəm, heç bununla maraqlanmamışam. On il əvvəl yaşımla əlaqədar mədəni şəkildə Sumqayıt Dövlət Dram Teatrından kənarlaşdırılmışam. Rəhbərlik teatrda aktyorlara yaş məhdudiyyəti qoyulduğunu dedi. Hazırda 81 yaşım var, heç bir aidiyyəti qurum nəinki maddi, heç mənəvi də dəstək olmayıb. Bütün bunlar insanın sənət ruhuna təsir edir. Yaş məhdudiyyətinin teatrlara şamil edilməsi səhv düşüncədir. Axı səhnə aktyorun ikinci vətənidir. Artıq bircə arzum var ki, Allah verdiyi ömrü sağlam yaşayım".

**Xalq artisti Yasin Qarayev** isə heç bir aidiyyatı qurumdan dəstək gözləmədiyini vurğulayıb: "Ömrümün 51 ilini bu sənətə həsr etmişəm. Bu illər ərzində Mədəniyyət Nazirliyindən heç bir təbrik almamışam. Heç vaxt doğum günümdə və ya bayramlarda adi bir məktub belə göndərməyiblər. Bu diqqət olmayıbsa, sizə necə yalan deyə bilərəm? Ancaq bu mənim yaradıcılıq ruhuma qətiyyən təsir etmir. İnanın ki, heç bir qurumdan maddi və mənəvi dəstək ummuram. Heç buna ehtiyacım da yoxdur. Ola bilsin onların da qayğıları çoxdur, hər kəsə çata bilmirlər. Yəqin ki, belədir.Təqaüdçü olmağıma baxmayaraq, çalışıram. Gənc Tamaşaçılar Teatrında fəaliyyətimi davam etdirirəm. Hazırda "Hacı Qara" tamaşasını yenidən səhnələşdiririk, məşqlər davam edir. Həmin tamaşada mən də rol almışam.Bir dönəmlər teatrlarda yaş məhdudiyyəti var idi. Ancaq bu, bütün teatrlara aid deyil. Məsələn, bizim teatr bu qaydalarla işləmir. Səhnəyə uşaq da lazımdır, yaşlı aktyor da lazımdır, cavan aktyor da lazımdır. Əgər aktyorun səhhəti səhnədə söz deməyə imkan verirsə, o niyə işdən çıxmalıdır? Yaradıcılıq insanı yaşadır axı".

**Aktyor Allahverdi Yolçuyev** isə səhhətində problemlər olmasına baxmayaraq, işləmək istədiyini deyib: "Doğrudur, səhhətimdə problem olsa da, düşünürəm ki, işləmək mənə ruh yüksəkliyi gətirəcək. Aiddiyyəti qurumlar bir mddət əvvəl dəstək oldu. Artıq dəstək olmurlar. Ad günümdə də yalnız fəxri fərmanla təltif olundum. Düşünürəm ki, Mədəniyyət Nazirliyinin mənə ən böyük diqqəti məni işlə təmin etmək olar. Çox arzulayıram ki, yenidən teatrda işləyim. Mən özümü yenidən teatr səhnəsində rol ifa edəcək qədər gümrah hiss edirəm. İş həm maddi, həm mənəvi olaraq adamı yaşadır".

**Əntiqə**

| | | | | |
|---|---|---|---|---|
| **Təsisçi və baş məsləhətçi:**<br>**Aqil ABBAS**<br>**Baş redaktor:**<br>**İradə TUNCAY** | Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.<br>Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. | **KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**<br>kod: 200112 h\h<br>Müxbir hesab: 0137010001994<br>S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161<br>**İndeks:0107 Qeydiyyat nömrəsi 100** | Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.<br>**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**<br>**adaletqezeti@rambler.ru**<br>**adaletqezeti@mail.ru, adaletqezeti@box.az** | **Tiraj: 1500**<br>**Sifariş: 260**<br>Çapa imzalanmışdır:<br>25.12.2025 |